TAPDIQ ƏLİBƏYLİ

# Poetik buta

«Elm və təhsil»
Bakı- 2013

***Redaktor:***
*Nadir Məmmədli,*
*filologiya elmləri doktoru, professor*

**Rəyçi:**
*Vüqar Əhməd, şair,*
*filologiya elmləri doktoru, professor*

Tapdıq Əlibəyli. Poetik buta.
Bakı, "Elm və təhsil", 2013, 168 səh.

*Şair-publisist, tənqidçi Tapdıq Əlibəylinin "Poetik buta" kitabında ədəbiyyat və sənət düşüncələri yer almaqla, müxtəlif yazı manerasına malik olan ədəbi simaların yaradıcılıq məziyyətlərindən çağdaş ədəbi tənqidin estetik tələbləri məcrasında söz açılır.*

*Kitabda cəmiyyəti ciddi düşündürən mühüm aktual ictimai-siyasi hadisələrə münasibət də öz əksini tapmışdır.*

*Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.*

$\frac{4702000000}{N098-2013}$ ***грифли няшр***

**© «Елм вя тящсил», 2013**

Söz-könülə mərhəmət və şəfqətin ən uca pilləsidir.
**Məhəmməd Peyğəmbər (s.ə.s.)**

## TAPDIQ ƏLİBƏYLİNİN İRFAN POETİKASI
(ön söz əvəzi)

Çağdaş Azərbaycan ədəbiyyatında öz dəst-xətti, orijinal yazı manerası ilə seçilən yazarlar sırasında Tapdıq Əlibəylinin xüsusi yeri və çəkisi vardır.

T.Əlibəyli şeirlərinin başlıca məziyyətləri hansılardır?

Dilimizin poetik imkanlarından səmərəli istifadə, poetik detalların yerli-yerində işlənməsi və ən başlıcası isə bunların hamısının bütövlükdə xalqımızın etnoqrafiyası ilə vəhdətdə təsviri.

Müasir həyatımızdakı hər hansı adiliyin böyük poetik vüsətlə tərənnümü, ilk baxışda insanlara adi görünə bilən hadisə və faktların ictimai fonda verilməsi, ona milli münasibət Tapdığın şeiriyyət çələnginə xas olan cəhətlərdəndir.

Təbii ki, Tapdıq Əlibəylinin yaradıcılığı haqqındakı bu qeydlərim onun poetik dünyasını səciyyələndirən yalnız qısa bir xülasədir və bütövlükdə şairin yaradıcılıq uğurlarını əhatə edə bilməz...

Yeri gəlmişkən, özü haqqında deyim ki, Yardımlı rayonunun Bürzünbül kəndində dünyaya göz açmış, ali filoloji təhsil almış, iyirmiyə yaxın kitab, bir disk müəllifidir, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Heyrət" Ədəbi Birliyinin qurucusu və-

rəhbəri, “Konstitusiya” qəzetinin, “Heyrət” dərgisinin təsisçisi və baş redaktoru, “Qızıl qələm” mükafatı laureatıdır.

Ədəbi yaradıcılıq kontekstində T. Əlibəylinin poetik təlqinləri çeşidli olmaqla bərabər mütəhərrikdir. Poetik təfəkkürü insanın özünüdərki çözən mətləblərlə bağlı qavrayışlardan keçir və bu qavrayışlar milli təfəkkür qaynaqlarına dayaqlanır.

T.Əlibəylinin yaradıclığında seçilən bir xətt keçir ki, bu müstəvidəki şeirlərə irfan işartıları, irfani düşüncə hakimdir. İrfan daşıyıcısı olan belə örnəklər klassik poeziyamızın dərin qatları ilə səsləşir və mənəvi bağlarla Şəms Təbrizi (1185-1248), Mövlana Cəlaləddin Rumi (1207-1273), Yunis Əmrə (1238-1320), Məhəmməd Füzuli (1494-1556), Qaracaoğlan (1606 – 1674), Mir Həmzə Seyid Nigari (1795-1866), habelə, digərlərindən üzü bəri axıb gələn ilahi bir xətlə qovuşur.

Ərəb sözü olan “irfan” təsəvvüfdə “Allahı dərk etmə” deməkdir. İrfan idrakdır, mərifət elmidir, haqqa tapınıb da nurlanmaqdır. Kamil sufi mütəfəkkirlərinə – İmam Qəzaliyə, İbn Ərəbiyə, Şeyx Mahmud Şəbüstəriyə, Mövlanə Cəlaləddin Rumiyə və s. görə həqiqi sufi ilə Allah arasında heç bir məsafə yoxdur.

Görkəmli ədəbiyyatşünas, tənqidçi Yaşar Qarayev təsəvvüf haqqında yazırdı: ”Təsəvvüf-həm din, həm də fəlsəfədir, yaxud, ayrılıqda nə din, nə də fəlsəfədir. Dindən fərqi: insanı və təbiəti o, xaliqin yaratdığı, yoxdan var etdiyi xilqət hesab eləmir, xaliqin özü, onun zərrələri, görüntüləri hesab edir. Dindar- ibadətlə, sufi-eşqlə, kamala yetməklə haqqa yetmək yolunu tutur”.

Iki yolun ayrıcına çatmışam,
Biri işıq, biri zülmət-getməli...
Ay doğacaq günəş kimi batmışam,
Şəfəqlənib dan yerində bitməli.

Tapdıq Əlibəylinin təsəvvüf kontekstindən yanaşdığımız şeirləri asketizm ruhundan tamamilə uzaq olmaqla, sufizmin irfanilik məqamını özündə əks etdirir. Bu inanc dini ehkamlara kor-koranə, bəsit imandan fərqlidir.

Anlamazlar mühitində
Haqq sevərlər dərviş oldu.
Inamsızın xislətində
İmansızlıq vərdiş oldu.

Mən nə sufi, nə dərvişəm,
Hər ikisin haqq bilmişəm.
Soraqdayam,yol üstəyəm...
Haqq qatında bitib rişəm.

Rişəsi haqq qatında bitən şair hansı yol üstədir? Kimin və nəyin sorağındadır?

Bu suallara cavab tapmaq üçün elə Tapdıq Əlibəylinin özünə- ifan poeziyasına bələd olmaq gərəkdir. Bu istəklə də "yola" çıxaq, hansı ki... İnsan, Allahın bir zərrəsidir, o zərrə isə " tamın tamahında"...

Zərrə tamın tamahında,
Bütövləşər dərgahında.
Tapdıq haqqın günahında
Verməz sənə baş, ay dünya!

Tapdıq Əlibəyli haqqın dərgahına ruhi paklanma, saflaşmaqla can atdığını "günahlı" dünyaya bəyan edir, o dünyaya ki, dərviş (sufi) onu duya-duya tərki- dünyadır... Şair insanları dünyanın "əzablarına" (o əzablar ki, dünya

malı yığmaqdan keçir) aldanmamağa çağırır.”Nə vaxt bitər yuxularım? ”ritorik sualı poetik məntiqin dərin qatlarına sirayət edir.

Dərviş eşqi tərki- dünya,
Bu dünyanı duya-duya.
Dünya özü yarım röya...
Nə vaxt bitər yuxularım?

Dünya satır əzabları,
Aldanmasın alan barı!
Yuxu sandım bu bazarı .
Nə vaxt bitər yuxularım?

Yuxuların kölgəsiyəm,
Ayılanda gedəsiyəm.
Bircə onda biləsiyəm,
Nə vaxt bitər yuxularım?

Böyük Füzuli mükalimə tərzində yazmış olduğu “Rindü Zahid” əsərində Rindin diliylə gözəlliyə ilahi məna verir: “ Gözəllik Allah simasının aynasıdır, Allahın nurunun məzhəridir, Allah axtaranların məqsədə çatmaları üçün yol göstərəndir”.

Mövlana Cəlaləddin Rumiyə görə: Allah gözəldir, o səbəbdən gözəlliyi və gözəli sevir. Bəbəklərimizdən bir dünya gözəlinə boylanan biz deyilik, Tanrının özüdür...

O gözəllik ki, Tapdıq Əlibəylinin qəlbini riqqətə, varlığını ehtizaza gətirib, bütün aləmi bürümüş gözəllikdir, əbədi feyzin mənşəyidir.

Gözümə, könlümə köçən gözəllik,-
Tanrıdan boy alan bir əzəlilik.

Gəlimdən gedimə yol-əbədilik...
Baharla payızın gözəlliyi tək.

Yarpaq gözəlliyi-baharın hökmü,
Xəzan gözəlliyi-yarpaq tökümü,
Gəlimin gedimi-ilkə dönümü...
Baharla payızın gözəlliyi tək.

Sual doğur: Tanrıdan boy alan əzəli gözəllik, ” gəlimin gedimi-ilkə dönümü” niyə məhz baharla payızın gözəlliyinə bənzədilir? Fikrin müstəqimliyindən məcaziliyinə keçid edək. Birinci bəndin birinci beytində “görüntülənən” gözəllik gözdən könülə köçən olduğuna görə zahiridir. Yəni Tanrının aləmə bəxş elədiyi gözlə gördüyümüz bütün gözəlliklər. Birinci bəndin üçüncü misrası isə ruhi məqamla bağlanır və “görüntülənən” lə vəhdətdədir.

Ikinci bənddə iki fəsil (yarpaq - xəzan) eyniləşdirilir . Bu məntiqə söykənib şeirin ehtiva etdiyi irfani mənanı anlamaq olar: Baharda təbiət canlanır, tumurcuqlar yarpaqlanır ... ağaclar çiçəkləyir. Payız isə bar fəslidir, yəni payız nəticədir... Deməli, insanın dünyaya gəlişi – bahar, axirətə dönüşü-payız... Bax, bu müqayisədən qaynaqlanır şairin “baharla payızın gözəlliyi tək” irfan qənaəti.

Bu gözəllikləri görməyənlərin “soyuq baxışlarından üşüyən” şair“ qəriblik çəkəcək ruhumuz hələ”,- deyir.

Soyuq baxışlardan yaman üşüdüm,
Bəlkə, ötəridir deyib, düşündüm.
İllər sükutunda çilik ümidim...
Qəriblik çəkəcək ruhumuz hələ.

İşaran misralar –şölə üzümə,
Qələm də qızınır ürək közümə .
Yorğunluq kölgəsi, çökmə sözümə,
Qəriblik çəkəcək ruhumuz hələ.

Kövsər bulağıdır əbədi çeşmə,
Qərib dünyamızda ruhumuz təşnə...
Hazır deyiliksə haqq görüşünə,
Qəriblik çəkəcək ruhumuz hələ.

Poetik təfəkkürün irfan qatlarından süzülüb gələn **“Qəriblik çəkəcək ruhumuz hələ”** şeirində T. Əlibəylinin dəruni sənətkar həssaslığı duyulmaqda və dəruni ağrıları özünü göstərməkdədir.

Dünya gözlərimdə əriyir şam-şam,
Ovqatım həsrətlə sislənən ümman.
Bu qərib ümmanda yoxmu bir güman?
Yanğını sevirəm yandığım zaman.

Ney harayın, səsin ruhdan alıbdı,
İlahi yanğıyla cilalanıbdı.
Bu necə kədərdir, yuxu tək baldı?
Yanğını sevirəm, yandığım zaman.

Şair bu “qərib ümmanda” gümansızdırmı? Ona ney harayının yanğısını sevdirən nədir ? Onun nisgilini, kədərini “yuxu tək bal” edən kimdir?..

“**Yanğını sevirəm yandığım zaman**” şerindən doğan bu yönlü sorğularara cavab aramaq üçün gərəkdir ki, irfan yolçularına üz tutaq.

İrfan yolundakı ən böyük ariflərdən olan Mövlana Cəlaləddin Rumi “Məsnəvi” adlı əsərinə neyin hekayəsi ilə başlayır. Belə hesab olunur ki, neylə insanın hekayəti

arasında bir bənzərlik vardır. Allah insanı xəlq etdikdən sonra ona öz ruhundan üfürmüş və həyat vermişdir. Əzəli qamışlıqdan qoparılmış quru qamış olan neyə də neyzən öz ruhundan üfürərək həyat verir. Ney qamışdan ayrı qaldığı üçün inləməkdədir. İnsan da haqdan ayrı düşdüyü üçün iztirab çəkir, qərib olduğu dünyadan qurtuluş yolları axtarır.

İlahi eşq və gözəlliyi daim önə çəkən mütəfəkkir şair, haqq eşqi ilə yanan könüllərin sultanı Məhəmməd Füzuli neyə bənzərliyini belə dilə gətirir:

Ney kimi hər dəm ki, bəzmi –vəslini yad eylərəm.
Ta nəfəs vardır quru cismimdə fəryad eylərəm.

Tapdıq Əlibəyliyə görə, nisgilli əndişələrdən xilas olmaq üçün nicat yolu Ulu Yaradanın dərgahına sığınmaqdır. Bu qənaət onuni rfan poeziyasıdakı təlqinlərinin özülündə dayanır.

Dünyayla qaldım üz-üzə,
Sığındım təsəllim sözə.
Iblisə yol yoldaşıyıq,
Çirkab, şərə dözə-dözə...

Haqqın yolları dumandı,
Ötüb keçəsi gümandı.
Tanrı nuruna can atan
Adəmlə yaşıd inamdı...

Ilahi vəhylərdən ibarət, ilahi hikmətlər daşıyıcısı olan **Qurani-Kərim** əsrlər boyu ədəbiyyat xəzinəsi üçün tükənməz qaynaq olmuşdur. Klassik fikir daşıyıcılarımızın, ünlü qələm sahiblərimizin əksəriyyəti bu müqəddəs, qutsal

kitaba dönə -dönə üz tutmuş, ondan islami təfəkkürlə bağlı yaradıcılıq psixologiyasının çeşidli çalarlarını əxz etmişlər.

Tapdıq Əlibəylinin, Quran ayələrinə, Quran qissələrinə istinadən yazdığı şeirlər bütöv bir sistem olmaqla diqqət çəkir. Şübhəsiz ki, bu cəhət ilkin olaraq onun Quran bilgisiylə şərtlənir.

"Allah yoluna çağıran, yararlı bir iş görən və "Mən özümü Allaha təslim edənlərdənəm" söyləyəndən daha gözəl kim söz deyər? " **(Qurani- Kərim, Fussılət surəsi, ayə 33)**

Səs: -Allahu Əkbər, Allahu Əkbər...
Islamın "dili"ylə Xaliqdən xəbər.

Səma tək sonsuzdur, qübbədən uca,
Dəryalar tək dərin edilən rica.
Bu səsin sehrindən üfüq boyunca
Goylərdən enərlər sanki mələklər...
Azan sədasında "Allahu Əkbər".

"Allahu Əkbər"də Tanrı sədası,
Ilahi kəlmədə vəhdət sevdası,
Sovuşar bu səslə bəndə xətası...
Iblis xislətindən qurtular bəşər,
Azan sədasında "Allahu Əkbər".

Əzəlin, əsrarlı kainatın, dünyanın yaradıcısı kimdir? İlk yaranışın səbəbi nədir? Təbiətdə və insanın daxili aləmindəki neçə-neçə müəmmalar necə açılmalıdır?

Ən böyük təbiət alimləri zaman-zaman bu suallara doğru –dürüst cavab tapa bilməyiblər və bu barədə bu gün də qəti söz deyə bilmirlər.

Allah kəlamında deyilir: ”Onlar dünya həyatının sadəcə zahirini bilirlər, axirətdən isə tam xəbərsizdirlər.” **(Qurani-Kərim, Rum surəsi, ayə 7)**

Ağac da, heyvan da, quş da, böcək də
Böyük Yaradana edirlər səcdə.
Bəşər ovladısa ilkindən uzaq,
İblis əməllərlə gəlibdir vəcdə.

Bir kimsə birinə qəsd edən zaman,
“Canidir “- deyərək, verilmir aman.
“Alimdir”- deyirik şeytan fəhmiylə,
Qırğın silahların kəşf edən insan.

Getdiyimiz yoldan geri dönməli,
Harda ki yox idi şeytan əməli.
Xəlq edən kəm baxmaz yaratdığına,
Tanrıya uzansın bəndənin əli.

Qurani-Kərimdə Qədir gecəsinin fəzilətini bildirən müstəqil bir surə vardır. Bu surədə Uca Allah buyurur: “Həqiqətən, Biz onu (Quranı) Qədir gecəsi (lövhi-məhfuzda dünya səmasına) nazil etdik! Sən nə bilirsən ki, Qədir gecəsi nədir?! Qədir gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir! (O, ramazan ayının on doqquzuna, iyirmi birinə, iyirmi üçünə, iyirmi beşinə, bir rəvayətə görə isə iyirmi yeddisinə təsadüf edir). O gecə mələklər və Ruh ( Cəbrayıl) Rəbbinin izni ilə yerə enərlər.

O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır! (Qədr gecəsi heç bir bəla nazil olmaz, o, bütünlüklə xeyir-bərəkətdən ibarətdir. O gecə mələklər yer üzündə gəzib Allahın müxlis bəndələrinə salam verərlər.) **(Qurani-Kərim, Qadr surəsi, iayə 1-5)**

İnsan gəlişiylə sirli-soraqlı,
Agah etmək üçün nazildi Quran.
Əli dəstəmazlı, ağzı dualı,
Əbədi yol gedir Rəbbinə insan.

Tanrının hökmüylə "Qədir gecəsi"
Mələklərin göydən enən günüdür.
Qəlblərə nur saçır Tanrı sevgisi,
İnsanın Rəbbinə dönən günüdür.

Qiblə yönələn gün Qüdsdən Məkkəyə
Şeypuru susdurdu azan sədası.
Bütləri görmədi rəva Kəbəyə,
"Allahu-Əkbər"lə Quran nidası.

İslam tarixindən məlumdur ki, 623-cü ildə Məhəmməd peyğəmbər (570- 632) Mədinədə yəhudilərlə əlaqəni kəsir, qibləni Qüdsdən Məkkəyə tərəf çevirir. Ramazan ayını orucluq ayı elan edir və dindarları yəhudilərin şeypur, xtistianların kilsə zəngləri ilə ibadətə çağırışını azan verməklə əvəz edir. Qiblənin üzü Məkkəyə tərəf çevrilməsi, Qüdsü rədd etmək–Peyğəmbər tərəfindən Kəbənin müqəddəs yer kimi qəbul edilməsi demək idi.

"Yer üzündə bitən bütün ağaclar qələmlərə dönsələr, dəniz də mürəkkəbə-yeddi dəniz də üstəlik mürəkkəb olsa belə yazılmaqla bitən deyl Allahın kəlamları. "**(Qurani-Kərim, Luqmən surəsi, ayə 27)**

Rəbbimizin rəhman-rəhmi,-
Qüdrətində sevgi fəhmi.
Göy üzündən Yerə kimi
Insanlara məhəbbətdir.

Dünya düşür haldan-hala,
Mütləq olan Yaradanla.
“La ilahə illəllah”la
Islam dini hidayətdir.

Zaman-zaman peyğəmbərlər
Yaradandan verdi xəbər.
Surələri dildə əzbər,
Məhəmməddən əmanətdir.

Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə (tarix elmləri doktoru) Tapdıq Əlibəylinin “İman qaynağı” kitabındakı “ön söz” ün müəllifi olaraq yazır**:** ”Bismillahir-Rəhmanir-Rəhim! Allah kəlamında deyilir: ”And olsun qələmə və yazıya” **(Qurani-Kərim, Qələm surəsi, ayə 1)**. Yəni islamda bu qədər yüksək qiymət verilir sözə. Qələmə alınan hər bir yazı insanları Allahı tanımağa səsləyirsə, bu mənada qələm sahibinin tutduğu yol haqq yoludur.

Təbii ki, günəşin nurunu bir ətək ilə tutmaq olmaz. Bu gün artıq ateizmin cəfəng bir nəzəriyyə olduğu, təkamül nəzəriyyəsinin yanlış olduğu sübuta yetirilmişdir. Şükürlər ki, müstəqillik qazanmış Azəbaycan xalqı iblis təbliğatının buxovlarından azad olmaqla Tanrı nuruna boyanmaqdadır.

Digər bir məsələ də müqəddəslərimizin uyuduğu torpaqlarımızın hər qarışının qədrini bilmək, bu torpaqları qorumaq əzmi tərbiyə etmək, bu torpaqlarda yaşamaq haqqımızı anlamaqla bağlıdır. El arasında bir deyim var: ”Vətənə gəldim, imana gəldim”. İnşallah, toxunduğum bu məsələlər də Allahın köməyi ilə xalqımız tərəfindən öz müsbət həllini tapar. Tapdıq Əlibəylinin “İman qaynağı”

kitabı da özünün qayəsi ilə iman möhkəmliyinə, əqidə sağlamlığına xidmət edər.”

Bu “ön söz” möhtərəm Şeyxülislamın Tapdıq Əlibəyliyə verdiyi xeyir-dua, qələm əhlinin sözünü dəyərləndirmə idi.

Şirini, acını duyub yazıram;
Sevinclə kədəri əkiz dünyanın.
Ruhum göylərdəsə, köçə hazıram,
Əzəldən vəfası yoxsa dünyanın...

“Köçə” hazır olduğunu bildirən şair Ulu Tanrıya üz tutur, “təşnə ruhun yanğısıyla” iblis torunun külə dönməsini dua edir.

Tanrım, bizi şərdən qoru,
Sozalmasın ürək qoru.
Təşnə ruhun yanğısıyla
Külə dönsün iblis toru.

Quran qissəsinə üz tutaq: Şeytan Adəmə səcdə etməkdə Allahın buyuruğundan boyun qaçıraraq dedi: “Mən mənşə və mahiyyətcə Adəmdən üstünəm və heç kəs mənimlə bərabər ola bilməz. Heç bir varlıq mənim uca rütbəmə çata bilməz. Mən odun yanar cövhərindən yaranmışam, o isə qara gil tərkibindən. Ona görə də mənə yaraşmaz ki, ona səcdə edəm”.

Adəm- Həvva Haqdan gəldi,
Bu xəmirdən yoğrulmuşuq.
Şeytan haqqı üstələdi...
Haqqa dayaq doğulmşuq.

“Adəmə səcdə eləyin“ demişdik mələklərə bir zaman. Hamı səcdə elədi, iblis eləmədi. Dedik: “Ey Adəm, sənə də, zövcənə də düşməndir o, şübhəsiz. Gözlə sizi cənnətən çıxarmasın, əziyyətə düşərsən... Şeytan pıçıldadı: ”Ey

Adəm, sənə əbədiyyət ağacını, fani olmayan bir səltənəti göstərimmi?” O ağacın meyvəsindən hər ikisi yedilər. “ **(Qurani- Kərim,Ta-Hə surəsi, ayə 116-117, 120 -121)**

Bu dünya malına həris olanı,
İnsan insanlığın çıxarıb yaddan.
Tutduqca naqislik, pislik insanı,
Enir ucuzluğa o uca addan.

İlkinə sadiqmi Adəm övladı?
Boğur insanlığı tamah havası.
Cənnət bağındakı meyvənin dadı,
Şeytan əməlində nəfsin davası.

Çıxarma yadından, ey uca insan.
Tanrının nuru var əzəl ruhunda .
Mələklər səcdənə gəldiyi zaman,
Şeytan günah etdi Allah yanında.

Quran qissəsində Adəmin oğulları olan Qabil- nəfsinə qul olan şər qüvvə, Habil isə haqqa bağlı olan, xeyir, yer üzündə öldürülən ilkin kəsdir.

“Nəfsi sövq elədi onu (qurbanı qəbul edilməyən-Qabil) qardaşını öldürməyə, öldürdü qardaşını(Habili). İtkiyə uğradı.”**(Qurani-Kərim, Məidə surəsi, ayə 30)**

Dünyanın əşrəfi bəşər sakini,
Görən dərk edirmi Adəm ilkini?
Insan xislətində göyərib bəlkə,
Qabilin Habilə nifrəti, kini...

İblis ürəklərdə çəkəndən keşik,
Bəndə Tanrısına çıxıbdı şərik.
Haqqa dayaq gəlib,amma nə yazıq,
Mələk libasında şeytanıq, şərik.

“İki tərəf (cənnət və cəhənnəm əhli) arasında pərdə var. Əraf üzərində hər iki tərəfi üzlərindən tanıyan adamlar dayanıblar. Cənnət əhlini səsləyərək “Sizə salam olsun” “deyərlər. Bunlar cənnətə girməyiblər, amma cənnətə girməyin arzusuyla yanırlar.”(**Qurani-Kərim, Əraf surəsi, ayə 46)**

Bu gecə yuxuma haram qatmışam,
Halallıq üstündə köklənib ruhum .
İblis qarasına daş da atmışam,
Haramım ədalət, halalım, Ulum?!

Dünyaya gəlsə də neçə peyğəmbər,
Allah xofu yoxsa bəndə canında,
Ədalət korşalıb çalmayır zəfər,
“Əraf” əhli kimi məhşər anında...

İblisə üsyanmı -ədalət yolu?
Bəndəyə nifrətmi, ürəklər dolu?
Hər kəs öz qınında, Ulu Yaradan,
Bu yol səninkisə, sən özün qoru!

**“**O gün gümüş tək əriyər göy, didilmiş yun kimi olar dağlar. Dost dostun hayına qalmaz, bir –birinin üzünə baxıb qalar dostlar o gün.Əzabdan qurtula deyə suç yiyəsi hazırdır qurban verə oğul-uşağını, arvadını, qardaşını,ona yaxınlarda yer vermiş olan qohumlarını. Yer üzündə kim varsa fəda eləyər özünün nicatı üçün. Cəhənnəm odundan heç nə xilas etməz onu. Dərisini, ətini bişirib qoparar bu od . Çağırar, çəkər özünə cəhənnəm haqqa arxa çevirən, haqdan üz döndərən kimsəni, bir kəsin haqqını vermədən sərvət yığan kimsəni. ” (**Qurani-Kərim, Məaric surəsi, ayə 8-18)**

Artıbdır dünyanın şəri,
Tükənər Tanrının səbri.
Yer üzü ilkindən uzaq,
Verilər qiyamət əmri.

“Elə ki, titrəm-titrəm titrədi yer və içindəki yüklərini çıxardı yer, insan deyər: ”Bu nədir, nə olmuş yerə? ” Üstündəki olmuşlardan o gün xəbər verər yer.” (**Qurani-Kərim, Zilzəl surəsi, ayə 1-4)**

Tapdıq Əlibəyli iki minlik eramızın sonuncu ilinin 25 noyabr gecəsi Bakını lərzəyə gətirən zəlzələdən təsirlənərək yazır:

Edibdir zəlzələ yer ilə yeksan,
Gör neçə kəndləri, neçə şəhəri.
Bu güc qarşısında acizdir insan,
Nə qədər artsa da elmin hünəri.

Gecə dirigözlü açdı səhəri,
Bərabər yaşadı kasıbla varlı.
Qana işlədikcə qorxu zəhəri,
Endirdi yüksəkdən “ucalıqları”.

Canlara vəlvələ salan zəlzələ
Bəlkə, bir sınaqdı, bəlkə də, çağırış.
O gecə hamımız verdik əl-ələ,
Bəlkə, bu məqamdan başlanır çıxış.

Tapdıq Əlibəyli **“Müqəddəs torpaq-mübarək qədəm”** publisistik yazısında torpağın müqəddəsliyini ilkinliklə yaradılışla) bağlayır: ”Müqəddəslər sırasında, vətəndaş ünvanı olan Vətən ilkin olaraq hər kəsin doğulduğu, boya-başa çatdığı doğma yurddan, eldən, obadan başlayır. Bu əzəlilikdə bir paklıq, bir saflıq durur. Ömür

pillələri artdıqca bu paklığı, saflığı cilalayan gizli bağlar insanın bütöv varlığına hakim kəsilir. Ilkin qədəm basdığı torpağa ruhunu pərvazlandırır... Əzələ! İllah da bu işıqlı dünyaya göz açdığın torpaq-ocaqdan uzaq olanda ... Görünür, bu da bəndənin Tanrısına dönüş məqamına yaxınlıq nişanəsidir. Bu müqəddəs duyğular Tanrının hökmüylə canımıza- qanımıza hopan "qayıdış" işartısıdır.

İlahi kəlamın cazibəsinə düşürəm: "Torpaqdan yaratdı Adəmi Allah. Sonra "Ol»-dedi ona, torpaqdan var oldu o ". **(Qurani -Kərim, Əl-i İmran surəsi, ayə 59)**

Nəfsinə qul olan insan,
Dünyadan nə aparırsan?
Bir düşün,torpaqdır sonun,
Ömürdə nə qazanırsan? –

sualına şair başqa bir şeirində özü də cavab verir: "omrün qazancı"nı "rəhmət", və "lənət"də görür. "Rəhmət"- savab əməllər, xeyir işlər, halallıq; "lənət"- rəzil əməllər, şər işlər, günahdan qaynaqlanır .

"Rəhmət"-cənnət xoşbəxtliyi ilə müjdədirsə, "lənət"- cəhənnəm əzabının xəbərdarlığıdır.

Ikicə kəlmədir ömrün qazancı-
Birisi "rəhmət"dir, birisi "lənət".
Biri şirindirsə, birisə acı,
Hər kəsin əməli özünə qismət.

"Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar." **(Qurani-Kərim, Bəqərə surəsi, ayə 81-82)**

Araşdırmalar göstərir ki, Tapdıq Əlibəylinin Qurani-Kərimdən qaynaqlanan şeiriyyəti, poetik örnəkləri onun

yaradıcılığında xüsusi yer tutmaqlla, Qurani -Kərimin cazibəsində mənəviyyat, ruhaniyyət məqamındadır.

T.Əlibəyli irfani düşüncəsiylə bütün təriqətlərin fövqündədir.

Inanc yeri məscid, kilsə,
Fərq eyləməz, Tanrı bilsə ...
Minbərlərdə duaların
Gücü çatmır bir iblisə ?...

Tapdıq Əlibəylinin irfan poeziyasına "büründükcə" dilimizin şəhdinə-şəkərinə bir daha qaynayıb-qarışırıq:

Səmam qara buludlu,
Səpələyir hey dolu...
Selləndikcə el yolu,
Sinəm dönər körpüyə.

Tapdıq Əlibəyli insan duyğularının min bir "rəngini" ustalıqla ecazkar sözə köçürür-şeiriyyətə çevirir. Nəzər yetirək:

Tənhalıqla kədər əkiz,
Üz qoynunda –xəyal dəniz .
Həzinliyi məhrəm, əziz...
Duyğuların qürub çağı.

Kədərimlə bir böyüdüm,
Göynədikə göyüm-göyüm.
Qübarlandı yerim-göyüm,
Duyğuların qürub çağı.

Qətrə-qətrə döndüm suya,
Ağrıları duya-duya.
Biləmmədim gerçək, roya...
Duyğuların qürub çağı.

Tapdıq Əlibəyli irfan poeziyası ilə haqqa gedən yolun yolçusudur. Qəlbində haqq bitirmiş şairin sözünün qatı, özünün zatı halallıq fəxarətindədir.

Haqqa pənah gətirmişəm,
Əyri yolu itirmişəm.
Qəlbimdə haqq bitirmişəm .
Şərəfimdə halallıq var.

Türk sözünün qatı dərin,
Dayaz olmaz zatı dərin,
Nizamında xeyrin-şərin,
Tərəfimdə halallıq var.

***Səyadulla Kərimli**,*
*yazıçı-publisist, tənqidçi*
***11.11.2011***



## SÖZ KƏHKƏŞANINDA POEZİYA BÜRCÜ

*Qılınc kimi suvar sözü,*
*Döyüşlərə apar sözü.*
***Məmməd Araz***

Yolum demək olar ki, hər gün bu bağdan-“Zabitlər”dən keçir. Redaksiyamız (“Konstitusiya“ qəzeti) bu bağın həndəvərində olduğundan əsas gediş-gəlişim də bura təsadüf edir. Bağda gövdəsi yarı yanmış, oyuğu kömürləşən bir tut ağacı var, yanından etinasız ötə bilmirəm. “Əmi” deyə müraciət etdiyimiz bənzərsiz şair Məmməd Arazla bağlı bir xatirə tilsimləyir burdan keçəndə məni .

...Məmməd Arazın solğun, lakin nurani çöhrəsində xəfif bir təbəssüm var idi. Baharın nisan ayının həlimliyi deyəsən, bir az da həlimləşdirmiş, kövrəltmiş, duyğulundırmışdı şairi. Əlinəki əsaya dirsəklənib oyuğu kömürləşən ağaca heyran-heyran tamaş edirdi. (Görən, Məmməd əmi nələr düşünürdü, ilahi?!) Şairin necə deyərlər, “canlı əsası”– daim qayğısını çəkən, “dədə” deyə müraciət edən Mais dostumuz isə nədənsə şairdən kənarda dayanıb fikrə getmişdi. Bəlkə də, şairi düşüncələridən ayırmaq, “tənhalığına” mane olmaq istəmidi... Məmməd Arazın nəzər-diqqəti tut ağacının “ qaysaqlanmış yarasında” idi. Kənardan xeyli seyr etdim şairin bu halətini. Handan –hana yaxınlaşıb ziyarət etdim .

Baxışlarında bir nisgil var idi şairin... Bahrın cilvəli çağında yaşıllığa bürünmüş bu guşədə görən, niyə məhz ”yaralı” bu tut ağacının seyrinə dalmışdı?..

Bəlkə, öz taleyinin oxşarlığını təbiətdə sonuncu dəfə seyr etdiyindən, ömrünün sonuncu ilinə düşən bu baharla vidalaşması idi? Bəlkə, onun üçün bu baharın sonuncu olması dammışdı ürəyinə...

...Məmməd Araz ömrünün 72-ci ilində (1 dekabr 2004-cü il) dünyasını dəyişdi. Məmməd Araz dünyası isə əbədidir, dəyişməzdir. Nə qədər ki, ruhumuzun təsəllisi, mənəvi dünyamızın aynası olan poeziya duyğulara sığal çəkirsə, Məmməd Araz ədəbi irsi də zamandan asılı olmayaraq ürəkləri riqqətə gətirəcək, hər nəsil öz ruhunda yaşadacaq və yaşayacaq Məmməd Araz dünyasını.

Şərqin böyük mütəfəkkirlərindən olan Cəlaləddin Rumi demişkən:

Ölümümüzdən sonra məzarımızı yerdə arama,
Ariflərin könlündədir könlümüz.

Məmməd Araz haqq nuruna boyanan haqq şairi idi.

Müqəddəs Kitabımız Qurani- Kərimdə deyilir:

“...Şairlərə sapmışlar, pərəstişkar adamlar tabe olarlar. Məgər görməmisənmi bir söz vadisindən o birisinə keçərkən necə hədlərini aşırlar. ( nə həcv, nə də mədhiyyə qoşmaqda sərhəd gözləmirlər) Eləmədiklərini “eləmişik” deyərlər. Ancaq başqa şairlər də var bunlardan deyil onlar. O şairlər ki, iman gətiriblər, saleh işlər görüblər. Alahı tez-tez anıblar, zülm çəkəndən sonra uğur qazanıblar”. (Qurani- Kərim, Şuarə surəsi, ayə 224-227)

Məmməd Araz iman gətirən şairlərdəndir. Ömrü boyu mədhiyyədən uzaq olan şair yazır:

Xəzəli pul olan bağın

Bağbanından qəpik çıxmaz.
Bardan-bara salam görən
Əriyindən ərik çıxmaz.

Dərd dərədi, dərə mindi,
Çəyirtkələr  dəvə mindi,
Dövşanlıq ki dəbə mindi,
Göy talaya əlik çıxmaz.

Zaman çeynər yeyin-yeyin ;
Yavanlıqdı yavan-yeyin .
Yüz də deyin, min də deyin,
İsmi dönük dönük çıxmaz.

Məmməd Araz haqqında müxtəlif səviyyələrdə dəyərli fikirlər söylənib . Hər biri də öz tutumu, deyim tərzi, sanbalı ilə diqqət çəkəndir. Lakin bu poetik dünyanın incəliklərini, onu yaradan qələm sahibinin məziyyətləri ilə küll halında, həmahəng əks etdirən fikirər,  zənnimcə, daha tutarlı,  daha önəmlidir.

Xalq şairi Sabir Rüstəmxanlının bir fikrini xatırladım: “Qüdrətli bir müğənni üçün pərdələrdə gəzənək nə qədər adi bir işdirsə, Məmməd Araz üçün də dilin zilinə qalxmaq, bəminə enmək o qədər asandır.

Məmməd Araz şeiri-sözün ictimai gücə çevrilmək nümunəsidir.

...Məmməd Araz şeiri təzə qan kimi oxucuların damrına vurulur.”

“ANS”–çi kimi tanıdığımız telejurnalist Mirşahin Ağayev Məmməd Arazın dəfn mərasimindən sonra maraqlı bir fikir söylədi: “Məmməd Araz poeziyamızın Ətağasıdır...” Düşündürücü fikirdir:  Şəfaətini Mirmövsüm

(Ətağa) ağada görən kəs təbii ki, Ağanı vasitəçi, Yaradanı şəfaətçi bilərək, üz tutur... Bu, bir inancdır.

Fiziki qüsurla, mənən kamil yaşayıb dünyasını dəyişən Ağadan diləmək, ona beyət etməkdir. Bu müqayisə Məmməd Araz poeziyasına, şəxsiyyəinə, xalqın öz şairinə inancının, rəğbətinin obrazlı ifadəsidir.

Şair "Vəsiyyət" şeirində yazır:

Qara cilddə çap eləyin kitabımı
Məndən sonra.
Qara cilddə.
Tünd qara.
Qoy qara kağızım olsun
O kitab dostlara, tanışlara.
Mən o rəngi sevərdim;
Boynu bükülü dərdim,
Pardaxlı sevincim
O rəngdə geyinərdi.

Mən o rəngi sevərdim.
O rəngdəydi varaqlarda
Fikrimin yazı geyimi...
O rəngə hörmətimdir,
Şəvəgözlülər, qarabuğdayılar.

O rəngli kirpiklərin kölgəsində
Əksim yaşardı.
O rəngin bir ev dolusunda
Vəslim yaşardı.
O rəngin ən durusu,
Safıdır
Məni oxşayan ağılar.

Qızlarımın gözündə
O rəngin özü ağlar.
Qara cilddə çap eləyin kitabımı,
Məndən sonra
Tünd qara.
Fəqət soy - adımı
Süd rəngiylə həkk edin ora.
Daha nə deyim,
Qoy mən
Qara torpaq üstündə
Üfüqə doğru gedən
Ağ yola bənzəyim.

Qara torpaq üstündə üfüqə doğru gedən ağ yola dönmüş Məmməd Araz haqqında xalq şairi Rəsul Rza hələ 1977-ci ildə yazırdı ki, Məmməd Arazın mövzuları bir çərçivədə məhdudlaşıb qalmayıb. Həyatın müxtəlif səhifələri, müxtəlif bəlirləri onun yaradıcılığında poetik deyimini tapmışdır.

Onun bir sıra lirik parçaları – təbiət gözəlliklərinə könüldən vurğun bir rəssam kimi çəkdiyi mənzərələr, lövhələr yadda qalır, oxucunu düşündürür, dəfələrlə görmüş olduğu dağları, dərələri, çəmənləri, bulaqları, könül oxşayan mənzərələri yeni "gözlə" görməyə, yeni çalarlarla duymağa yön verir, dönə-dönə baxdığımız, lakin görmədiyimiz rəngləri, biçimləri qarşımızda canlandırır.

Təkrar başlayan yerdə sənət qurtarır. Deyilmiş olanı bir də deməyə ehtiyac varmı - əgər bu deyim yeni bir detal, yeni bir çalarla zənginləşmir, yeni bir duyğu oyatmırsa?! M. Arazın bu baxımdan bəyənimli şeirləri az deyil. Bu şeirlərdə təkrar yox, yeni bir təsdiq var, oxucunun idrak dairəsini genişləndirən, mənəvi aləmini zənginləşdirən

baxım yönü var. Şairin təbiət lirikası üçün belə şeirləri xarakterikdir.. Bəzən təkrarlara da rast gəldikdə deyirik: bunlar müəyyən pillədə nəfəs dərmək, ləngiməkdir.

Lakin M. Arazın yaradıcılığında tapıntılar, səmimi vurğunluq, poetik yanğı üstündür, onun əksər şerlərinin leytmotivini təşkil edir.

M. Arazı – şair Arazı ən çox düşündürən insandır, onun mübarizəsi, ağlı-qaralı günləri, mürəkkəb tale yoludur. Bunu istər kiçik həcmli, istərsə də bir sıra iri həcmli əsərində görmək olar.

Onun kitablarını vərəqlədikcə mənə elə gəlir ki, şairin obrazı gözümdə get-gedə daha aydın görünür. Onun poetik varlığının uzaqdan, az tanışlıqdan yaxşı görünməyən cizgiləri aydınlaşır, müxtəlif rəngə dolur, qabarır, daha bəyənimli olur.

Elə bil ki, uzaqdan, kölgədən çıxıb yavaş-yavaş işıqlığa gələn bir adamı görürsən. Sətirlər təmkinlə, həvəslə, qürurla, nigaranlıqla yaxın bir insan qəlbinin nəğməli aləmindən xəbər verir.

Məmməd Araz poeziyasının məziyyətləri haqqında hələ çox fikirlər söylənəcək, və yazılacaq. Mən sadəcə olaraq dəryadan damla timsalında bir məqamı qeyd etmək istəyirəm. Məmməd Araz poeziyasında mövzu zənginliyi vahid struktur bütövlüyünə köklənir. Bu bütövlük şairin “ mizan-tərəzisinin“ haqq pərsəngində olması ilə şərtlənir. Oxucunu psixoloji ətalətdən silkindirir, öz poetk kredosunu –məslək kredosunu aşılayır. Məmməd Araz poeziyası Ulu Sözün poetik məqamında bizi duyğuların zirvəsinə ucaldan bənzərsiz bir dünyadır. Bu dünyanı yaradan şair özü isə dünyaya Azərbaycan dünyasından baxır:

Azərbaycan – qayalarda bitən bir çiçək,

Azərbayan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxır dünyaya.

Baxır söz-zöz, misra-misra Azərbaycan xalqının müqtədir oğlu, xalq şairi. ( təkcə fərmanla verilən təltiflə deyil, sözün müstəqim mənasında da xalq şairi) "Ayağa dur, Azərbaycan!" çağırışı, himni ilə baxır Azərbycana ölməz söz sərkərdəsi.

Nə yatmısan, qoca vulkan, səninləyəm,
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik.
Səndən qeyri
biz hamımız ölə billik!

Bədi fikir daşıyıcılarından olan İ.Y. Frankonun " Böyük şairlər xalqın vicdanıdır" deyimi unudulmaz ədəbi sima olan Məmməd Araz şəxsiyyətinin və şeiriyyətinin boyuna biçiilb. Şeiriyyəti duyğularıma məhrəm və məlhəm olan Məmməd Arazın dünyaya "özü kimi" sığal çəkən söz qatına yenməyə çalışıram . Çağdaş ədəbiyyatımızın – söz kəhkəşanımızın poeziya bürcü haqqında vaxtilə (1994) yazdığım "Təzələnir söz qatı " adlı şeirim ustadın ruhuna ithafən, poetik ovqatla yaddaşımda bir daha misra-misra yarpaqlanır.

Заман мякан цстцндя чапырдыр юз атыны,
Долайыб биляйиня дцнйанын дамарыны.
Мяммяд Араз кялмяси тязяляр сюз гатыны,
Дцнйайа юзц кими чякяндя тумарыны.

Агил сюзц-щагг сюзц, щаггын олар бир цзц;
Аьызда дил сцмцксцз, амма сцмцк сындырар.

Эюряндя бир бичимдя нашы яйри иля дцзц-
Кор эюзляря шаирин сюзц чыраг йандырар.

Дцнйа дяйирман дашы, щярляндикъя щиккяли,
Цйцтся нечя кяря уну олмаз кяпяксиз.
«Бир зяррянин ишыьы» милйонлара шярикли,
Ня гядяр ки, ишыг вар, олмайаъаг шяриксиз.

«Дцнйа сянин» дейяндя, дцнйа мяним дейянляр,
Йаныллды эцманында дуйьусуз, даш црякляр.
Дцнйаны еви бился бу дцнйайа эялянляр,
Дцнйамызы бязяйяр, ачар эцлляр, чичякляр.

О «ити базарында атындан баща» дцнйа,
«…Талейин ойунунда» нечя кяря кям олду.
Аразын ахарыны кясди »хырсыз яждаща»,
Црякляр гцбарланды, эюзцн пайы ням олду.

Мисгал-мисгал о нями цряйинин истиси,
Гурутмаьа чалышды, юзц йанды, алышды.
Араз кечди юзцндян, доьду ъошмаг щявяси,
Говушдулар– эур Араз нур Араза гарышды.

*aprel, 2005*

**DUYĞULARIN ŞƏFƏQLƏNDİYİ POEZİYA**

*Şair şam kimidir, şam özü yanar,*
*Özgənin süfrəsi nura boyanar.*

### *Məhəmmədhüseyn Şəhriyar*

Söhbətlərimizin birində şair dostum **Əyyub Sabiroğlu** təvazökarlıqla:- Biz torpaq üzərində qurub-yaradırıq, siz isə kağız üzərində, -deyə, təbəssüm etdi... Amma nə ğözəl ki, Ə. Sabiroğlu həm də kağız üzərində yaradır: sözün sehrinə bələnə-bələnə, ürəyinin hərarətini misralara köçürə- köçürə.

Onunla tanışlığımız neçə illər öncəyə təsadüf edir. Elə bu tanışlığa körpü olan da məhz Sözdür. O söz ki, ürəyi daim qurub -yaratmaq eşqiylə döyünən Əyyub Sabiroğlu uzun illərdir ki, inşaat sahəsində işləməsinə baxmayaraq, ondan ayrı düşməyib, duyğuların işığında ona üz tutub, işığında pərvanəyə dönüb. Yeri gəlmişkən, qeyd edim ki, o, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu (Azərbaycan Memarlıq və İnşaat Universiteti) bitirib. İnşaat sahəsindəki səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə də təltif edilmişdir. Ədəbi yaradıcılığa isə erkən yaşlarından həvəs göstərib. Şeirləri 1977-ci ildən dövri mətbuatda dərc olunur. "Şəfəq dolu bir nəğmə" kitabının müəllifidir. "Məslək"  mükafatı laureatıdır.

Ə.Sabiroğlu yaradıcılığında bir-birini tamamlayan insan və təbiət gözəlliklərinin vəhdəti poetik mahiyyət kontekstində dolğun ümumiləşdirmələrlə əks etdirilmişdir. Gənclik illərində yazdığı şeirlərin birində deyir:

Yenə həzin-həzin oxuyur bülbül,
Görünür, halına yoxdur yananı.
Meşə də xəyala dalıb elə bil,
Başını alıbdır həsrət dumanı.

"Məlixan meşəsi"  bilmirəm nədən

Pərişan görünür gözümə bu gün?!
Bəlkə, çoxdan bura gəlmədiyimdən
Qonmuş yarpağına kədər söyüdün?

“İllərdən hörülmüş hasar” dalından
Şirin xatirələr boylanıb baxır...
“Balax bulağı”ndan su içən zaman
Sanki xatirədir, könlümə axır.

...Qarli-boranlı bir qış günü yolum Əyyub Taibovun rəhbərlik etdiyi tikinti idarəsinin inşa etdiyi baza- kompleksə düşmüşdü. Hər tərəfi ağ örpəyə bürümüş axşamdan yağan qar dan yeri ağarana doğru səngisə də, gündüz çovğun başlamışdı.

Tikinti obyekti Xəzərin sahil ərazisində olduğundan şaxtalı hava daha da dondurucu və kəsici idi. Dənizdən əsən güclü külək getdikcə şiddətlənir, quduzlaşmış dalğalar qəzəblə sahilə hücum çəkməkdəydi... Belə bir hava şəraitində Əyyub müəllim özünün isti iş otağında deyil, açıq havada iş başında idi. Əvvəlcə, təəccübləndim, düşünəndə ki, axı Əyyub müəllim şairdir, fikrim dürüstləşdi: elə belə də olmalıdır... Bu sətirləri yazarkən onun vaxtilə qışla bağlı qələmə aldığı maraqlı bir bəndi yada düşdü:

Quduz bir vəhşi tək ulayır külək,
Göstərmək istəyir sanki gücünü.
Kimi ləzzət alır şuba geyərək,
Kimi tək pencəkdə soyuq qış günü . (1979)

Təbiət şairi kimi tanıdığımız Musa Yaqubun təbirincə desək: “Əslində şeir olan yerdə gərək əlavə danışmayasan, şair haqqında izah verməyəsən. Çünki şairin fikri də, duyğu və düşüncəsi də, sevgisi də onun şeirlərindədir...”

Bu dilsiz yollara dikib gözümü,
Yolunu gözlərəm hər səhər, axşam
Məndədir Əyyubun səbri, dözümü,
Müqəddəs bir eşqə arxalanmışam .
(“Xəstəxanada”)

Bəllidir ki, bənzərsiz təbiət bəzəyi olan bənövşəyə yüzlərlə şeir həsr olunub. Ustadlar ustadı Dirili Qurbani hələ XVI əsrdə ədəbiyyatımızın solmayan “Bənövşə”sində deyir:

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşiq ağlın itirmiş,
Mələklərmi dərmiş, göydən gətirmiş?
Heyf ki, dəriblər az bənövşəni.

Aşiqanə görünüşlü, bahar müjdəli bənövşə mənəvi rişələrlə dühaların söz çeşməsindən su içən Əyyub Sabiroğlunu da özünə bənd edib .Bu gül ilham pərisinin qanadlarında öz lətif ətrini şairin söz ətrinə qatıb. Düşüb səhər- səhər çənə...az qalıb danışıb-dinə...“ Tanış mövzuda təzə söz deyə bilib”, -deyə biləcəyimiz “Bənövşə” qoşmasında Ə. Sabiroğlu yazır:

Büllur şeh damlası yanağındadır,
Bir şeyda bülbülün sorağındadır.
“Söyüdlü çeşmə”nin qırağındadır,
Düşüb səhər- səhər çənə bənövşə.

O “Söyüdlü çeşmə” ki, Ə. Sabiroğlunun dünyaya göz açdığı (8 aprel 1956-cı il), boya- başa çatdığı, ilk heyrətini pıçıldadığı doğma yurdun -Xaçmaz rayonunun Xanoba kəndinin füsunkar guşəsidir .

Əlimi uzatdım, onu qoparam,
Görüşə gedəndə yarçün aparam,
Mənə qəmli- qəmli baxdı bu zaman,
Az qaldı danışa, dinə bənövşə.

Əllərim titrədi, ürəyim əsdi,
Özüm də bilmədim bu nə həvəsdi.
Sirli baxışınmı qarşımı kəsdi,
Ya könlüm qıymadı sənə, bənövşə?

Sanki misralaradan kövrək, həsas bir ürəyin döyüntüləri eşidilir. Şairin bədii idrakının, poetik təfəkkürünün- qaynaqları xalq ruhundan süzülüb gəlir. Şeirin ovqatına qatıldıqca yaddaşımda poetik sözümüzün cəfakeşlərindən olan, Türk dünyasının tanınmış qələm sahibi Məmməd Aslanın "Şairliyi bahardan, bənövşədən öyrəndim...",-deyimi yarpaqlanır.

Əyyubam, gözəlllik aşiqiyəm mən,
Könlüm ilham alar güldən- çiçəkdən.
O gün ki vuruldum sənə ürəkdən,
Doludur söz ilə sinə, bənövşə.

Sinəsi sözlə dolu olan Əyyub Sabiroğlunun süjetli şeirləri də maraq doğurur. Təsvir olunan "süjet xətti" sadə və "boyasız" şəkildə öz poetik səciyyəsini, bədii həllini tapır. Bu sadəlik şeiri bəsitləşdirmir, əksinə zənginləşdirir. Diqqət edək:

Bir gənc öz əhdinə çıxdı vəfasız,
Uzaq bir diyarda ailə qurdu.
Yolunu həsrətlə gözlədi bir qız,
Ömrünü təkliklə üz-üzə durdu.

Qürbətdən bir tabut gəldi Vətənə...
O gəncin adıydı məzar daşında.
Sərib tər çiçəklər qəbri üstünə,
Bir qız ağlayırı, nənə yaşında.

Bəllidir ki, bədii ədəbiyyatın təsir qüvvəsi onun dili ilə, ifadə tərzi ilə şərtlənir.

Əbəs yerə deyildir ki, xalq, ruhuna yaxın olan ədəbi irsi sevə-sevə yaddaşında yaşadır. Dilin ədəbi müstəvidə səciyyəvi cəhətini, xəlqiliyi önə çəkən filologiya elmləri doktoru, professor Yusif Seyidov yazır ki, Vaqifin ədəbiyyat tarixindəki yüksək mövqeyi, ilk növbədə onun dili ilə bağlıdır.Vaqif yaradıclığı bizim üçün daha çox ona görə qiymətlidir ki, poeziyada klassik şeir dili kimi güclü ənənə qarşısında, öz dəbdəbəsi, adi danışıq çərçivəsinə sığmayan, çətin ifadə vasitələri ilə ümumxalq danışıq dilindən xeyli fərqlənən bu üslub qarşısında hamı üçün başa düşülən bir dildə, xalq üslubunda yazıb-yaratdı və məhz bu yolla o, şeir sənətini real həyata bağladı. XX əsr Azərbaycan şairi Məhəmməd Hadi kimi böyük sənətkar isə bu ümumxalq dili zəminində yurd sala bilmədi. Bütün varlığı ilə xalqa bağlı olan ;

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində

-deyə, qəlbi xalq və vətən eşqi ilə alovlanan şair öz düşüncələrini xalqına onun sadə ana dilində deyə bilmədi. Ona görə də bir şair kimi kitabların səhifələrində yaşadı, geniş kütlənin qəlbinə yol tapa bilmədi.

Bu iki sənətkar müxtəlif dövrlərdə, müxtəlif ictimai şəraitdə yaşayıb -yaratmış olsa da, onların ədəbi mühiti, dünyabaxışı, həyat tərzi, və yaradıcılıq yolları bir-birindən ciddi şəkildə fərqlənsə də, hər ikisini xəlqilik taleyi, birinci növbədə, ümumxalq Azərbaycan dilinə münasibətləri ilə aydınlaşdırılır.

Əyyub Sabiroğlunun dili təbii və səmimidir. Bu cəhət onun yaradıcılığını bütövlükdə müşayiət edir .

Meşədə bir güllə səsi eşitdim,-
Bir cüyür balası anasız qaldı .
Meşədə bir güllə səsi eşitdim,-
Bir kəklik yuvası kimsəsiz qaldı.

Bir güllə açıldı: bir ana dövşan
Bir də yuvasına qayıtmayacaq.
Turac balaları öldü acından...
Bir durna qatarı başsız qalacaq.

Ə.Sabiroğlunun yüksək ideya xüsusiyyətlərinə, kolorit gözəlliyinə malik olan şeirlərinin poetik gücü, həmçinin ictimai-milli siqləti yetərincədir.

Açılan gülləylə bir cüyür balasının anasız, bir kəklik yuvasının kimsəsiz, bir durna qatarının başsız qalacağından...narahat olan şair başqa bir şeirində "güllə səsi"nin " dilsiz bir körpənin acı naləsi "nə səbəb olacağını deyir:

Hardasa atılan güllənin səsi
Mənim ürəyimi yaralar, keçər.
Dilsiz bir körpənin acı naləsi
Gecənin qoynunu paralar, keçər. (1980)

Görünür, bu ovqata şairin atası Sabir müəllimin (ixtisasca pedaqoqdur) II Dünya mühüribəsi iştirakçısı olması, o illərin ağrı –acılarını, dəhşətlərini yaşaması faktı da sirayət etmişdir.

Uğurlu ideya - bədii həllini tapmış şeirlərdə poetik ümumiləşdirmənin məna tutumu dolğundur. Milli ruhun kifayət qədər möhtəşəm olduğu poetik örnəklərdə bənzərsiz mətndaxili intonasiya lirik bir vüsətlə cilalanır. " Yaşamağa dəyərmi heç" şeirində olduğu tək:

Çıxan əziz canımdısa,
Axan qızıl qanımdısa,

Düşmən dostdan "yaxındısa",
Yaşamağa dəyərmi heç ?

Gəncliyin bağlanıb baxtı,
Çəkdiyi nalədi, ahdı.
Gələcək qara sabahdı...
Yaşamağa dəyərmi heç ?

Kimliyimiz çixlb yaddan,
Od oğlu diksinir oddan.
Namərdlərdir at oynadan,
Yaşamağa dəyərmi heç ?

"Od oğlu diksinir oddan"-deyən şair Odlar yurdu Azərbaycanın əsrlərin, qərinələrin o üzündən üzü bəri gələn ruhunun səsinə, "mənlik" şərəf və qürurunun ucalığına, ülviliyinə tapınır. Başqa bir şeirində isə Vətəninin poetik tərənnümü axar-baxarlı Azərbaycana məhəbbətin bədii ehtivasıdır.

Dilimin müqəddəs sözüdürVətən!
Eşqimin, sevgimin gözüdür Vətən !
Mənim həyatımın özüdürVətən !
Mən onun ən kiçik bir zərrəsiyəm .

Öz məzmunu, nəzərə çarpacaq poetik orijinallığı, həyatiliyi ilə seçilən bu şeirlərin aurasında istər-istəməz fikirləşirsən: Əyyub Sabiroğlunun yazdıqlarının demək olar ki, çoxu yaşantılarınnın bədii sözdə təcəllisidir. Fərqli poetik əhvali - ruhiyyənin hakim olduğu şeir nümunələrinə nəzər salaq:

Mən idim dünyanın ən xöşbəxti mən-
Bilmədim nə zaman açıldı səhər.
Röyada bir vüsal yaşadım dünən,

Elə bil vüsal ki, bir ömrə dəyər.
(“Röya”)

İçdim ayrılığın qəm şərbətini,
Alışdım hicranın oduna şam tək.
Yandırır bu atəş,bu həsrət məni,
Qismətin hökmüdür, dözəsən gərək.
(“Ayrılıq”)

Ə. Sabiroğlunun, bədii fikrin alt qatındakı mənadan hasil olan qayədə üzə çıxan həyat və cəmiyyət hadisələrinə şair münasibəti bədii-fəlsəfi leytmotiv kimi çıxış edir. Bu cəhət onun fəlsəfi yüklü şeirləri üşün daha xarekterikdir.

Tüstülənib yanan ağac,
Qalanmğın yaman, ağac !..
Sən yabanı, biz yabanı,
Bürüyübdür şər dünyanı.

Əyyub Sabiroğlunun bir beytlik şeirləri ictimai-fəlsəfi qayəsi ilə yanaşı böyük bədii-estetik dəyəri və yüksək poetik keyfiyyətləri ilə də diqqət çəkir.

Hər il yaşdan-yaşa düşdüm,
Mən həyatı başa düşdüm.

Mən dərdimi sənə dedim,
Nə vaxtacan sinə didim?

Aşiqi ayırsan nazlı dilbərdən,

Onunçün nə qalar? -Ürəksiz bədən.

Xəbislik bürüsə səni, ey ürək,
Döyünmə sinəmdə, ömrümə sədd çək!

Yanmaqçün yaranmış ürək əzəldən,
Onun istisiylə qızınır bədən.

Əyyub Sabiroğlunun poeziyasına bələd olduqca, nəhayətsiz xəyallar aləminin toranında dan yeri ağarır, duyğuların şəfəqləndiyi sözün üfüqləri fikrin ənginliyində nura boyanır və düşüncələr işığa qərq olur.

## SÖZÜN İŞIĞINDA BİR ÖMÜR YAŞANIR

*Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz ?..*
*Göstərir hərdəm niqabi- qeybdən rüxsar söz.*
***Məhəmməd Füzuli***

Böyük mütəfəkkir Ərəstunun (Aristotel) "Poetika" əsərində belə bir fikri var: "Həyacanlanmayan həyacanlandıra bilməz". Zaman-zaman öz sanbal və dəyəri ilə qədimliyi qədərincə müasir səslənən bu tendensiyanı, iqtisadçı –alim kimi tanıdiğımız **İsa Hüseyn oğlu Alıyevin** bədii yaradıcılığı–"Mən də beləyəm" kitabına daxil edilmiş şeirlərin mabədi, araya -ərsəyə gəldiyi məqamlara da şamil etmək yerinə düşər. Çünki İsa Hüseynoğlunun şeirlərini oxuduqca, onun misra –misra durulduğu, durula-durula sözün işığında bir ömür yaşadığı bəlli olur. Özünü alim kimi təsdiqləyən İsa müəllim həm də dünyanın gözəlliklərini gözünə-könlünə köçürə -köçürə, cəmiyyətdəki eybəcərliklərin kökünü araya-araya, ağlı-qaralı dünyanın təzadlarını yaşaya-yaşaya öz sözünü nizamlı –şeirlə deməyi də bacarıb.

Hələ erkən yaşlarından şeirə, poeziyaya olan həvəs tələbəlik illərində də onu tərk etməyib. Özünün duyğularını vərəqlərə köçürüb, lakin uzun müddət, necə deyərlər, "sandıq ədəbiyyatı"na çevirib. Fikirləşib ki, onun məşğul olduğu sahə tamam başqa bir yoldur. Lakin poeziyaya

könül verən, o ab-havada nəfəs dərən kəs bu əsrarəngiz dünyanın sehrindən təbii ki, ayrıla bilməzdi. Necə ki ayrıla bilməyib də.

"Mən də beləyəm" kitabında toplanmış şeirlər müxtəlif illərdə qələmə alındığı kimi, təbii kı, ovqat baxımından da çeşidlidir. Bu palitraya şeirlərin şəkil əlvanlığı da daxildir. Zamanın havasına köklənən bədii söz müəllifin təmas, müşahidə və dərkindən keçən məqamlrın təzahürü, bədii təxəyyülün rənginə boyanan gerçəkliyin inikasıdır. "Mən də beləyəm" şeirindəki "Mən"in inikası bunun bariz nümunəsidir.

Mən də beləyəm,
Bir az sizin kimi,
Bir az özüm kimi ;
Əslim -kökü̈m kimi,
Nəslim, zatım kimi.
Deyilməmiş söz kimi...

Əslində "Mən" fərd yox, fərddən başlayıb ictimailəşən, ictimainin "hamılıq" prinsipinə söykənən qayədir. Yəni kökümüzə, soyumuza bağlılıq millətin özünüdərkidir. Bu məfkurə isə çağdaş dönəmdə zəruri haldır. Çünki "deyilməmiş sözümüz" var. Yəni işğal altında olan yurd yerlərimizin azad edilməsi hər kəsin vətəndaşlıq borcudur. Şeirdən hasil olan ideya da məhz bu qənaətdir.

Qəlbində yurd ağrısı köklənmiş İsa Hüseynoğlu doğulduğu Dərələyəz mahalı, neçə -neçə yurd yerlərinin xiffətini, həsrətini bayatı sığalına çəkir:

Əzizim Qara Şuma,
Dirəndim qara şuma.
Vətən əldən gedibdi,
Həsrətəm Qara Şuma.

İsa Hüseynoğlu bu ayrılığın hicrindən yanıb-yaxılsa da, nikbindir. Nikbindir ona görə ki, bu müqəddəs dərdlə barışmır, boyun əymir, və "çıxış" tapır.

Vətən dərdi dərdlərimin dərdidir,
Sağalmaz qürbətdə onun yarası.

Beyt, yağı tapdağında qalmış ata-baba torpaqlarımızın azadlığına səfərbər olmaq çağırışını özündə ehtiva edir.

Bu fikir məntiqi olaraq başqa bir şeirdə öz əksini belə tapır:

Vətən həsrətli,
Ürəyi qübarlı,
Bütövkən yarı,
Yarıykən bütöv...

Bütöv Azərbaycan məfkurəsi düşündürür şairi. Düşünə -düşünə oxucunu da düşünməyə sövq edir. Bu müqəddəs amal isə İsa Hüseynoğlunun yaradıcılığından önəmli xətt kimi keçir.

"Səssizlik" şeirində ilk baxışda mücərrədlik görüntüsü olsa da, əslində isə ünvanlıdır, fikir sözün qatlarına keçir və mahiyyət yozuma söykənir. Bu cəhət şeirin bədii təsirgücünü qüvvətləndirməyə xidmət edir.

Bir səssizlik içimdədir,
Heç dinməyir ömür boyu.
Hay vuraram dillənsin o,
Susacaqmı ömür boyu ?..

Burada haqqı tapdanan bir millətin zaman-zaman unutqanlığı, bu unutqanlığın acı nəticələri bədii boyalarla rənglənir. Bədii sual şəklində işlənən sonuncu misra əslində cavabdır. Bu cür maraqlı deyimlər, ritorik suallar İsa Hüseynoğlunun yaradıcılığına xas olan səciyyəvi xüsusiyyətlərdəndir. Yeri gəlmişkən, onu da qeyd edək ki,

belə səciyyəvi cəhətlər nəzm quruluşunda avazıyır. Vəzn ülgüsündə sapmalar isə canlı dilin çalarlarına boyanmış ifadələr fonunda sezilməz olur. Sanki sözün nizamı duyğu dənizinin ləpələri görüntüsündə üzə çıxır. Bəzi məqamlarda bədii fikir qığılcım işartısında közərə-közərə qalırsa, şeirlərin əksəriyyətində poetik qığılcımlar tonqallaşır .Ən ümdəsi isə odur ki, şeirlərin qayəsi ictimai fikir kimi səslənə bilir.

İsa Hüseynoğlu gözəlliyi məftunluq dərəcəsində tərənnüm edir:

Gülüşündən ürək açdı,
Baxışından şəfəq saçdı.

İctimai eybəcərliyi görəndə isə ovqat dəyişir. Belə neqativ hallara qarşı öz etiraz səsini ucaldır. “Demokratiya ” adlı şeirindəki kimi:

Hörmətsizin adını hörmət qoydular,
Gözü olmayanın gözün oydular,
Dərisizlərin dərisini soydular,
Qoydular, nə qoydular...

Əlinin papağını
Artıq Vəlinin yox,
Bir dəlinin başına qoydular.
Bu oyunun adını
Demokratiya qoydular.

Məlumdur ki, məzmun özünə uyğun forma doğurur, forma isə məzmunun təzahür şəkli kimi ortaya çıxır. Bu müstəvidə İ. Hüseynoğlunun yaracılığındakı təfsilata var-arkən bu vəhdətin “Deyimlər”də uğurlu həllini görürük. “Gülmə”, ”Tələsmə”, “Tələs” və “Əl çək” sərlövhəli deyimlər öz məna yükü ilə diqqət çəkir.

“Oxu “ kəlam-nəsihətinə nəzər yetirək:

Öz qəlbini,
Müqəddəs kitabları
Qəbrə qədər...
Duyğuları,
Baxışalrı,
Qəlbləri...
İnsanlıq elmini
Oxu!

“Mən də beləyəm” kitabının leytmotivini müəyyənləşdirən, duyum və müşahidələrdən hasil olan poetik ovqatın aşıladığı fəzil aura nikbinliyə söykənir ki, bu da müəllifin həyata baxışında ruh yüksəkliyinin olması ilə şərtlənir.

Ən “dar çərçviədə” belə ümid işığının sozalmaması fikrin sadəcə olaraq pafos tərzi deyil, ağılla hissin vəhdət süzgəcindən keçən təmas və yaşantıları “hər gecənin bir açılan səhəri var” deyim yozumunda dəyərləndirmək təzhürüdür. Digər önəmli cəhətlərdən biri də şeirlərin təmayülünü təyin edən əhvali-ruhiyyə surətidir. Ümumilikdə “Mən də beləyəm” oxucu ilə dilləşmək qüdrətindədir.Əqidə və qələm dostumuza bu yolda yeni-yeni uğurlar diləyirik.

*2005*

## АЛИМ ДЯ, ШАИР ДЯ ЗИЙА ЙИЙЯСИ

*Mən bir ağacam, yarpağı sözlər, kökü fikrim,*
*Sözlərdə deyil, sözdəki hikmətdədir Allah.*
***Bəxtiyar Vahabzadə***

Salam verdim dan yerinə,
Duyğulandım səhər-səhər.

Bu qoşa misranı **İsa Hüseynoğlu** şeirinin bədii-fəlsəfi formulası tək qəbul etmək olar. Dan yerinə salam verən şairin duyğulanmağı durulmaqdan saflaşmaqdan keçir, Yaradana şükranlıq ehtiva edir. Heyrət doğuran bu poetik məqamı incələməyə çalışaq:

Ачылан щяр сящяр бир башланьыъ, щяйат мцждясидир ки, "илкинлик" Йараданын ирадясиля йаранышдан цзц бяри тякрарланыр. Бу илащи мягамын öz füsunkar эюрцнтцсц, bənzərsiz чалары да бир щягигятдир. Sящяр овгатына гатылан щяр кяс бу ясрарянэиз мянзяряни сейр етмямиш дейил...Üfüq сящярин (günəşin) ал шяфягляриндя йуйунур, сыьалланыр, нурланыр. Бу нур зярря-зярря səpilir göy üzündən yer özünə.

Беляъя, yer üzü гярг олур илащи эюзялликляря. Эюйля йерин вящдят эюзяллийиня бялянир seyr edən hər kəs. Эюз истяйир тамаша етсин, бу эюзялликляри

кюнцля кючцря-кючцря...Necə ki İsa Hüseynoğlu bu gözəlliyi öz könlünə köçürüb, duyğulanıb və bu duyğular misra-misra yarpaqlanıb. Bu poetik ovqatın məntiqi davamı olaraq şair yazır:

Allahıma güvənib,
Sınaqlardan çıxmalı...

İsa Hüseynoğlunun "Mən də beləyəm" adlı ilk şeirlər kitabına bələdçi olaraq yazdığım "Sözün işığında bir ömür yaşanır" adlı sözönündə qeyd olunur ki, böyük mütəfəkkir Aristotelin "Poetika " əsərində belə bir fikri var: "Həyacanlanmayan həyacanlandıra bilməz". Zaman-zaman öz sanbal və dəyəri ilə qədimliyi qədərincə müasir səslənən bu tendensiyanı, iqtisadçı alim kimi tanıdiğımız İsa Hüseyn oğlu Alıyevin bədii yaradıcılığı –"Mən də beləyəm" kitabına daxil edilmiş şeirlərin mabədi, araya -ərsəyə gəldiyi məqamlara da şamil etmək yerinə düşər. Çünki İsa Hüseynoğlunun şeirlərini oxuduqca, onun misra –misra durulduğu, durula –durula sözün işığında bir ömür yaşadığı bəlli olur. Özünü alim kimi təsdiqləyən İsa müəllim həm də dünyanın gözəlliklərini gözünə -könlünə köçürə -köçürə, cəmiyyətdəki eybəcərliklərin kökünü araya-araya, ağlı -qaralı dünyanın təzadlarını yaşaya-yaşaya öz sözünü nizamlı –şeirlə deməyi də bacarıb...

İsa Hüseynoğlu "Mən də aşiqəm" lə bir daha "həya-canlanaraq həyacanlandırıb" bizləri , öz "aşiqliyi", "bə-yanları" ilə:

Mən də aşiqəm!
Aşiqəm Yardana,
Atama, Anama, Vətənimə,
Sevdiyim insana .

Mən də aşiqəm:
Haqq yolundan dönməyənlərə,
Ədaləti öyənlərə,
Bir də düz sözə.
Gözəllik sevən gözə,
əsil gözələ,ər igidə,
xoş sifətə, şirin sözə, gülər üzə,
sədaqətə, səxavətə,
şəhadətə, ülviyyətə...
İnsaniyyətə aşiqəm!

Eşq sözünün faili olan aşiqlik şairin məslək meyarını təyin edir.

İsa Hüseynoğlunun könül dünyasından süzülüb gələn şeirlər, belə demək mümkünsə, ikinci bir nəfəsdir. İsa müəllimə ithaf etdiyim "Алим дя, шаир дя зийа йийяси" adlı şeirimdə yazdığım kimi:

Кюксцндя дюйцнцр шаир цряйи,
Фикир, дцшцнъяндя алим идракы;
Бири дуйьуларын сяси, юзяйи,
Бирися дцнйанын елмля дярки.

Дейирляр: шаирляр виъданын сяси,
Алимляр алямя явязсиз немят.
Алим дя, шаир дя зийа йийяси,
Онларын амалы бяшяря хидмят.

İsa Hüseynoğlunun şeirlərində poetik baxışın əhatə dairəsi geniş və rəngarəngdir. Bu poeziya milli və bəşəri dəyərləri tarixi və çağdaş kontekstində assosiasiya aparmaqla təqdim edir. Şübhəsiz ki, bu cəhət şairdən məharət və təcrübə tələb edir.

Bu məqamla bağlı, türk dünyasının məşhur söz sənətkarlarından olan Çingiz Aytmatovun bir fikrini yada salmaq yerinə düşər. Görkəmli ədib yazır ki, şeir sənəti barədə mühakimə yürudərkən, biz tez –tez “ poeziyanın sehri”, “poeziyanın sirri”, “poeziyanın musiqisi” ifadələrini işlədir, bununla adətən anlaşılması asan olmayan, predmeti dəqiq müəyyənləşməyən qeyri- adi məfhumları, duyğuları açmağa çalışırıq.

Şeirlərin fövqəltəbii stixiyası ilham pərisinin qüdrətindədir və bu da gözəldir ki, hər kəs, hər bir qabiliyyətli adam onları oxuyanda həyacanlanır... Poeziyanın “sehrli atributları” o zaman intəhasız kamilliyə qadir olu ki, şeir yardanın fitri istedadı, mənəvi təcrübəsi başlıca rol oynasın.

İqtibas etdiyim fikir fonunda İsa Hüseynoğlunun poeziyası sənətkar məharətini özündə ehtiva edir. Qnun qələmə aldığı mövzunun yazı tərzi, deyimi, üslübu özünəməxsusluğu ilə seçilir.

Kaş kimlikdə yazılaydı:
Bu- Allah adamıdır!
(Bəndə yox ha, adam.)
Bu isə -adam olmağa namizəd!
Bu- adam olan deyil...
Bu isə -insan yox, adına ləkədir.
Bu - xəbəri yox, lap elə təkədir.
Bu isə- haram yeyib bayılan .
Bu - indicə özünə cəlib ayılan.
Bu isə- cəzasını çəkib,
Insanlıq bostanına nə əkib?..
Bu -öz aşına su qatan,
Hamı oyaqkən o, yatan.

Bu isə- namusunu atan,
Vicdanını satan...
Bu-əməkçi, halal çörək yeyən,
Ehtiyaca dözən, həqiqəti sevən,
Allahını sevən bir kimsə.

İsa Hüseynoğlunun yaradıcılığı bədii və poetik vüsəti ilə qüdrətli olduğu kimi, elmi-fəlsəfi əsası ilə də sanballıdır. Poetik və elmi düşüncələrin vəhdətində yüksələn bu yaradıcılıqda söz rəngarəng libasdadır, məna yükü çeşidlidir.

Kim nə bilir içimdə nə?
Çölümdə nə?
Şələlənib yol gedirəm,
Yüküm də nə?..

Sənətkarlıq axtarışları ilə cilalanmış bu şeirlər zəngin poetik təfəkkürün, intellektual düşüncənin bədii sənət müstəvisində uğurlu təzahürüdür. Həm də sonsuz dünyamızın təzadları fonunda şair ovqatı .

Bu sonsuz dünyamızın
Sonuncusu deyiləm.
Sınaqlarda sınmadım,
Nə gərək ki, əyiləm?

Fikrimcə, qəlbə hərarət, düşüncəyə parlaqlıq gətirmək iqtidarında olan İsa Hüseynoğlu şeiriyyəti poetik fikrimizin, bədii fəlsəfi düşüncəmizin işığını daha da gurlaşdıracaq və poeziyasevərlərə xoş duyğular bəxş edəcək. Elə bu ümidvarlıqla bir daha şair və alim dostumuza üz tuturam:

Дцнйайа эяляндян сяфярдяйик биз,
Йолунун язяли Дяряляйяздир.

Орда бабалардан галыб улу из,
Язял мцгяддясдир, язял язиздир.

О торпаьа баьлы нечя зякалар,
Гялям сащибляри, сюз сащибляри.
Торпаг да ювладсыз, тянща, тяк олар,
Дюняъяк о йурда юз сащибляри.

*yanvar, 2013*



## TÜKƏNMƏZ POETİK İŞIQ

*Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz .*
***Məhəmməd Füzuli***

Fitri istedad üzərində yaranan ədəbi yaradıcılığı mövzu və mündəricə etibarilə zəngin, poeziyası daxili bütövlüyündən keçib millilikdən bəşəri səviyyəyə qalxan Paşa Qəlbinur şeiri poetik üslubuna, bədii-fəlsəfi məzmununa görə iki istiqamətdə təzahür edir: lirik-romantik və fəlsəfi-intellektual poeziya. Bu qoşa qanad ahəng və təzadların fonunda şair təfəkkürünün işığını özündə ehtiva edir. Bu işıq Paşa Qəlbinur poeziyasının başlıca leytmotividir. Görünür bu cəhət onun xislətindən və həyat kredosundan doğan işıqdan qaynaqlanır. Axı o, həm də gözlərə nur bəxş edir... Bir şeirimdə yazdığım kimi:

Цзц нурлу щяким гардаш,
Нурундан пай уманлар вар.
Гаранлыглар сюкцля каш,
Нечя эюздя “думанлар” вар.

Гаранлыьа ишыг тутур,
Ялляринин нур шяфгяти.
Айдынлыьа нахыш вурур,
Цряйинин щяраряти.

Эюзя кючян эюзялликляр,
Эюздя олан нура баьлы.
Нурла долсун гой бябякляр,
Каш олмасын эюзляр “даьлы”.

Дцнйа санки рянэ сярэиси,
Гаранлыглар биръя рянэдя...
Аллащдан пай-нур севэиси,
Ишыгсан дцрлц ащянэдя.

**Paşa Qəlbinur** (Musayev Paşa İsmayıl oğlu) 1952-ci il martın 30-da Şəmkir rayonunun Çinarlı qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. M. Müşfiq adına kənd orta məktəbini qızıl medalla bitirmişdir. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profılaktika fakültəsində təhsilini davam etdirmişdir .

On mindən çox cərrahiyyə əməliyyatı aparmış tibb elmləri doktoru, professor Paşa Qəlbinur Amerika Oftalmologiya Akademiyasının həqiqi üzvü, Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Blrliyinin sədri, Dünya Azərbaycanlıları Konqresinin həmsədri, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ədəbi fəaliyyətə 1978-ci ildə “Ulduz“ jurnalında dərc olunmuş “Xal“, “Ay gecəyə hicran sıxır“, “Mən ilhamı gözlərimlə görmüşəm“ şeirləri ilə başlamışdır. “Gözlər“ adlı ilk şerini 13 yaşında ikən yazmışdır. Dövri mətbuatda vaxtaşırı çıxış edir.

“Ay bir əlçim buluddur”, “Payız məktubu”, “Rəngli göz yaşları”, “İtmiş həsrət kimi”, “Ağlıma gələnlər başıma gəldi”, “Qara su”(roman), “Göz dağı” (roman) və başqa kitabları işıq üzü görüb.

Paşa Qəlbinur şeirlərinin birində yazır:

Bu axşam
Ürəyimdə bir ayrılıq
Bir hənirdən sönən şam,
Anam məni şair doğub,
Sonra həkim olmuşam,elə baxma, sən Allah!..
Bu axşam
Dönüb Araz olmuşam.

"Anam məni şair doğub"-deyən şair başqa bir şeirində isə özünün həkim "obrzını" dəqiq poetik detallarla təqdim edir:

Əllərimin hakimiyyəti bərqərar olur,
Əməliyyat vaxtı.
Qaranlıqda işığın radar tutmayan
Sərhədinə uçur əllərim.
Ürəyim kimidir,
Mən yatanda da,
Oyaq olur əllərim…

Bax, böyük poetik istedada, parlaq, dərin zəkaya və böyük ürəyə malik olan Paşa Qəlbinur işığında məhz şair-həkim, həkim –şair bütövlüyü müstəvisində saçılmaqdadır.

Paşa Qəlbinur poeziyasının meyarları haqqında danışarkən Türk dünyasının ünlü, qardaş qırğız ədəbiyyatının unudulmaz söz ustadı Çingiz Aytmatovun maraqlı bir fikrini xatırlatmaq yerinə düşər: "Poeziyanın meyarı hər şeydən əvvəl sənətkarın yetkinlik meyarıdır, onun kolllektiv təcrübəmizlə həmahəng olan fəlsəfi və mənəvi müdrikliyinin meyarıdır və bundan sonra

şəxsiyyətin harmoniyası, epitetlərin gözəllliyi və daha sonra dövrün əsas yellərinə istedad yelkəni ilə sinə gərmək bacarığı gəlir. “ Söz kəhşkəşanında parlaq ulduz kim şəfəq saçan Paşa Qəlbinur poeziyası üçün, iqtibas etdiyim bu fikir səciyyəvi və xarakterikdir. Bu cəhət onun yaradıcılığını bütövlüklə müşayiət edi.

Şairin poetik siqləti sözlərin deyil, düşüncənin batindən boy verən bir misralı şeirlərəi heyrətamiz məna dərinliyi, dolğunluğu ilə orijinaldır və poetik mətnin yüksək bədii həlli ilə səciyyələnir. Bir neçə şeirə diqqət edək:

Qışda sərçələrdən çiçəklər çinar.

Gecələr görünmür-duyulur dəniz...

Hələ torpaq quluncunu qırmayıb...

Səni tanımırdım, -tanıdım, Vətən!..

Ağzımda uluyur dişim ...

Bülbül qonub ürəyimə -dimdiyi qan!..

Gül, sənə bənzəyən şeirim olaydı.

Bu şeirlərin işığına bələndikcə, Litva yazarı Yan Sudrabkalnın ölməz sənətkar Səməd Vurğun haqqında olan bir fikri yada düşür: "…Səməd Vurğunun şerlərini oxuyarkən biz onun özünü görür, səsini eşidir, qəlbinin hərarətini duyuruq. Elə bil şəffaf güzgüdə bütün geniş, hüdudsuz səmanı əks etdirən mavi gölə baxırsan..."

Zənnimcə, bu fikri Paşa Qəlbinur poeziyasına da şamil etmək olar.

Qar üstə gördüyüm mavi göyərçin –
Sənin gözlərin...

Mənim günahlarım özümdən gözəl,
Özümdən vəfalı çıxdılar, Allah!

Kəfənim olmasa
Abrıma-abrıma bükün siz məni...

Yaradıcılığı poetik idrakın orijinallığına dəlalət edən, öz duyğularını bədii sözə çevirən Paşa Qəlbinurun poeziya sı bədrlənmiş ay işığı, sayrışan ulduzların parıltısı, günəşin doğması bənzərliyində poetik işığa dönür, saçır söz -söz, misra-misra, nəğmə-nəğmə...

*may, 2012*



# "ŞAİR İLHAMINDA SÖZ TƏZƏLƏNİR"

*Sözə xor baxmaq olmaz, hər bir*
*söz ərşdəndir, gəlib hədiyyə bizə.*
***Məhəmməd Füzuli***

Sözün ecazkar qüvvəsilə şeirləşən duyğulardan hasil olan hər kitab bir ömrün salnaməsidir. Axı bir qəlbin odunda közərən misralar neçə-neçə oxucunu da isidirsə, bu ovqat şair yaşantısını yaşamaq və müvazi olaraq bu məqam bir ömrün salnaməsi deyilmi?

Nə gözəl ki, bu fikir Firudin Qəmbərin "Könül sevgisiz keçinməz" kitabına da şamildir.

Gözəl şairliyi gözəl insanlığından doğan Firudin Qəmbər o qələm əhlindəndir ki, dili ilə qəlbi arasında məsafə yoxdur.

"Ötən gecə doğma kəndlərinə gedibmiş...Aşağı Şorca kəndinin bulaqlarından nə illah edibsə, içə bilməyib. Suya təşnə, dodaqları çat-çat ikən yuxudan ayılıb. Yuxusunu danışa-danışa yanıb-yaxılırdı şair dostum Firudin Qəmbər:

-İlahi, yuxuda da doğma kəndimizin suyundan heç olmasa bircə qurtum da içə bilmədim...

Onun göz yaşları yanaqlarını islada-islada süzülüb getdikcə, anasından ayrı düşmüş məsum uşağa bənzəyirdi. Dostumun bu haləti məni də için-için göynətdi:

Yuxuna girəndə Aşağı Şorca,
Gəzmək istəyirsən kəndi doyunca...
Bağır çatladanda lal həyət-baca,
Köksün körüklənir, Firudin Qəmbər!

Yox, qardaşım, yurddaşsız qəribsəyən o ağır elləri yuxularda deyil, nəfəs-nəfəsə, göz-gözə, üz-üzə gəzməliyik. Axı özün də köz-köz olan misralarla "Bağışla, Vətən"– demisən...Vətənsə bizi nə vaxt bağışlaya bilər? Vüsalına qovuşmaqla.

Həsrəti qəlbində göyərib bitən,
Yağı torpağında novrağı itən.
Göyçəyə üz tutdun: "Bağışla, Vətən",
Köksün körüklənir, Firudin Qəmbər!"

Bu yanğılı sətirlər müəllifi olduğum "Nisgil odu" (2005) adlı kitabdakı "Yurddaşsız yurd yeri - Aşağı Şorca" sərlövhəli yazıdan iqtibasdır.

"Bağışla Vətən" (1999) şerlər kitabının müəllifi Firudin Qəmbərə ünvanlanan şerimdə yazıram:

Bizi qarı düşmən vurdu dişinə,
Düşdük zəmanənin hiylə-işinə.
Mat qaldın dünyanın kəc gərdişinə,
Köksün körüklənir, Firudin Qəmbər!

Nisgilli şairin közə dönən xəyallarına qoşularaq gerçəkliyi haraylayıram:

Duyğulu-yanğılı söz çəmənzarı,
Şairin nisgilə sığal-tumarı.
Qiblən yönələndən yurduna sarı,
Köksün körüklənir, Firudin Qəmbər!

Minillik ocaqlar heyhat sönübdür,
Şirin xatirələr közə dönübdür,

Bahar təravəti buza dönübdür,
Köksün körüklənir, Firudin Qəmbər!

Qövr edən yaralar məlhəmə möhtac,
Neçə yurd yerimiz mərhəmə möhtac,
Vətənə dönməkdir - qəribə əlac...
Köksün körüklənir, Firudin Qəmbər!

Köksü körüklənən dərdmənd şair Firudin Qəmbər oxucularla ikinci görüşə “Nurlu kəlamlar “şüara” fəhmilə” adlı kitabı ilə gəlmiş və növbəti görüşə isə özünün məhəbbət dolu dünyasından pardaqlanan poetik müjdələrilə gəlibdir.

“Könül sevgisiz keçinməz” kitabında yer tapan, “təsnifat” olunan şerlər şairin qəlb aləminin büllurlaşan sevgi dolu söz çələngidir. Kitabın adı da təsadüfi seçilməyib və poetikdir.

Kitabın adı sanki sökülən dan yerinin al şəfəqləridir, şerlər isə bu şəfəqin nuruna boyanan füsunkar, təkrarsız bir mənzərə.

Öz qaynağını xalq yaradıcılığı çeşməsindən götürmüş, zaman və məkan etibarı ilə müxtəlif olan bu poetik örnəklər ilkin olaraq şairin doğulub boya-başa çatdığı ulu Göyçənin əsrarəngizliyindən boy göstərir. Həzin, kövrək qoşmaları, gəraylıları incə ruhun, səmimi hisslərin çalarlarını özündə ehtiva edir. Bu cəhət Firudin Qəmbər yaradıcılığının əsas leytmotividir.

Baxmaq - göz qaydası, savabdı əzəl,
Şair Firudinə şeirdi gözəl.
Gözəlin telində gəzdirəndə əl
Şair ilhamında söz təzələnir.

Şair ürəyindən su içib süzülən bu misralar obrazlı təfəkkürün bədii lövhə əyaniliyidir. Şairin fərdi, şəxsi duyğularının ülviləşən məqamlarındandır. İstər-istəməz şeirin ecaskar qanadları üzərində uçub düşünürsən: doğrudan da ilham pərisinin sığalında söz əbədi olduğu qədər də, daim təzə-tərdir.

Kitabdakı şerlər F. Qəmbər yaradıcılığının bir rəngidir, sevgi lirikasıdır. Şeirlərin əksəriyyətində fikir yükü çoxtutumludur. Ən əsası odur ki, şeirlərdə pafosa, yersiz, təmtəraqlı ibarələrə rast gəlmirik.

F.Qəmbərin fitrətindənki səmimiyyət hissi onun şeirlərinə də hopmuşdur. Şair insan qəlbinin dərinliklərinə baş vurub onun qaranlıq guşələrinə işıq salmağı bacarıbdır. Bu isə hər kəsə nəsib olmayan bir məqamdır. O, öz düşüncələri, psixologiyası, bədii təfəkkür tərzi etibarı ilə Azərbaycan həyatına, Azərbaycan ənənələrinə bağlıdır. Şeirlərinin birində deyir:

Həsrəti neçə il ələdik,
Ələdikcə sevdik, sevildik.

F. Qəmbər yaradıcılığında söz və onun məzmun dairəsi, leksik vahid olmaq etibarı ilə onun məna potensialı çeşidli çalarlarla müşayiət olunur.

Məlumdur ki, sözün siqləti onun mənası ilə ölçülür. Bu baxımdan şairin

Yazılmaz sevgi günaha,
Günahsız ola bilmərəm -

fikri maraqlı deyimdir.

Lirik şeirlərdə təkcə insan gözəlliyinin təsviri deyil, şairin bu gözəlliyə münasibəti, keçirdiyi hisslər, həyəcanlar, duyduğu sevinc və kədər də öz əksini tapmışdır.

"Şahın şahı -məhəbbətdir", - deyən şair həyatsevər və nikbindir. Mənəvi saflığın tərənnümçüsüdür. Sevgisiz keçinməyən könül sahibi sevgisində həssasdir, qədirbiləndir:

Bulud tək dolub - boşalsan,
Göyərib bitə bilmirəm.

Nə gözəl istək... Düşünürəm ki, F. Qəmbərin belə gözəl istəkləri, poetik müjdələrinə ayna tutan "Könül sevgisiz keçinməz" kitabı, şair ilhamı ilə təzələnən söz çələngi ilə baş-başa qalmağa dəyər.

*20.04.2007*



# ЩAQQA ÇAĞIRIŞ

*Şeir-halal olan sehrdir .*
***Mövlana Cəlaləddin Rumi***

Поетик дцнйасы дцрлу, сюз бохчасы мцждяли олан кюнцл адамы Фирудин Гямбяр Salehin (şair мярщум гардашы Салещ мцяллимин адыны, онун язиз хатирясиня ещтирам олараг тяхяллцс гябул етмишдир) юзцня вя сюзцня хейли вахтдыр ки, бялядям. "Бялядям" ифадясини она эюря ишлядирям ки, шаир достум Фирудин Гямбярин юзц сюзцня, сюзц юзцня бялядчилик едян гялям ящлидир. Ахы бу мягам индики дюврдя–мяняви дяйярлярин ашындыьы бир заманда щеч дя ади щал дейил…

Ф. Гямбяр Салещин "Нурлу кяламлар "Шуяра" фящмиля" рцбаиляр топлусу да еля гейри-адиликля баьлыдыр. Бу барядя фикир йцрцтмяздян яввял, бялли олан бир щягигяти гейд едим ки, гялям ящли бу вя диэяр формада фикир дашыйыъысыдыр. Онларын тялгинляринин юзцлцндя ися мянявиййат мясяляляриня даир юрнякляр дурур.

Фикир адамы олан шаирляр щаггында динимизин китабы Гурани-Кяримдя – илащи кяламында буйурулур:

“Шаирляря сапмышлар, пяряштишкар адамлар табе оларлар. Мяэяр эюрмямисянми, бир сюз вадисиндян о биринə кечяркян онлар неъя щядлярини ашырлар. (йяни ня щяъв, ня дя мядщиййя гошмагда сярщяд эюзлямирляр). Елямядиклярини “елямишик” дейярляр. Анъаг башга шаирляр дя вар, бунлардан дейил онлар. О шаирляр ки, иман эятирибляр, салещ ишляр эюрцбляр. Аллащы тез-тез аныблар…(Гурани-Кярим, Шуяра суряси, айя 224-227)

Ф.Гямбяр “Шуяра” сурясинин тялгин етдийи, Аллащы тез-тез анан, иман эятирян шаирляр сырасындадыр. Бу хислят онун гялямиля бой эюстярян, интишар едян “Нурлу кяламлар “Шуяра” фящмиля” китабынын ещтива етдийи гайя иля бир даща юзцнц бариз шякилдя тясдигляйир.

Щикмят санбал-сигляти дярин вя щщдудсуз цфцг эенишлийиня малик олан нурлу кяламлар Ф.Гямбяр Салещин иман щяссаслыьы иля нязмя чякилиб. Шаирин китаба ад сечими дя мараг доьурур. Мцяллиф “Щцяра фящмиля” дейяндя мящз Гурани-Кяримин “Шуяра” сурясини тямял эютцрцр. Йяни гейд олундуьу кими, йалныз иман эятириб салещ ишляр эюрян шаирляр нурлу кяламларын нуруна бойана биляр.

Тябии ки, мцяллифин бу мювзуйа мцраъият етмяси онун шяхси щяйатында вя щяйат тярзиндя ислами дяйярляря сюйкянмяси, илащи эерчяклийин тянтянясиня ъан атмасы кими характерик ъящятляри иля шяртлянир.

Бир мягама диггят чякмяк истярдим. Ясрлярин, гяринялярин сцзэяъиндян сцзцлцб эялян мцраъият вя язизлямя ифадяси олан "эюзцмцн нуру"ну "нурлу-кялам"ла мцвази олараг инъяляйяк.

Нийя мящз "эюзцмцн нуру"?! Яввяла, бу сирли-сораглы дцнйа бина оландан ишыгла-гаранлыьын (зцлмятин), хейирля-шярин мцбаризяси эедир.

Ишыг-хейирин, щаггын рямзидир. Ишыг-щяйат рямзидир. Гаранлыг эеъяляри gündüz-айдын едян эцняш зийасы олдуьу кими, мясумларын да кяламлары гаранлыг üгякляря нур сачар. Бу бахымдан, мясумларын кяламлары затян бир нурдур ки, "нурлу кяламлар" адланыр.

Диэяр бир призмадан ися мясумлар дцнйайа, йараныша бясирят эюзц иля баха билмяк игтидарына маликдир. Одур ки, онларын кяламлары да нурлудур. Нур олан йердя айдынлыг олар.

Ф. Гямбяр Салещин дя поетик овгаты еля бу айдынлыгда ирфан "нотлары" иля кюкяниб. Щяр бянд юзлцйцндя аьыл чыраьынын, поетик дцшцнъянин парлаглыьы иля сайрышыр.

Китабдакы рцбаилярин мцштяряк гайяси, лейтмотиви щагга чаьырышдыр.

Щяр рцбаи айры-айрылыгда щикмятли кяламдан гайнагланыр. Бу щикмятли кяламлар ися Мящяммяд Пейьямбяр (с), Щязрят Яли (я), имам Щясян (я), имам Щцсейн (я), имам Зейнялабидин (я), имам Мящяммяд Багир (я), имам Ъяфяр Садиг (я), имам Мусейи Казим (я), имам Рза (я), имам Мящяммяд Тяги (я), имам Ялиййян–Наги (я), имам Щясян Ясэяринин (я), мцбаряк

бяйанларыдыр. Бу кяламлар бцтцн варлыьы иля Улу Йарадана говушан мясумларын Аллащын йаратдыьы алямин сирлярини гялби иля щисс, тяфяккцрц иля щязм едяряк сюзля ифадя етдикляри щягигятдир. Бу мягамда, мяняви тялими бцтцн заманлар цчцн оригиналлыьыны щифз едян мцтяфяккир шаир, кюнцлляр султаны Мювлана Ъялаляддин Руминин шеир щаггындакы бянзярсиз бир фикрини хатырлайырам: "Шеир- щалал олан бир сещрдир! "

Бяллидир ки, сещр динимизъя щарам сайылыр. Ня бянзярсиз, тякрарсыз бир мцгайисядян доьан мцдрик гянаят…

Ахы сюз юзц дя бир сещрдир. О да ола бядии сюз…

Фирудин Гямбяр Салещ шаир дуйуму, фящмиуля нурлу кяламлардан яхз етдиклярини поетик шякилдя охуъуйа чатдырыр.

Гыса бир ибаря иля мащиййяти ачыглайан, гялбля елми идракын вящдятиндян гайнагланан бу рубаиляр инсанлары хаотик вязиййятдян чякиндирир, истигамятвериъи тювсийяляр верир вя дцз йола дявят едир. Ъямиййяти щагг йола сясляйир.

Китаб бцтювлцкдя дидактик мащиййят дашыйыр.

Шеирлярин йаратдыьы аура юзцнцдяркя сювг едир. Ф.Гямбяр Салещин бядии сюзц иля баш-баша галмаг – о "сещрин" фейзини йашамаг, ян азы кюнцл адамы иля щямсющбят олмагдыр.

Кюнцл адамы иля щямсющбят олмаг ися кюнцл зийарятидир. Зийарятиниз мцбаряк!

*01.03 2009*



## "ALLAH, ALLAH… DEYIR ÜRƏK"

*Söz-candır, həyat əlamətidir.*
*Söz-ülvidir, çünki onun yeri uca göylərdir.*
***İmadəddin Nəsimi***

Dünyaya gəlişinin 60 illiyini qismətinə düşən təzadla - yarı nisgilli, (dünyaya göz açdığı Göyçə mahalı-Basarkeçər rayonunun Aşağı Şorca kəndi hələ də yağı tapdağındadır...) yarı fərəhlə ( yubiley ərəfəsində sayca dördüncü kitabı işıq üzü görüb) qeyd etdiyimiz qələm dostumuz Firudin Qəmbər Salehin

Firudinəm, qəlbi kövrək,
Ömür fani, sevgi görək.
Allah, Allah… deyir ürək,
Yaradanım, ovundur sən.-

Poetik ovqatına qatılaraq, "Allah, Allah…deyir ürək " şeirlər kitabının ("İrfan" nəşriyyatı, 2012) işığında bəzi məqamlardan söz açmaq istərdim.

" Kitabda şair Firudin Qəmbər Salehin Ulu Yaradanın dərgahına üz tutaraq irfani məqamdan qaynaqlanan, ilahi sevginin hakim olduğu duyğu və düşüncələrini özündə ehtiva edən poetik örnəkləri, eləcə də mayasına torpaq həsrəti, yurd nisgili hopmuş, əsas qayəsi işğal olunmuş torpaqlarımızın azadlığına çağırış olan şeirləri yer almışdır."

“Allah, Allah…deyirürək” adlı kitabın annotasiyasından olan bu iqtibas təkcə zahiri amillərdən ibarət deyil, bədii fakt kimi ortaya qoyulan bu şeirlər söz-söz közərən ürək pıçıltıları, insanlığın sevgi nəğmələridir; ürəkləri qarsan, könülləri dikəldən bədii fikrin poetik təqdimatı, nikbin ruhun poeziya təcəssümüdür.

“Allah, Allah…deyir ürək”də yer almış poetik örnəklər ruhaniyyət mahiyyətinə rəğmən Firudin Qəmbər Salehin türk-islam aydını məqamını özündə ehtiva edir.

Məni yaradanın mən ki quluyam,
Adəmlə başlanan oğuz -uluyam,
Torpaqdan yarandım, Vətən oğluyam,
Vətəndə ölməyə saxlayıb Allah.

Yaradana könül bağlayan, haqqa doğru yol gedən şairin, irfan nurunda işıqlanan fikir və məfkurə dünyasının bütün çalarları və rəngləri “Allahım, ağlımı Quranla, könlümü imanla inşa elə!”–üz tutmasından, duasından intişar edir. Necə deyərlər, bu ovqatın odu da var, suyu da var. Nə suyu dondurar, nə də odu yandırar... Şeir ocağının ğur işığında heyrətə gəlib düşünürsən: bu şeiriyyət ki məni arıtdı, məni durultdu, İlahi!...

Firudin Qəmbər Saleh kitabın başlanğıcında–öz şeirlərindən öncə, ustad sənətkarlığını Xalq şairi Səməd Vurğunun "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram altında Dədə Ələsgərdən bir nişanə görürəm",- deyə, qürurla dəyərləndirdiyi aşıq poeziyasının sənət bürcü Aşıq Ələsgər Göyçəlinin “Baş endirir” şeirini epiqraf olaraq verməklə sözünün işığını daha da gur, sehrini daha da ovsunlu edir:

Ələstindən bəli deyən
Sübhaha baş endirir.

Məhəmmədə tabe olan
Qurana baş endirir.
Özü birdir, adı min bir...

Bax, budur Tanrıya sığınıb ozan-aşıq poeziyasından güc və işıq alan sözün sehri, qüdrəti.

Şairin Tanrıya sığınmağını özündə ehtiva edən bu kitabın ad seçiminə rəğmən tibb sahəsində yetərincə tanınmış, nüfuzlu kardiolq- cərrah Xaliq Nurun maraqlı bir fikri yada düşür. O, insan ürəyində "Allah" sözünün yazılmasınıYaradanın imzası sayaraq yazır:

-Dünyanın ən məşhur incəsənət əsərlərinə baxın. Siz onların üzərində çox da nəzərə çarpmayan müəllif imzasını görəcəksiniz. Belə ki, hər bir sənətkar, müəllifliyini qorumaq üçün öz əsərində imza qoyur. Insan - bütün yaradılmışların arasında ən dahi nümunədir. Deməli, insanda da onu Yardanın imzası olmalıdır.

Təsəvvür edin ki, belə bir imza mövcuddur və insan onu öz ürəyinin ən gizli guşəsində gəzdirir.

Əlimdə lupa ilə tibbi atlası nəzərdən keçirərkən mən heyrətamiz bir foto- slayd gördüm. Burada çəkilən ürək şəklinin üstündə Tanrımızın adı – "Allah" yazılmışdı. Fikirləşdim ki, məni qara basır və şəkilə daha diqqətlə baxmağa başladım.

Yazı sanki xəttatın əli ilə cızılmışdı, dəqiq və aydın. Şübhələrə son qoymaq üçün mən divardan asılan və üzərində açıq- aydın "Allah" sözü bilinən şəklə baxdım. Bu yazı ilə atlasdakını müqayisə etdikdən sonra əmin oldum ki, bunlar eyni şeylərdir; ürəkdə olan "Allah" sözündə heç bir səhv yox idi.

Bəli, illərlə axtardığımı və varlığına şübhə etmədiyimi mən avropalıların tərtib etdiyi atlasda tapdım. Onu əlimdən buraxmadan həyəcanla başımda oyanan suallara cavab axtarmağa başladım.

Bu yazı təsadüf ola bilərdimi? Bəlkə, o, yalnız elə bu şəkildədir? Məni narahat edən bu sualların cavablarını yalnız əməliyyat yolu ilə, ürəyi öz gözlərimlə görməklə tapa bilərdim.

Həqiqətən, sonralar mənim keçirdiyim əməliyyatların nəticələri göstərdi ki, hər bir ürəkdə belə yazı var.

Güman ki, dodaqlarını büzərək buna inanmayanlar da tapılacaq. Amma nə etmək olar? Allahın möhürü inanmayanların ürəyində də var.

Bir sözlə, ürək - kamil bir orqandır və onun üzərində olan ilahi imza təsadüfi deyil.

Bəli, ürək hər bir zərbasi ilə "Allah"deyir və Yaradanın adını təkrar etməklə onu bütün kainata səsələndirir.

Səsi-Sözü nə əzizdi,
Əzəldən pakdı, təmizdi,
Tanrımızdan nişan –izdi ...
Allah, Allah...deyir ürək !

F.Q.Salehin dörd kitabından üçünün ("Könül sevgisiz keçinməz", "Nurlu kəlamlar "Şüəra" fəhmilə" və "Allah, Allah…deyir ürək")redaktoruluğu, eləcə də iki kitabına "ön söz" ("Könül sevgisiz keçinməz" və " Nurlu kəlamlar " Şüəra" fəhmilə") yazmaq mənə nəsib olduğundan, onun yaradıcılığı ilə yaxından tanışam və necə deyərlər, şairin şeiriyyət rənginin hər çalarına demək olar ki, əhatəli bələdəm. "Könül sevgisiz keçinməz"də yazmışam ki, kitab dakı şeirlər F.Q.Saleh yaradıcılığının bir rəngidir. O isə "Hərə öz rəngində haqq aynasında", – deyir.

Hər ayə sözündən bir dünya baxır,
Duyub düşündükcə əvvəldir axır.
Hər kəs özü kümi dünyaya baxır,
Hərə öz rəngində haqq aynasında.

"Könül sevgisiz keçinməz"də yer alan bir fikrimi "Allah, Allah…deyir ürək" kitabına da şamil etmək istərdim ; kitabda "təsnifat" olunan şeirlər şairin qəlb aləminin büllurlaşan sevgi dolu söz çələngidir. Kitabın adı da təsadüfi seçilməyib və poetikdir.

Kitabın adı sanki sökülən dan yerinin al şəfəqləridir, şerlər isə bu şəfəqin nuruna boyanan füsunkar, təkrarsız bir mənzərə.

Sözlə sərgilənən bu feyzi duymaq üçünsə gərəkdir ki, şeirlərin ideya-emosional yükünü özündə cəmləşdirən, istiqamətverici motivi-leytmotivi hikmət sanbal-siqləti dərin və hüdudsuz üfüq genişliyinə malik olan "Allah, Allah…deyir ürək" deyimi, "Kəlmeyi şəhadət-islam sorağım" misrası olan bu kitabla baş-başa qalasan.

Firudin Qəmbər Salehin şeirlərində ifadə üsulu olaraq inversiya qabarıq olmaqla, bədii dili daha güclü və təsirli edir:

Var Rəsulum haqqa dayaq,
Haqdan gələn bir nur, çıraq.
İbadəti haqq yol sanaq,
Haqdan gələn haqqa dayaq.

"Haqdan gələn haqqa dayaq"- deyən şair yazır: "Nur içində nur olan Həzrəti Məhəmmədin (s.ə.s) mübarək ruhuna pənahlanaraq özümdə bir cəsarət tapıb, müqəddəsliyi qarşısında qəlbimdə dolub-daşan sevgimi poetik çalarlarla dilə gətirə bildiymdən Ulu Yardanıma şükürlər və həmd olsun!" Biz də deyirik: Həmd olsun!

Dağına bax, düzünə bax,
Bu dünyanın üzünə bax,
İnsanların gözünə bax,
Səbəbkarı gəl, gör görüm...

Kitaba daxil edilmiş şeirlər iki qismdə ("Könül ixlası" və "Ulu çağırış") təqdim edilir. "Könül ixlası""Yaradanım, ovundur sən " misrası ilə bitən bəndlə, "Ulu çağırış" isə şair dostuma ithaf etdiyim şeirdən bir bəndlə başlayır:

Qövr edən yaralar məlhəmə möhtac,
Neçə yurd yerimiz mərhəmə möhtac,
Vətənə dönməkdir - qəribə əlac...
Köksün körüklənir, Firudin Qəmbər!

Bu poetik ricətləri həm müqəddimə, həm də müvazi olaraq xitamə kimi dəyərləndirmək olar. Çünki şair "Könül ixlası"ındakı müqəddimə-bəndin əvvəlki iki misrasında dünyanın faniliyini dilə gərirərək bu boşluğu dolduracaq nəsnənin sevgi olmasında inamlıdırsa, sonuncu iki misrada əndişələrin girdabından qurtuluşu Ulu Yaradana tapınmaqda, aramsız "Allah" nidası ilə döyünən ürəyin Tanrı sevgisiylə ovunması diləyindədir.

"Ulu çağırış" dakı müqəddimə-bəndin ilk iki misrası nisgil və həsrətdən qaynaqlanırsa, digər iki misra isə dilək, ümid ünvanlıdır. Bu dilək isə müqəddəs kəlama –"Vətəni sevmək imandandır" kəlamının ehtiva təməlinə dayaqlanır.

Soyumun, nəslimin pir olan yeri,
Doğulduğum ocaq, nur olan yeri,
Babamın əmanət, sirr olan yeri,
Yurd yerim Göyçəmdi, vətənim mənim,
Ruh yerim səndədi, vətənim mənim.

Heç də təsadüfi deyil k, Firudin Qəmbər Saleh qutsal Kitabımız Qurani-Kərimə tapınaraq “Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapmışdır” (Rəd surəsi, 28) ayəsini şeirlərinin birində epiqraf olaraq vermişdir.

Şair “müəllifdən” şükranlığında və diləyində yazır: “Uca Allah içimdə nurlaşan bu məhəbbət və sevgi çələngini yaratdığının bir zərrəcə qul borcu hesab edərsə, özümü rahat, xoşbəxt sanardım. İnşallah!”

Biz də qələm dostumuzun söz ovqatına qoşulur və İnşallah, deyirik.

Gecə-gündüz vurur ürək,
Neçə arzu, neçə dilək ...
Gah fərəhli, gah da göynək,
Allah, Allah... deyir ürək!

*15.07.2012*



## SƏN Kİ BƏLƏD BU DÜNYAYA

*Mən ...aləm sədəfində insandan qiymətli*
*bir gövhər görmədim və insan gövhərində*
*isə sözdən şərəfli cövhər tapmadım .*
***Məhəmməd Füzuli***

Qismətdən vaxtilə ədəbiyyatımızın, mənəvi irsimizin, poeziyamızın, sözün geniş mənasında Sözümüzün dərsini aldığım hörmətli müəllimimlə tale bizi yenidən görüşdürüb. Bu dəfə, müəllimimdən ilkin olaraq əxz etdiklərimə dayaqlanaraq fikrimi, mövqeyimi, təəssüratımı, qənaətimi qələmlə təqdim etməklə, mətbu və poetik sözlə birgə. Sözün işığında təbiət və cəmiyyətdəki təbəddülatlar fonunda...Nə demək olar, bəlkə,bu bir təsadüf yox, zərurətin nəticəsidir.

İllər öncə Hamarkənd kənd ortaməktəbində müəllimim olmuş Səyadulla Kərimli ilə bu gün həm də qələm dostu, yol yoldaşıyıq. O yol ki, ulu sözün- “Ol”un (Qurani - Kərimin “Torpaqdan yaratdı Adəmi Allah. Sonra “Ol” dedi ona, torpaqdan var oldu” ayəsi nəzərdə tutulur) cazibəsində sözə üz tutmuşuq, bir şeirdə dediyim kimi:

Qələmə sarıldın sözün eşqinə,
Sözün qüdrətilə söz demək üçün .
Əyriyə yox dedin, düzün eşqinə,
İman işığına bələnmək üçün.

Təpədən dırnağa iman işığına bələnən **Səyadulla Xudaverdi oğlu Kərimli** 1946-cı il iyulun 1-də Yardımlı rayonunun Zenqaran kəndində dünyaya göz açıb. Orta təhsiliniYardımlıdakı M.F.Axundov adına 1 saylı məktəbdə almışdır. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məzunudur. Əmək fəaliyyətinə Yardımlı rayonundakı Hamarkənd kənd orta məktəbində müəllimlikdən başlamış və həmin məktəbdə tədris işləri üzrə direktor müavini işləmişdir. 1977-ci ildə Bakı şəhərinə köçmüş, Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində müxbir, “Azərnəşr”də redaktor, böyük redaktor, Azərbaycan mətbuat salnaməsində özünə layiqli yer tutan “Zəka” jurnalında məsul katib, baş redaktor (jurnalda daha çox tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin qaranlıq, kölgəli səhifələrinin açılmasına kömək edə biləcək materialların dərcinə çalışmışdır), “Respublika” qəzetində ədəbi redaktor, “Lider” TV-nin Dublyaj redaksiyasında redaktor vəzifələrində çalışmışdır.

S.Kərimli yaradıcılığa şeirlə başlayıb. Orta məktəbdə oxuyarkən “Zakir” adlı iki hissəli pyes yazmışdır. İlk mətbu əsəri 1977-ci ildə “Azərbaycan müəllimi” qəzetində dərc olunan “Nənə xalı toxuyur” adlı şeirdir. Sonrakı illərdə o müntəzəm olaraq dövri mətbuatda ədəbi-bədii və publisistik yazılarla cıxış etmişdir.

S. Kərimlinin yaradıcılığında bədii-publisistik əsərlərlə yanaşı, tədqiqat xarakterli yazılar da paralel şəkildə davam etdirilmişdir. Onun 1980-1985-ci illərdə, respublikamızın müxtəlif guşəsində yaşayıb-yaradan ədiblərin, xüsusilə də gənc yazarların kitabları haqqında fikir söyləməsi bu baxımdan daha çox diqqəti cəlb edir.

S.Kərimlinin “Ömrü verməyin bada...” (şeirlər), “Məhəmməd Peyğəmbər (s.ə.s.) 40 sual-cavab” (tərtibçi-müəllif), “Yeraltı səltənət” (həmmüəllif), “Bitməyən ömür” (tərtibçi-müəllif), “Əbədiyaşar insan” (tərtibçi-müəllif) və “Tap-tapmaca” kitabları işıq üzü görüb.

Kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulan “Balalara hədiyyə”adlı kitabı isə hazırda nəşrə hazırlanır. Eyni zamanda, o, görkəmli ictimai və dövlət xadimi, yazıçı Nəriman Nərimanovun ədəbi əsərlərinin tədqiqat tarixinə aid monoqrafiyanın, “Allahu-əkbər, yaxud üç yuxunun sirri” dini-fəlsəfi kitab, vaxtsız itirdiyi tələbə yoldaşı, həyat yoldaşı, müəllim yoldaşı, yazıçı Afaq Nəbi qızı Cavadovanın xatirəsinə ithaf etdiyi “Maral arvadın gəlini” romanının üzərində işləyir.

S.Kərimlinin Azərbaycanın ictimai-siyasi, mədəni həyatında həmişə mühüm fəaliyyəti olub. Fəxri adlara, fəxri fərmanlara, müxtəlif mükafatlara layiq görülüb.

Azərbaycan Jurnalistlər Birliyinin,Azərbaycan Ziyalılar Cəmiyyəti İdarə Heyətinin üzvüdü, “Qızıl qələm” mükafatı laureatıdır .

Səyadulla Kərimli-nasir, şair, publisist, tənqidçi, tədqiqatçı, pedaqoq, jurnalist və bir də tarzən ... Bəlkə də, çoxları onun ürəkləri riqqətə gətirən ğözəl tar ifaçılığından xəbərsizdir. Səyadulla müəllimin “portret cizgilərinə” elə bu “ştrixdən” başlamaq istəyirəm .

S.Kərimli müsahibələrinin birində deyir: “...tar çalmağl həqiqi tarı əlimə almamışdan öyrənmişdim. On -on iki yaşlarında meşəyə getməyim, oradan vələs ağacının gövdəsindən kəsib gətirməyim, ondan bir az saza, bir az tara oxşar “musiqi aləti” düzəltməyim heç vaxt yadımdan çıxmaz. Sonra isə həmin o yöndəmsiz, “musiqi alətinə”

sim qoşdum və barmaqlarımı o simlərin üzərində məşq elətdirməyə başladım. İki-üç il beləcə keçdi...Növbəti illərdə kəndimizin klubuna iki tar, bir qarmon gətirdilər . Mən ilk dəfə həqiqi tarı onda əlimə götürdüm”.

Bu məqamda yaddaşımda kövrək ovqatlı bir yazı yarpaqlanır. Qələm dostumuz-yazıçı, filoloq –alim Səfər Kəlbixanlı Azərbycanın dilbər guşələrindən biri olan Yardımlı rayonunun ziyalılarından-onların həyat yolundan, uğurlarından, bütövlükdə respublikamızın çiçəklənməsi üçün gördükləri müxtəlif istiqamətli işlərindən söhbət açdığı ”Sənsiz günlərim” (1997) adlı kitabında “Kərimli Səyadulla” oçerkində yazır: “...əlində inləyən tar nakam bir məhəbbəti aləmə car çəkirdi. Vaxtsız itirdiyi, amansız ölümün yarımçıq qoyduğu Afaq ömrünün fəryadıydı bu inilti, bir də...həsrətdən qovrulan türk kişisinin utanıb-çəkinmədən gözlərindən gilənənən duzlu göz yaşlarının dadına azacıq şirinlik gətirmək istəyindən yoğrulmuşdu bu inilti. Amma bu inilti sərinlik gətirmədi Səyadulla müəllümün qəmdən, kədərdən yoğrulan nisgil təşnəsinə...Yumulu gözlər indi öz aləmində idi-onunla keçirdiyi, çətin anlarda dərdini böldüyü,boy-buxunundan, qədd-qamətindən,gözəlliyindən qürrələndiyi,baxdıqca doymadığı onlu aləmində.Bu aləmdən, əlində bərk-bərk sıxdığı tarından Səyadulla müəllimi heç kim və heç nə ayıra bilməzdi bu məqamda ”.

Elə mən də bu ovqatda müəllimimə ünvanladığım “Sən ki bələd bu dünyaya” adlı şeirimdə yazmışam:

Tarındakı “Segah” səsi-
Bir ürəyin ah-naləsi.
Bəlkə, həyat hekayəsi ...
Sən ki bələd bu dünyaya.

Dünya dedi: ətək məndən,
Əl səninki, istək səndən.
Möhlət məndən, dilək səndən,
Sən ki bələd bu dünyaya.

Dünya dedi: ələk məndən.
Ələdikcə göynək səndən...
Möhnət məndən, ürək səndən,
Sən ki bələd bu dünyaya.

Dünya dedi: dirək məndən,
Söykənməyə kürək səndən...
Arı səndən pətək məndən,
Sən ki bələd bu dünyaya.

Bir sınaqdı həyat özü,
Kəsə bilməz əyri düzü.
Bu dünyanın neçə üzü...
Sən ki bələd bu dünyaya.

Afaq xanım Səyadulla Kərimlinin təkcə həyatında deyil, ədəbi taleyində belə silinməz iz qoymuş, qəlb yaddaşında kədərlə sevincdən yoğrulmuş hissə, duyğuya, xəyal həmsöhbətinə, röya səhnələrinin baş qəhramanına, əndişəli günlərində mənəvi ümid rəmzinə...ruhuna hopmuş ilahi sevgiyə dönmüşdür.

**Afaq Nəbi qızı Cavadova** 1950-ci il dekabrın 23-də Ağcabədi rayonunda anadan olmuşdur. Uşaq ikən ailəsi Beyləqan rayonuna köçmüşdür. Beyləqandakı 1 saylı şəhər orta məktəbi, 1975-ci ildə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Beyləqan 1 saylı şəhər və Yardımlı rayonunun Hamarkənd kənd orta

məktəbində ədəbiyyat müəllimi işləyib. 1983-cü il mayın 6-da Bakıda vəfat etmişdir. Beyləqan rayonunda dəfn olunub.

Afaq xanım Səyadulla müəllimin həyatından fiziki baxımdan ayrılsa da, onlar metafiziki bağlarla yenə birgədirlər. Ədəbi yolda da... Afaq Nəbiqızının "Qeybdən gələn səslər" adlı ilk kitabının ölümündən sonra, Səyadulla müəllimin təşəbbüs və səyi ilə içıq üzü görməsi və müəllifi olduğu, kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuş "Sarıcanın macəraları" adlı nağıl-povestin nəşrə hazırlanması dediklərimə əyani sübutdur.

Müxtəlif mövzularda yazılmış hekayələr və "Həmin sentyabr səhəri" adli povest daxil edilmiş "Qeybdən gələn səslər" kitabı 1990-cı ildə "Yazıçı" nəşriyyatı tərəfindən çapdan buraxılıb. Kitabın "Ön söz" müəllifi Cavad Zeynal mərhum yazıçını təəssüf hissi ilə oxuculara belə təqdim edir: "Afaq Cavadova dünyaya söz demək üçün gəlmişdi, lakin o sözünü deyə bilmədi. Bu deyə bilməmək o biri deyə bilməməkdən deyildi. Yəni bu, onun özündən asılı olmadı…"

Hesab edirəm ki, S.Kərimli ilə A.Nəbiqızının yaradıcılığına da ayrı -ayrılıqda deyil, küll halında baxılmalı, ədəbi kontekstdə baxış müvazi, paralel olmalıdır.

Mərhum ədibimizin bədii sözü, əsərlərindəki sənətkarlıq xüsusiyyətləri, bütövlükdə yazıçı taleyi haqqında S.Kərimlinin fikrinin daha səmimi, daha dolğun, eləcə də baxış və yanaşma yöndənmənə məhrəm olduğunu nəzərə alıb müəllimimə istinad etmək istəyirəm .

S.Kərimli Afaqsız Afaqın 60 illik yubileyi ilə əlaqədar olaraq yazdığı, qəmli notların hakim kəsildiyi "O əsl qələm sahibi idi…" adlı məqaləsi (noyabr, 2011-ci il)ilə

dünyasını vaxtsız dəyişmiş mərhum yazıçı Afaq Cavadovanı anmaqla, həm də onun ədəbi irsinə işiq tutur: “Keçən əsrin 80-ci illəri Azərbaycan ədəbiyyatı tarixində öz yeni dəst-xətti, yeni yazı manerası ilə seçilən xeyli gənc yazıçı bəxş elədi ki, onlardan da biri mərhum ədibimiz Afaq Nəbiqızı (Afaq Cavadova) idi. Lakin taleyin amansız əli ona çox tez, istedadının təzə-təzə çiçəkləndiyi, sənətə ilk addımlarını atdığı bir vaxtda uzandı; dünyasını çox erkən dəyişdi. ...Cəmi 32 il ömür yaşadı. Əgər sağ olsaydı bu günlər onun altmış yaşı tamam olacaqdı.

Sağlığında – ölümündən qabaq dövri mətbuatda cəmi bir neçə hekayəsi dərc olunmuşdu. Ancaq bu hekayələr onun gələcəyin böyük yazıçılarından olacağından xəbər verirdi...

İlahi bir istedad, talant, təxəyyül vardı Afaqda. Bizim gündəlik müşahidə etdiklərimiz, gördüklərimiz, bəzən də belə desək, “görə bilmədiklərimiz” adi həyat həqiqətlərini o, elə duyub qavrayırdı, yaradıcılığında onları detallarına, incəliklərinə qədər elə təsvir edirdi ki, oxucu istər-istəməz bu “xırdalıqlar”, “əhəmiyyətsiz hesab etdiyimiz hadisələr” fonunda böyük ictimai bəlaların əsl mənbəyinin, kökünün şahidi olurdu…

Afaqın yazılarının ruhunda bir qeyri-adi müəllif özünəməxsusluğu vardır. Konkretlik, yığcamlılıq həm də bu müəllif özünəməxsusluğu tamamlayır. Təbii ki, bunlar həmin əsərlərin oxunaqlığını bir az da artırır, onları daha da rəvanlaşdırır və yaddaqalan edir.

Yuxarıda sadalanan məziyyətləri həm də Afaqın uşaqlar üçün yazdığı povest, hekayə və nağıllara da şamil etmək olar. Bu əsərlərin ideya, məzmun və qayəsi bəşəri

xarakter daşıdığından, deyərdim ki, ondan dünyanın bütün uşaq və yeniyetmələri bəhrələnə bilər”.

S.Kərimlinin Afaq xanımın yaradıcılığının məziyyətləri haqqındakı qeydlərini eynilə özünə də şamil etmək olar. Bu da təbiidir. Axı onların “xəmiri bir yoğurulub.”

Afaq itkisinin acıları ilə üz-üzə qalan Səyadulla müəllim göyüm- göyüm göynərtilər közündə qovrula – qovrula yazır: “Afaqı...üçüncü uşağımız dünyaya gələrkən itirdim…

Deyirlər insanın həyatı qəribəliklərlə doludur. Bu qəribəliklər Afaqın da həyatından yan keçməyib. Anası dünyasını dəyişəndə onun beş, kiçik bacısının isə iki yaşı olub. Afaq da həyatdan köç edəndə böyük qızının beş, kiçiyininsə iki yaşı vardı. Anası da may ayının altısında torpağa tapşırılıb, Afaq da mayın altısında dəfn olundu...

Ölüm ayağında Afaqın güclə eşidilən son sözü, son kəlməsi, son pıçıltısı indi də qulaqlarımda səslənir: “Aynur məni soruşur?..”

Afaq əsil insan, böyük fəzilət sahibi idi. Yaxşı həyat yoldaşı olmaqla yanaşı, sədaqətli, etibarlı, qayğıkeş, mehriban bir dost idi. Səmimi etiraf edirəm ki, keçən bu illər ərzində mən təkcə həyat yoldaşımı deyil, həm də əziz dostumu itirmiş oldum…”

Səyadulla Kərimlinin ürək yanğısı ilə yazdığı bu sətirlədən ülvi məhəbbətin fonunda xisləti xaliqə məhəbbət, xilqətə mərhəmətdən yoğurulan, məslək və amalı ülvi dəyərlərədən qaynaqlanan Afaq xanımın işıq saçan ömrü boy göstərir.

Leonardo da Vinçinin təbirincə desək: ”Mənalı yaşanmış hər bir ömür uzun ömürdür”.

Səyadulla müəllim ötən çağların xiffətitindən qəhərlənə -qəhərlənə Afaqlı günlərini yada salır:

-Gözəl gənclik çağlarımız idi. Tez- tez meşələrə, çay qırağına, bulaq başına, bir sözlə, kəndimizin görməli yerlərinə gəzməyə çixardıq. Gəzməkdən doymazdıq. Bədahətən deyilmiş aşağıdakı misralar da həmin günlərdən, anlardan yadigar qallıb:

Sərin- sərin səmasından meh əsdi,
Sürü keçdi, çoban yaman tələsdi.
Bir səs gəldi, dönüb baxdım, vələsdi,
Yardımlının qucağında dil açıb...

Ümumxalq dilinin zənginliklərini bilmək, incəliklərinə bələd olmaq və ondan istifadə bacarığı bədii yaradıcılığın mühüm tələblərindəndir ki, bu məziyyətlər qoşa qanadın – Səyadulla Kərimli və Afaq Nəbiqızının yaradıcılığında özünü bariz şəkildə göstərir.Milli düşüncə və duyum yad- daşı hər iki qələm sahibinin söz boxçasındakı büllurlaşmış nümunələrin mayasına hopmuşdur ki, burada yazıçı fəhmiylə hadisələrin ictimai mahiyyətinə varılır və fikir canlı nitq vahidi ilə zinətləndirilir, xalq ifadəsi ilə rövnəqləndirilir.

Qeyd edim ki, bu yazıda məqsədim heç də Səyadulla Kərimli və Afaq Nəbiqızının ədəbiyyatımızda yerini, mövqeyini müəyyənləşdirmək deyil; bu, sadəcə olaraq mənəvi ehtiyacdan doğan könül işi, böyük yunan filosofu Əflatunun qədimliyi qədərincə müasir səslənən ”Atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göylərə qaldırdı” müdrik kəlamının ehtiva etdiyi fikrə rəğmən öz düşüncələrimi qələmə almaq istəyim, rəğbət hissimi bildirmək üçün bir cəhddir...

İllərin axarı axır su kimi.
Bulanıq sular da axı durulur...
Ötən günlərindən peşmansa kimi.
Səninsə hər günün qürur doğurur.

Dünyanın təzadlı-ipək, tunc üzünə bələd, bununla belə ifrat dərəcədə sadə, duyğulu, humanist...fəzil xislətə malik olan S.Kərimli beyninin işığını, ürəyinin hərarətini öz yazıçı kredosu ilə sözə köçürməkdədir, Afaqsiz Afaqla... Axı Səyadulla müəllim, sən ki bələd bu dünyaya...

*noyabr, 2012*



## " ÜZÜMÜ SÖYKƏYİB GÖYÜN ÜZÜNƏ..."

*Şeir ərşdən gələn bir nurdur tamam,*
*Möhkəm, əbədidir ərş kimi müdam.*
***Marağalı Əvhədi***

Deyirlər əsl şairlər göy üzündən keçib gəlir. Görünür, bu fikir yer üzünü göy üzünə yaxınlaşdırmaq amalında, diləyində olan Söz elçilərinin uca göylərə -əzələ, Tanrı dərgahına üz tutmasından qaynaqlanır...Sözün işiğında özü də işığa dönən müqtədir şair Vaqif Bayatlı Odərin bənzərsiz bir deyimi yaddaşımda misralanır:

Keçib gəldiyi
Göy üzü kimidi Şairin üzü-
İşığı saralar, buludu keçər,
Haraya-haraya gedəsi olsaq
yenə könlümüzdən, ürəyimizdən
göy üzünə dönmək ümidi keçər...

Əngin məna dərinliyi, zəngin forma genişliyinə malik olan Sabir Abdinovun poeziyasına məhz bu məntiqlə "göy üzündən" nəzər salmaq istəyindəyəm. Çünki S.Abdinov üçün göy (göy üzü), eləcə də işıq və yağış xüsusi məna kəsb edir və onun poeziyasında bu adlar poetik hissə çevrilir, obrazlaşır. Əyanilik üçün onlarla şeirlərdən nümunələr gətirmək olar: "Üzümü söykəyib göyün üzünə", "Göylərin üzünə söykə üzünü", "Göylər də

qovuşar yerə bir anda”, “Göylərin üzündə sən axtar məni ”, “Damla gözlərimə göylər yığışdı”, “Baxıb gözlərimə göylər ağladı”, “Dalğalar qaldırsın məni göylərə”, “...Göydən yerə enən sevgi...”, “Göylərə zillənən gözüm yorulmaz”, “Göylərə açılan əllərin baxır” və s. kimi misralar şairin mifoloji, etnik yaddaş qatlarının poetik ovqatda təzahür edən şəklidir.

**Sabir Məzlumağa oğlu Abdinov** 16 yanvar 1962-ci ildə Yardımlı rayonunun Bürzünbül kəndində anadan olub. 1977-ci ildə Yardımlı rayon Bürzünbül kənd-səkkizillik, 1979-cu ildə Hamarkənd kənd orta məktəbini müvəffəqiyyətlə bitirib. 1980-1982-ci illərdə hərbi xidmət-də olub. 1988-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Uzun illərdir ki, prokurorluq orqanlarında çalışır. Baş ədliyyə müşaviri rütbəsindədir. “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişdir.

Yaradıcılığa orta məktəb illərindən başlayıb. İlk şeiri 1978-ci ildə, Yardımlı rayonunun mətbu orqanı olan “Yeni kənd “ (indiki “Zirvə”) qəzetində dərc edilib.

“Demə, mənə heç nə demə” (1997), “Qınamasın bu yurd məni”,(1998), “Mənə dəniz verin” (2002), “Sənə məktublarım” (2007), “Sizsiz,sizinlə...” (2010) kitabları nəşr olunmuşdur. 60-dan çox şeirinə mahnılar bəstələnib. Şeirlərinə yazılmış nəğmələrdən ibarət “Dünyadan böyük sevgimiz” (2002) adlı audio kasset və disk maraqla qarşılanmışdır.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jur-nalistlər Birliyinin üzvüdür.

Sabir Abdinovun şeiriyyəti “Göy üzü” kontekstində-mənəvi ehtiyaclarımıza, duyğularımıza bir zənginlik və

rahatlıq gətirir. Bir bəndlik" Göylər ucalır" şeirində yazdığı kimi:

Mən elə bilirdim günün birində
Adi insan kimi göylər qocalır.
Bilmirdim dünyada sevənlər varsa,
Bu ülvi sevgidən göylər ucalır.

Ülvi sevgidən göylərin ucalması qənaətində olan şair "Bir gün" şeirində öz "gülünə" "Göylərdən yanına gələrəm sənin"-deyir. Məntiqi olaraq sual doğur:niyə göylərdən? Bax, S.Abdinovun Göylə (göy üzü) bağlı poetik gəzişmələrinin fəlsəfi anlamı, mahiyyəyi də elə bu sualın cavabı fonunda üzə çıxır. Axı göy üzü mifik-ədəbi yaddaş aynamızda Tanrı "məkanının" özüdür...Paklıq, saflaşma, fəzilət, həqiqət, qüdsiyyət...o üzdən keçib gəlir; eləcə də şairin poeziyasında obrazlaşan İşıq və Yağış da.

Təbii ki, mütləq işiq dünyanı nura qərq edən günəş ziyasıdır... İşıqla bağlı heyrətamiz bir beytə nəzər salaq:

İlahi, necə də xoşbəxt olaram
Sevgi işığında görsəm dünyanı.

Dünyanı sevgi işığında görmək istəyən şair "İşıqlı gözlərin baxır dünyaya"dan göydə ulduzlara-işığa bağışlanmasını dilə gətirir:

Göydə ulduzlrara bağışla məni,
İşığa boyansın dünyanın özü.

Göydə ulduzlrara bağışlanacağı təqdirdə dünyanın özünün işığa boyanacağına inamlı olan müəllif müvazi olaraq yağışa rəğmən də rica edir:

Yağan yağışlara bağışla məni,
Dünya təmizlənsin yağış selində.

Digər bir şeirində "Gözlərimə işıq çilə, Ürəyində bitsin sözüm."-deyən şair

Zülmət ensə yollarına,
İşıq olum, atəş olum!-

istəyini, amalını izhar edir.

S.Abdinov "Tənha qalan gecələr Ağ işığa bələnə"-bələnə "Bu axşam" şeirində yazır:

Bu axşam özümə qonaq olmuşam,
Bir şam işığında qəmim itəcək .
Dönəcək nağıla bəlkə, bu axşam,
O şam işığında qəmim bitəcək.

Bir şam işığında xəyallanan şair "Unuda bilmədim səni" şeirində "Gözümdə sönməyən işığa döndüm, Yollara əl açıb səslədim səni " poetik ricətlə işığın rənginə boyanır ; lap elə "günəşin islanmış baxışı" tək.

Bu yağan yağışın naxışı gözəl,
Buludu, şimşəyi elçi göndərər.
Günəşin islanmış baxışı gözəl,
Torpağa baxdımı, gülə döndərər.

Yağış şəhid qanıyla vətənləşən torpağa, Vətən köynəyindən keçən, andını torpağa içən, Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin uyuduğu məzarlara yağdıqca "üşüyər özü":

Buludlu göylərin ağlayar gözü,
Şəhid məzarlara çilənər, yağar .
Üşütməz başdaşın, üşüyər özü,
Məzarlar üstünə gül- çiçək taxar.

Bu bədii düşüncənin, ədəbi təfəkkürün özülündə torpaq qüdsiyyəti dayanır.

Sabir Abdinovun yaradıcılığına bələd olduqca görmək olur ki, ədəbi movzuya çevrilən heyranlıq və təsirlənmələr öz bədii həllini əsasən lirik ovqatda, lirizm şəklində tapır. Romantik əhval-ruhiyyə şairin demək istədiyi mətləbin

mayasına hopur, iç dünyasının söz libasında təzahürü tək gerçəkləşir.

Bu yağan yağışın ilahi səsi
Bu kövrək ruhuma laylalar çalar.
O şirin nəğməsi, isti nəfəsi
Dəli sevgi olub könlümə dolar.

V.Q.Belinskinin lirik poeziya iə əlaqədar bir fikrini xatırlatmaq yerinə düşər: ”Lirikada şairin şəxsiyyəti birinci planda durur; biz ancaq onun vasıtəsilə hər şeyi qəbul edib anlayırıq... lirik poeziya başlıca olaraq subyektiv-daxili poeziyadır, şairin öz-özünü ifadə etməsidir ”

Bulud yağış gətirdi,
Yağış çiçək bitirdi.
Ətirləndi bu dünya,-
Bulud, yağış -ətirdi.

Misralarından sanki yağışın lətif qoxusu gələn şeirlər “təbiətin nağılı “na dönür, həzin- həzin oxşayır duyğularımızı. Bu poetik əsintilərdən: “Gözümdə sellənər arzu yağışı”, “Payız baxışımdan yağış sellənər”, “Kövrək baxışından yağış yağacaq”, “Gör neçə izimiz yağışa düşdü”, “Yağar yarpaq yağışı”(payızda), “Bir səhər üzünə nağıl yağacaq”, “Sözlərin yağış tək yağar dünyaya”...Beləcə, hər kəs öz təbiətinə köklənir təbiətin yağış havasında. Necə ki, S. Abdinovun poetik dünyası öz təbiətinə müvazi olaraq sərgilənir, söz-söz, misra-misra. Daha dolğunu, şeirlərin havası şairin öz havasına-kövrəklik, həzinlik halətinə, ovqatına köklənir. “Mən yağış istədim” şeirində olduğu kimi:

Baxıb gözlərimə göylər ağladı,
Qarışdı bu yağış göz yaşlarıma .

Necə xoşbəxt idi yağan yağışlar,
Dönəndə çəmənin naxışlarına.

Yağdı gözlərimə, yağdı bu yağış,
İlahi, bu necə kövrək yağışdı!
İsindi həsrətdən sevdalı qəlbim,
Damla gözlərimə göylər yığışdı.

Şairin könül dünyasından süzülüb gələn doyulmaz söz çeçməsi "Göndərər göylərdən bir sevgi payı" məfkurəsi ilə bütöv bir fikir sistemini yaradır.

Poetik çərçivədə şair üçün rəmzləşən nəsnələr pozitiv aura ilə romantika qanadlarında təqdim olunur.

De görüm o odum, alovum hanı?
Üşüyən əllərim yumağa dönüb.
Gəzir saçlarımda payız dumanı,
Kirpiyim sırsıra, baxışım donub.

Şairi vəcdə gətirən yaşantılar, cəmiyyət və təbiətdəki harmoniya və təzadlar sözün çeşidli qatlarına sirayətlə müşayiət olunur. Belə məqamlar gah fiziki, gah da metafiziki görüntü və anlamdadır.

Ağaclar söykənib göyün üzünə,
Mənim pəncərəmə kölgəsi düşmür.
İşığın kölgəsi məndən asılıb,
Neyləyim, boynuma ilgəsi düşmür.

S.Abidinovun söz fəsahəti dərin və zərif duyğular qamusu kimi ovqatımıza hakim kəsilir: nəğmə oxuyan dəniz, dənizə yağan yağış güzğülənən göy üzü tək...

Dənizə yağış yağır -
Yağış xalı toxuyur.
Güzgülənib göy üzü –
Dənizə yağış yağır.

“Yaz yağışı” şeirində yaz yağışının rayihəsi sanki misralara hopub. Şehli yamacların qövsi-qüzehi tək bərq vurur yarpaqlanan bu misralar.

Göy tellənər baxışından,
Torpaq dinər naxışından,
Nəğmə tökər ağuşundan
Yaz yağışı.

Yaz yağışı–dirilik suyu, həyat iksiridir, göy üzünün nurudur ; nur- günəş zərrəsi, günəş zərrəsi- göy üzündən yer üzünü aydınladan işıq...Bu fikrin ehtiva etdiyi məntiqlə S.Abdinovun poeziya çələngi, o çələngdən sədalanan bəstələr mənəvi dünyamıza dünəndən bu günə, bu gündən sabaha sözün lirik rəngində saçılan işıqdır .

Zənnimcə, üzünü göy üzünə söykəyib yer üzünə Ulu Sözün işığında öz sözünü deyən Sabir Abdinovun poetik dünyasını böyük filosof Hegelin fikir aydınlığında olduqca tutarlı və dürüst ifadə etmək olar: “Lirikanın həqiqi zənginliyi ilk növbədə şair şəxsiyyətinin zənginliyindən, çoxcəhətliliyindən, bu şəxsiyyətin milli təbiətindən asılıdır.”

*may, 2012*

## ŞAİR ÖMRÜ-BAYATI SƏDASI

*Allah da çox sevir şeirin səsini.*
***Molla Vəli Vidadi***

Əzizim, haqq yoluna,
Çıxmışıq haqq yoluna.
Dünyadan sevinc damar,
Düşərsə haqq yoluna .

Bayatı nəfəsi ilə süslənmiş bu misralar unudulmaz şair Akif Məhərrəmovun söz boxçasından poetik bir nümunədir.

Akif Məhərrəmovun ədəbi yaradıcılığı istər forma, istərsə də məzmun baxımından zəngin və rəngarəngdir. Şairin əngin məna dərinliyi, zəngin forma genişliyinə malik olan ədəbi irsinin (ustadnamələr, divanilər, təcnislər, qoşmalar, cığalı qoşmalar, gəraylılar, qəzəllər, deyişmələr, dodaqqaçdılar, aforizmlər və s.) bir “rəngi”- bayatı örnəkləri fonunda düşüncələrimi bölüşmək istəyindəyəm.

Oğuz tayfalarının adı ilə bağlı və şifahi xalq şeirimizin ən çox yayılmış formlarından olan bayatı yazılı ədəbiyyatımızda Sarı Aşıq (XVII əsr) kimi bayatı yaradan şairlərlərdən üzü bəri çələng tək hörülməkdədir.

Görkəmli şair Molla Vəli Vidadi XVIII əsrdə bayatının el arasında geniş vüsət aldığına işarə edərək yazırdı:

Külli Qarabağın abi-həyatı

Nərmi-nazik bayatıdır, bayatı.

Lirik janra daxil olan bayatı məzmun və forma müstəqilliyinə malik olmaqla bütöv bir sistemdir. Bayatının bu cəhəti təbii ki, yaradıcıdan dərin təfəkkür, həssas ürək, sənətkarlıq və məharət tələb edir ki, bu keyfiyyətlər Akif Məhərrəmovun bayatılarında öz parlaqlığı ilə təzahür edir.

Əzizim, dərd boy atdı,
Uzandi dərd, boy atdı.
Sevincim təzə-tərdi,
Kədərim sərt, boyatdı .

Sevincinin "təzə-tər", kədərinin "boyat" olduğunu dilə gətirən, "Sən adını qoru, ömür Allahındır" aforizmi ilə özünün məslək, ədəbi sima formulasını müəyyənləşdirən **Akif Hüseynqulu oğlu Məhərrəmov** 1955-ci il yanvar ayının 26-da Qazax rayonunun Bəyazatlı kəndində (indiki Ağstafa rayonunun Yuxarı Göyçəli kəndi) anadan olub. 1972-ci ildə kəndlərindəki orta məktəbi, 1977-ci ildə Azərbaycan Politexnik İnstitutunu (indiki İnşaat Mühəndisləri Universiteti) bitirmişdir. Müxtəlif idarə və müəssisələrdə təmir- tikinti sahəsində usta, iş icraçısı, mühəndis və müdir qismində çalışıb. Sahibkarlıq fəaliyyətiylə məşğul olub. Akif Məhərrəmov 2009-cu il mart ayının 24-də dünyasını dəyişib.

Əzizim, kömür qalar,
Od yanar, kömür qalar.
Yaxşılar köçüb gedər,
Yenə də ömür qalar.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan şair ədəbi yaradıcılığa orta məktəb illərindən başlayıb ."Sən adını qoru, ömür

Allahındır”, “ Əzizim, yolum haqqa...”, “ Tale deyən bu dünyada nə var ki...”, “ Nə mən dünyadayam, nə dünya məndə”, “ Yaşadım, yazdım”, “Qonaq elə zamanına” kitabları işıq üzü görüb.

Dünyasını vaxtsız dəyişmiş şairin əziz xatirəsinə həsr olunmuş, anadan olmasının 55 illiyi münasibətilə övladları tərəfindən nəşrə hazırlanan “Sən adını qoru, ömür Allahındır” (2010) adlı kitaba ( tərtibçi redaktor: Rəfail İncəyurd, rəssam: Məmmməd Dəmirçioğlu) Akif Məhərrəmovun müxtəlif illərdə çap olunmuş kitablarından seçmələr daxil edilmişdir.

Bu kitaba mərhum şairin ilk kitabının -“Sən adını qoru, ömür Allahındır” (1999) adı verilmişdir.

Əzizinəm, kəsə nə,
Sözü söylə kəsə, nə....
İxtiyar yetişməsin,
Haqq sözünü kəsənə.

Akif Məhərrəmovun yaradıcılığı ovqat və mövzu aspektindən nə dərəcədə əlvandırsa, poetik fikir, hiss və düşüncələri də bir o qədər rəngarəng və səmimidir.

Şair ədəbiyyatımızda bayatı formasında yazan Sarı Aşıq, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlının yolunu öz bayatı çələngi ilə bəzəyir, bayatı naxışına öz ilmələrini vurur.

Əzizinəm, sev məni,
Ya öldür, ya sev məni.
Tanrı da bağıçlayır
Suç da etsə sevəni.

Akif Məhərrəmovun yaradıcılığında bayatının səciyyəvi əhəmiyyət kəsb etməsini önə çəkən professor Məhərrəm Qasımlı yazır: “Bayatı elə bir unikal şeir şəklidir ki, onu “yazmaq” omaz, xalqın təbirincə desək,

gərək "bayatını çəkəsən"-ah çəkən kimi! Gərək "bayatını çağırasan"-dada, imdada çağıran kimi! Görünür, el arasında filankəs "bayatı çəkdi", yaxud, " bayatı çağırdı" ifadəsini elə bu səbəbdən işlədirlər. Akif Məhərrəmovun baytıları da onun qələmindən yox, köksündən qopmuş bayatılardı. Məncə, bayatılaşmağın bundan başqa bir yolu yoxdur..."

Əzizim, başı qarlı,
Dağım var, başı dağlı.
Könlüm bir yurd yeridir,
Torpağı, daşı dağlı.

Obrazlı düşüncə, şeirlərinin bədii təsvir və ifadə əlvanlığı, zamanla səsləşən mövzuların seçimi və onların yüksək poetik vüsətlə işlənməsi, həqiqətən də onun yaradıcılığının sənətkar, vətəndaş məziyyətlərini təqdim etməklə yanaşı, parlaq istedadının təbii imkanlarını da üzə çıxarır

Əzizim, qara qaldı,
Dağ-daşım qara qaldı.
Vətənin əsirliyi,
Qəlbimdə yara qaldı.

Akif Məhərrəmovun istənilən bayatısı onun poetik istedadının aynasına çevrilir; dərin poetik ümumiləşdirmə bacarığı, obrazlı təfəkkür genişliyi, zəngin bədii-fəlsəfi məfkurəsi bu aynada aydınlığı ilə görünür.

Əzizim, eldən gələr,
Yaxşı ad eldən gələr.
Oğulu ana doğur,
Qeyrəti beldən gələr.

Yaxşı adın eldən gəlməsi (hər kəsi əməlləri müqabilində dəyərləndirmə), qeyrətli oğulun əsilə bağlı olması qənaətində olan şair "Ot kökü üstə bitər" el deyiminə dayaqlanır və başqa bir bayatıda bu fikri bir daha təsdiqləyir:

Əzizim, belə bağlı,
Kəməri belə bağlı.
Övladın qeyrəti də
Gəldiyi belə bağlı.

Akif Məhərrəmovun bayatılarında həyat və cəmiyyət haqqında fikir və hisslər obrazlı təfəkkürün məxsusi, özəl cizgiləri ilə təqdim olunur; vətən eşqi, məhəbət, gözəllik, təbiət tərənnüm edilir.

Mən aşıq, qoşa dağlar,
Gəlirsən xoşa, dağlar.
İlhamı səndən aldım,
Vermə्दim boşa, dağlar.

Şeiriyyətin nuruna boyandıqca duyğulana-duyğulana, Şərqin poeziya aləmində yüksək zirvələrdən birini fəth edən Saib Təbrizinin "Hər sözümüz od və suyun möhürüdür" deyimi yada düşür. İqtibas etdiyim bu fikrin təsdiqi elə A.Məhərrəmovun "yol" məfhumuna poetik baxışında da ehtiva olunur.

Əzizim,yoldu gedər,
Uzanar yoldu gedər.
Ömürdən tələs kam al,

Demə ki, boldu gedər.

Əzizim, yola sığmaz,
Yollar var yola sığmaz.
Mərd igid tayın tapsa,
Gücləri qola sığmaz.

Həssas sənətkar qəlbi ilə isinmiş, duyğulara bələnmiş, zəka ilə cilalanmış Akif Məhərrəmov poeziyasında tükənməz ümid, poetik işıq vardır. Bu işığın aydınlığında şairin müdriklik ehtiva edən bir nəsihətini-

"Tövsiyə"sini (övladlara) yada salaq:

"Sağlam, savadlı, ağıllı olmağın hər biriniz üçün vacib olduğunu unutmayın!!!

Ürəyiaçıq, dürüst, dostluğa etibarlı, zəhmətsevən olun ! Xeyirxahlıq etmək həmişə hörmət gətirər ."

Akif Məhərrəmovun bu tövsiyəsi əslində onun məslək kredosu, həyat amalı, yaşam tərzi və yaradıcılıq manifesti idi. Onun şair ömrü-bayatı sədası... bayatı çağırmağı-ömür yolu...

*yanvar, 2013*

# BÜTÖV AZƏRBAYCAN OLMALIYAM MƏN

*Dünya qulaq asır sözün səsinə*
***Məmməd Araz***

Bədii söz zamanın havasına köklənir. Elə bu həqiqətin işığındaca “Ana yurddan köç etmişəm, Vətən içimə köçübdü ...” deyən şairin poeziya havasında nəfəs dərmək sevdası varlığıma hakim kəsildi...

Vətəni özlərinə qiblə edən Vətən övladlarının qəriblik haryı kimi səslənən bu misralar “iç dünyası ilə gerçək dünyanın harmoniya və təzadlarından rişələnən yaşanmış duyğu və düşüncələrin poetik özünütəsdiqi olan “Bütöv Azərbaycan olmalıyam mən” kitabından götürülmüşdür. Ağılla hissin, idrakla həyacanın vəhdəini özündə ehtiva edən bu şeir kitabını oxuduqca, belə qənaətə gəlmək mümükündür ki, şair Eldar İsmayıl əvvəlki kitablarındakı kimi, bu dəfəki görüşündə də oxucu ilə “öz dilində ”danışır. Bu səbəbən də Eldar İsmayıl poeziya qayəsinin “ahənginə” müvazi ovqat- birgə haldan-hala düşmək aurası yaratmaqla “həmdəmini” ahənrüba cazibəsi ilə duyğulandıra bilir. Yəni şairin şeirləri onunla oxucu arasında könül ziyarətidir. Bu mənəvi körpü “Bağışla məni”, “Bu dünya dəyirman daşı”, “ Ucalt Türkün bayrağını” ,“Bu sevdada sənə sultan demişəm”, “Belə qızlar ər oğullar doğa bilməz” və poemalar (“Salam, doktor Əli”, “Dərdli dəvə”, ”Zirvələrdə bir qış günü yaşadıq”, “Bu kənd bizdən ayrı yaşaya bilməz” və “Uu Göyçə”) kompazisiyasında rəvan, səlis dillə təqdim olunur.

Eldar İsmayıl "Bu gecə başqa gecədir" adlı şeirində yazır:

Məni vahiməyə sala bilmədi
Qaranlıq gecənin qaranlıq pərdələri.
Nə dağı arana,
Aranı dağa daşıdım.
Səhərəcən şeirlərimlə yaşadım.
Sən demə qaranlıq gecə
İçimdə boğulubmuş.
Sən demə gecəni gündüz edən
Al günəş
İçimdə doğulubmuş.

Şair sözün-sözə təmasını görə bilir. "Gecəni gündüz edən al günəş"in nuruna bələnir. Bələnə-bələnə özü də işığa dönür. Bu mənada əsrarəngiz söz işığında söz -söz, misra-misra kövrələ-kövrələ "həmdəmini" kövrəldə, həzinləşə-həzinləşə həzinləşdirə, sərtləşə-sərtləşə sərtləşdirə, sevinə -sevinə sevindirə, ovuna -ovuna ovundura...bilən şairdir. Onun fitrətindəki səmimilik şeirlərinə də hopub. Elə ona görədir ki, son dərəcə səmimi və təbii deyimlərlə dolu olan şeirlər oxucu qəlbinin dərinliklərinə baş vura bilir.

Kükrədim bir tufan kimi,
İçimdən çölümə doğru .
Neçə fikir qanad çaldı,
Qəlbimdən dilimə doğu.

Şairin müxtəlif dövrlərdə, çeşidli movzularda yazdığı şeirlərin hissiyat qatlarında bir vəhdətlik maddiləşib. Bu, insanın bütün nəsnələr fövqündə olmasıdır. Milli özünüdərkin təcəssümüdür.

Bəs edər bu qədər parçalandığım,

Seçilə-seçilə uralandığım...
Yetər türklüyümdən aralandığım.
Bu eşqin, qüdrətin amalıyam mən.
Bütöv Azərbaycan olmalıyam mən!

Əlli milyon xalqın diləyi ilə,
Qeyrəti, vicdanı, ürəyi ilə ...
Tanrının xoşluğu, köməyi ilə
Özüm- öz qeydimə qalmalıyam mən.
Bütöv Azərbaycan olmalıyam mən!

Şairin "Bütöv Azərbaycan olmalıyam mən!" amalından əsrlərin o üzündən üzü bəri gələn oğuz ellərinin səsinə dinşək kəsilən söz pərvanəsinin qəlb ehtizazı, türklük qüruru boy verir. Boy verir ulu millətin ulu əzəməti ilə .

Eldar İsmayıl poeziyasında Vətən obrazının təbiət, ayrı-yrı coğrafi adlar, görkəmli şəxsiyyətlər, dahi sənətkarların obrazı ilə ifadəsi şairin poetik imkanlarının genişliyindən, ədəbi təcrübəsinin zənginliyindən xəbər verir.

Bu cəhət "Ulu Göyçə" etnoqrafik poemasında daha qabarıq nəzərə çarpır. Tarixlə müasirliyi qovuşduran şair böyük sənətkarlıqla Göyçə obrazını yaratmağa nail olmuşdur. "Ulu Göyçə" Azərbaycan obrazının coğrafi obrazlı ifadəsi baxımından da səciyyəvidir.

Ulu Göyçə -oğuzların baş evi,
Diş oğuzun qaya evi, daş evi,
Xaqanların yaylaq evi, qış evi.

Biz gəlincə bu hesabı unutma.
İlk sualı, son cavabı unutma .

Ulu Göyçə, saza od ver, köz saxala,

Mən gəlincə oğuzlardan iz saxla,
Bir ad deyim, dəftərinə yaz, saxla,
Millət ünlü bir ozandı bu Eldar!
Göyçə adlı dərd qazandı bu Eldar!

Vətənin dərdləri ilə ürəyi şan-şan olmuş şairin doğulub boya-başa çatdığı Göyçə mahalına müraciətində doğma yurd yerlərinə qayıtmaq inamı özünü göstərir. Bu fikir başqa şeirlərin də ruhuna hopub .Ancaq başqa bir ovqatda:

Dedilər səbir elə.
Aylarla-illərlə
Səbir elədim mən.
İndi öz səbrimə yazığım gəlir.
Dedilər qəbrini
Qazdır bu başdan...
Vətənsiz qəbrimə yazığım gəli.

Yurd həsrətindən kaman kimi sızlayan, ney kimi inləyən şair sanki sarı simdə “Dilqəmi”, “Göyçə gülü” tək tellənir, “Misri”, “Cəngi” üstündə köklənir, dolan bulud, çaxan şimşəyə dönür.

Səbri tükənən şair “Vətənsiz qəbrimə yazığım gəlir” deməklə, dünyasını dəyişən yurddaşların dünyadan nakam köçməsinə işarə edir. Bu ağrılar təkcə onun yox, bütövlükdə azəri türklərinin dərdidir. Bu mənada Azərbaycan bütövləşməlidir ; fərd-fərd və ölkə kimi. Şairi düşündürən psixoloji hallar da onu narahat etməyə bilməz. Mənəviyyat və əxlaq aşınmaları onu islama tapınan bir türk oğlu kimi qəzəbləndirir:

Özümüzü -özümüzdən ötürəli,
Yadellidən yad ənənə götürəli,
O abırı, o isməti itirəli,
Qara qəlbə nur yağışı yağa bilməz.

Belə qızlar ər oğullar doğa bilməz.

Qadın pakdı, ürəyində təpər olsa,
O, anadı eşqi-andı səhər olsa,
Zatı qırıq arvad olmaz, əgər olsa ...
Belə qızlar ər oğullar doğa bilməz!
Belə qızlar Koroğlular doğa bilməz!

“Bulaq gördüm, axar su tək duruldum “,-deyən Eldar İsmayıl bulanıq zamanda insanları durulmağa, saflığa səsləyir. Şairin milliliyi bəşəriliklə qovuşur. Bu qovuşmada milli dəyərlərin qorunması ön plandadır. Şairin sənət qayəsinin ünvanı özünü Bütöv Azərbaycanda tapır. Elə mənim məqsədim də Eldar İsmayıl şeirlərini təhlil etmək yox, onun “Bütöv Azərbaycan olmalıyam mən” amalının mayasını oxucuya nişan verməkdir.

“Bütöv Azərbaycan olmalıyammən” kitabı ilə baş-başa qalmağa dəyər.

*mart, 2005*

# ÜRƏK RİTMİ

*Bu xəlvət pərdəsini açan zaman əlbəəl,*
*Söz oldu bu cahanda cilvələnən ilk gözəl.*
***Nizami Gəncəvi***

"Şairlərdən danışarkən çox vaxt onları yaşa görə – yaşlı, orta və gənc nəsillərə bölərək, bununla müəyyən mənada onların yaradıcılıq ləyaqətlərini təyin edirlər. Məncə, bu bölgü sırf şərtidir. Mənə etiraz edib deyə bilərlər ki, sənətkarlığın yolu uzun illərin gərgin əməyindən keçir. Bu şəksizdir, lakin o da şəksizdir ki, yaradıcı insanın gərgin əməyi yalnız o vaxt uğur qazana bilər ki, bu əməyin mayasında istedad və şairanə xislət dursun."

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan Xalq şairi Rəsul Rzaya məxsus olan bu fikrin fonunda şair Mehman Hüseynoğlunun poeziya nuruna boyanmaq, poetik ovqatına qatılmaq istəyi ilə bu əsrarəngiz dünyaya üz tuturam.

Sevgi nədir, bilirsənmi?
Gəl, sənə sevmək öyrədim.
Gözündə yaş gülürsənmi?
Gəl, sənə sevmək öyrədim

**Mehman Hüseynoğlu** 1959-cu ildə Qərbi Azərbaycanda-Göyçə mahalında dünyaya göz açıb. Azərbaycan Texiki Universitetini bitirmişdir. Rabitə və informasiya

texnologiyları üzrə mütəxəssisdir. “Bu da bir dünyadır, sözə köklənib” və “Yaşadığım ömür mənim deyilmiş” kitabları işıq üzü görüb. Sözləri Mehman Hüseynoğluna məxsus olan neçə-neçə bəstələr dinləyici rəğbəti qazanmışdır.

Xatirələr dillənər,
Yada düşər gör nələr...
Könül baxçam güllənər,
Məhəbbət dil açanda.

Mehman Hüseynoğlunun poetik düşüncəsinin mayasını ümid, işıq təşkil edir. Onun sevgi duyğulu, həsrət yanğılı, vüsal töhfəli şeirlərinin məhvərindən boy verən lirik əhvali-ruhiyyə oxucu ovqatına sirayət edir və poeziya mehinin əsintiləri duyğulara sığal çəkir.

Nə xoş ətir saçdın, külək,
Yoxsa, yarım oyanıbmı?
Hicranına dözmür ürək,
Tellərini darayıbmı?

Ədəbiyyatın əzəli-əbədi mövzularından olan “sevgi”, poeziya dünyasının rövnəqi, bənzərsiz, əsrarəngiz ovqatıdır.

Ürək alışar, yanar,
Lal duyğular oyanar.
Axan çaylar dayanar,
Sən yanımda olanda.

Teoloji baxışlara görə, Tanrı dünyanı öz sevgisinin “marağına” yaradıb; sevə -sevə yaradıb. Dünyanın, kainatın nizamı sevgi üstündə qərar tutub. Yol getdiyin yerdə bir də baxıb görürsən ki, sərt “örtükdən” cücərti günəşə boy göstərmək istəyindədir. Bu, təbiətin sevgidən

doğan bir məqamıdır. Sevgi məqamına bağlanan poeziya da belədir.

Xəyalınla qaldım tək.
Şam kimi əriyərək..
Soldu əlimdə çiçək,
Harda qaldın, gəlmədin?

Ömrümün bəxt ulduzu,
Sən ey dağların qızı,
Yazıya yoxdur pozu,
Harda qaldın, gəlmədin?

Ürək silkələyən, duyğuları riqqətə gətirən poeziya...Poeziyası poetik həyəcanının, coşqulu ilhamının bəhrəsi olan Mehman Hüseynoğlunun şeiriyyət butasıdır sevgi movzusu. Duyğuların ənğınliyində fikrin üfüqlərini şəfəqləndirən bir buta.

Asta-asta yanar şam,
Pərvanəsi alar kam.
Həm pərvanə, həm də şam
Gecələr gözəl olur.

Bu bənddə tam canlı bir lövhə verilmişdir. Buradakı rəmzlər, poetik avaz ustalıqla seçilmişdir. Ona musiqi yazılsa da, yazılmasa da ahəngindəki ritmiklik valehedicidir.

M.Hüseynoğlunun poetik tərənnümü-şeirlərin çoxu öz-özlüyndə bir nəğmədir.

Əlimdə bir dəstə lalə,
Az qalıbdır gəlsin dilə.
Göz yaşını silə-silə
Lalələr səni gözləyir.

Könlü həzinliklə bəzənən, sözü, kəlməsi gözəllik gəzən şairin söz dəryasına baş vurduqca onun sevgi duyğuları ilə döyünən misralarının şehinə bələnirsən:

Ürəyimdə olub sənli,
Gülü dərdim şehli-şehli.
Gözüm qalıb indi nəmli,
Bu güllərin günahı nə?

Həsrətin ənginliyində bəxtiyarlıq ümidi ilə duyğulanan şair “Özüm dönüb sən oldum” deyir və oxucunu həsrət dənizinin dalğalarında üzdürür.

Yuxularım qarışdı,
Hicranım qara daşdı,
Ürək yandı, alışdı,
Sən yanımda olmadın.

Sənsiz gözü nəm oldum,
Qəmlərə Mehman oldum,
Özüm dönüb sən oldum,
Sən yanımda olmadın.

Zənnimcə, ehtizaz və vəcdin yetkin fikir və hisslərlə qovuşduğu bu poeziyada hər kəs öz hiss və həyacanlarını tapa bilir. Şeirlərdən doğan bu aura əzəli -əbədi sevginin ürəkdə oyatdığı sirli -sehrli duyğuların təntənəsidir; oxucu özünü, öz dünyasını görür... Bu isə poetik istedadın, püxtələşmiş şair qələminin bəhrəsidir.

“Həsrət ” şeirində olduğu kimi.

Yenə xəyallara dalıb,
Gözüm yollarında qalıb,
Arzular solub, saralıb,
Sənə görə, həsrət gülü.

Könlün yarasını sarı.
Uçur bu qəmli hasarı,
Bir yol mənə də bax barı,
Dünya görüm, həsrət gülü.

Mədəniyyət tariximizə paralq səhifə yazmış korifey sənətkar Üzeyir Hacıbəyovun “Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm...” fikrinə rəğmən, zənnimcə, Mehman Hüseynoğlunun poetik örnəkləri yetərincə sahmanlıdır.

Nəcib duyğular, ümumbəşəri hissləin hakim olduğu bu poeziya, yaradıcılıq şakəri sevgi dünyasına ünvanlanan şairin qəlb nəğmələridir desək, yanılmarıq. Ona görə ki, bədii lirizm tutumu dolğun olan bu qanadlı poeziya çələnginin müsiqi ehtizazı yaratmaq qüdrətində olan çalarları duyğulu, həssas bir ürəyin sanki ritmidir.

*20 .11. 2011*



## DİLİN YADDAŞINI OYANDIRAN NƏSR

*Düşüncənin əvvəli, bütün sayların sonu*
*Sözdür, yadında saxla, unutma əsla bunu.*
***Nizami Gəncəvi***

Məhərrəm Zamanın nəsri gerçək məzmuna uyuşmayan intonasiya və saxta romantik pafosun əhatəliyindən uzaq olmaqla əsasən real həyata, faktlara və tarixə dayaqlanan yazıçı təxəyyülünün məhsuludur. Ayrı-ayrı fərdlərin timsalında sosial gerçəkləri əks etdirən bu bədii örnəklərdə lirik-psixoloji təhkiyə tərzi daha qabarıqdır. Bədii fakt "virtual" olsa belə, özünü " vizual" şəkildə inikas etdirir, assosiasiya olunur.

Özünəməxsus yazı üslubu və dərin mühakimə qabiliyyətinə malik olan M.Zamanın nəsrinin dili morfoloji-sintaktik quruluş və leksik tərkib baxımından xalq dilinə, canlı danışıq dilinə çox yaxındır.

Məhərrəm Zaman (Məhərrəm Qəhrəman oğlu Zamanov) 1959-cu ildə Azərbaycanın xalqımıza neçə-neçə dühalar bəxş etmiş Naxçıvan torpağında-Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Maxta kənd orta məktəbini bitirmiş, bir neçə il kənd mədəniyyət evinin bədii rəhbəri vəzifəsində işləmiş, 1982- ci ildən isə Ukrayna Respublikasının Xarkov şəhərinə köçmüş və Xarkov İnşaat Mühəndislər İnstitutunu bitirmişdir. Qarabağ müharibəsi ilə əlaqədar vətənə qayıtmışdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşmüş və Qarabağ veteranıdır. “Vətəndaş naminə” və “İdeal demokratiya” qəzetlərində baş redaktor işləmiş Məhərrəm Zaman “Axirətdən dönmüş məhəbbət”, “Həqiqətin məkanı”, “Başsız meyit”, “Sonsuz erməni vandalizminin iç üzü”, “Süzgün baxışlar”, “Hava canavarı”, “Əfqanıstan şahini”,“Atici”,“Qalx...",“Qızılı saçlı”,“Manyak”,“Son zəng”, “Maxtali” və “Körpü”kitablarının müəllifidir.

Bu əsərlərin əksəriyyəti daxili dinamika və dramatizminə görə diqqət çəkir.Bu baxımdan “Maxtali”romanı xüsusilə fərqlənir.

Yeri gəlmişkən, qeyd edək ki, ədəbiyyatımızın nəsr müstəvisində romanın ədəbi janrlar arasında dominant rolu danılmaz bir həqiqətdir.

Pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov “Maxtalı” romanını “Tariximizi yaşadan əsər” tək təqdim edərək yazır ki, “Maxtalı” əslində tarixi romandır. Əsərdə cərəyan edən hadisələr XIX əsrdə baş vermiş ikinci Rus-İran müharibəsi və sonrakı dövrə aiddir.Əlbəttə, tarixi mövzuda əsər yazmaq heç də asan deyil. Bundan ötrü mənbələrlə tanış olmaq, ayrı-ayrı faktları milli ideologiyanı, dövlətçilik mənafeyi baxımından təhlil edib əsərə gətirmək vacib şərtlərdən biridir. Əsəri oxuduqca məlum olur ki, müəllif tarixi mənbələri araşdırmış, dövrün mənzərəsini yaradaraq, romanı daha oxunaqlı etmək, ciddi bədii əsər kimi mükəmmələşdirmək üçün tutarlı faktlarla zənginləşdirmişdir...Romanda Azərbaycan gəncliyinin milli qürur hissinin daha da inkişaf etdirilməsinə bir çağırış var. Müəllif tarixi ərazilərimizi, yer adlarımızı bir

daha diqqətə çatdırmaqla tarixi yaddaşımızı möhkəmlətməyə çalışır.

“Maxtalı” romanında müəyyən epizodlarda obrazların canlı danışıq dilində, dil-düşüncə qütbündəki ( dilimizin dialekt və şivələri əsasən coğrafi əlamətlərə - regiona görə təsnif olunub) zənginlikləri özündə ehtiva edən ləhcə ilə “danışdırılması“ təsvir olunan hadisənin daha inandırıcı boyalarla canlandırılmasına xidmət edir. Bu cəhətdən diqqət çəkən bir epizoda nəzər salaq: “ Hüsnü yuxudan hövlnak qalxaraq:

-Nədi, qız, dəlimi olufsan, niyə yatmersan? –deyə bacısı qızına acıqlanı.

-Dayı, dərdin alem, qalxız camaatı gedək, ürəyimə damıf burda qalsaq, nəsə olajax... Banugünel dayısına yalvarmaqda davam etdi:

-Qurban olom, dayı, gedək dayna, nolar?

-Ay qız, az danış, get gir yerinə, heç kim gələsi döyül. Lap gəlif nə qələt eyliyəjək, hamımız silahlıyıq.

Banugünel görəndə ki, dayısı onu eşitmək istəmir, özünü anasına çatdırdı.

-Ana, ay ana !- deyib, anasını səslədi.

Gülgəz xanım qızının ilk çağırışından oyandı. Onu narahat görüb çox sakit və müalyim halda soruşdu:

-Nədi, dərdin alem, noluf ?

- Ana, ayağının altda ölöm, dayıma de, burdan gedək dana, vallah, ürəyimə damıf, nəsə pis şey olajax.

Gülgəz xanım heç nə demədi, yerindən qalxıb onlardan bir az aralıda yatmış qardaşına yaxınlaşaraq:

-Hüsnü, eşidersənmi qız nə deyer, deer ki, burda qalmaq qorxuludur.

-Eee, siz də ana-bala lap başımı qazersınız ey, vallah. İndi nağayrax? Sənin qızının ürəyinnənmi oturuf-durom? Bajı, başına havamı gəlif? Nə olajax? Get yat, eşedersənmi? Özün də başımızın bəlası qızını da apar.

-Hüsnü, sən arvad tayfasının ürəyinin nə qədər həsas olduğunu biləmməzsən. O deyersə, nəsə olajax, demək, olajax. Mənim özüm də təhlükə hiss ederem. Bax, qardaş, biz arvad tayfası beləyik, həmişə hadisəni hiss etməyi bajarırıq. Ancaq siz kişilər biz arvadları eşitmersiniz.

-Ta denən ki, siz arvadlar hamınız münəccimsinizmiş ki, a bajı, başımıza xeyir, ayə, bizim də xavarımız olmuyuf. Dur, bajı, dur get yat, nədən xoflanıfsınız bilmerem, ancaq mən burda ola- ola ayıfdı ey, vallah, ayıfdı.

-Noolar, görəsən, qız deyersə, nəsə olajax, demək, olajax. Onda əlimdən qurtarmıyajan ha ...”

Bu səpkili epizodlar obrazların xarekterik cəhətlərini daha çılpaqlıqla əks etdirməklə, əsərin kolorit dolğunluğunu, tamlığını təmin etməkdə xüsusi əhəmiyyət kəsb edir.

Məhərrəm Zaman şifahi xalq ədəbiyatının folklor özəlliklərindən yararlanan, nağıl və dastanlarımızın təhkiyə üsuluna dayaqlanan təsvirlərlə obrazın yadda qalan “portret cizgilərini” oxucuya təqdim edir:

“Çalsaqqal nökər ağır-ağır belini düzəldib, qarşısında nəfəsindən öd püskürən, ən azından iki arşın yarıma yaxın boyu, üç dürsək enində kürəyi olan gəncin üzünə baxdı. Onun baxışları Maxtalının baxışları ilə toqquşan kimi çalsaqqal özünü saxalya bilmədi... “

Müəllif, qəhrəmanının-Maxtalının zahiri əzəmətini təsvir edərkən adı ilk dəfə “Kitabi-Dədə Qorqud”

dastanında rast gəlinən arxaik ölçü vahidlərindən - türk sözləri olan "arşın" və "dirsək" dən çox məharətlə istifadə edib. Məlumat üçün qeyd edək ki, insanın bədən üzvləri ilə ifadə olunan bu uzunluq ölçü vahidilərindən arşın-71 sm-ə, dirsək isə 50 sm-ə bərabər götürülür.

Onun dili canlı xalq ifadələri ilə dolu olduğundan təhkiyə üsulu improvizasiya, dil çalarları, kontekst və vurğu ilə"boyanır".

Şifahi xalq ədəbiyyatımızın incilərindən olan dastan və digər folklor mətnlərində müsbət qəhramanlrın ən çətin vaxtlarında, uzaq səfərlərində, döyüşlərdə, ümumiyyətlə, ata ehtiyac olan hallarda at onlara yardımçı olub. Bu barədə onlarla misal çəkmək olar: Ağ at (Ağ atlı oğlan), Qırat, Dürat (Koroğlu), Bozat (Qaçaq Nəbi)... Haqqında bəhs etdiyimiz romanın baş qəhramanı Hümbət də (Maxtalı) Qaşqalı adlı atın belində təsvir olunur. Elə roman bu süjetlə də başlayır: "1931-ci il. Yayın qorabişirən ayı idi . İsti, bürkülü havada onun ağ qaşqalı qara atı ildırım sürəti ilə şığıyırdı. Uzundərə dağlarının ətəyindəki yaşıl meşəliklər qoynundakı kəndlər bir-birinin ardınca arxada qalırdı. At o qədər sürətlə qaçırdı ki, onun arxa ayaqları qabaq ayaqlarından ən azı bir metr irəliyə atılırdı. Bir an içərisində atın ayaqları çarpazlaşır və atın özündən də çox açılırdı."

Bu epizodda Qaşqalının (atın adı sonradan məlum olacaq) adi at olmadığı, çaparın da iğid bir kəs olduğundan xəbər verir. Bu, yazıçının sənətkarlıq məharətini göstərən bədii faktdır. Bu, folklor poetikasının özəlliklərinə dayaqlanmaqla dilin yaddaşını oyandırmaqdır.

M.Zaman həyata yaratdığı obrazların içindən, personajların ğörüş prizmasından baxır. Öz düşüncəsini bu

baxış müstəvisində oxucuya çatdırır. Böyük ədəbiyyat reformatoru Floberin təbirincə desək: “Yazıçının öz əsərində iştirakı Allahın təbiətdə iştirakı kimi olmalıdı: hər yerdə var, ancaq gözə görünmür”.

Yazıçı, Hümbətin (Maxtalının) gözü ilə görür ki, “...aralıdakı meşəlikdən iki şahin havayıa qalxdı. Şahinlər yan-yana uçur, bir -birinə lap yaxınlaşır, dimdikləşir, sonra aralanıb təkrar yaxınlaşırdılar. Bu vaxt üçüncü şahin özünü onlara çatdırdı. O əvvəlki iki şahinlərin arasına girib onları yaxınlaşmağa qoymadı.

Hümbət şahinlərə baxıb insanlarla heyvanları müqayisə edərək, bütün canlılarda sevginin və paxıllığın eyni olduğunu düşündü .”

“Ядябиййатда юзцндян яввялкиляри тякрар етмядян, щеч кяся бянзямядян йени бир ъыьырла аддымлайыр йазычы.” Məhərrəm Zaman haqqında deyilən bu fikir Дярвиш Ъаванширə məxsusdur. Müqtədir şair, Məhərrəm Zamanın “Qalx...” povestinə bələdçilik edərək yazır: “ Ядябиййатда юзцндян яввялкиляри тякрар етмядян, щеч кяся бянзямядян йени бир ъыьырла аддымлайыр йазычы.

Ясярдя обйектив алямля, инсанын дахили субйектив алями бир-бириня сых ялагядя верилмишдир. Иътимаи мцщитля гящряман арасындакы тоггушмалар чох мцкяммял бир бядии кейфиййятля гялямя алынмышдыr.”

Texniki yüksəlişin sürətlə getdiyi bugünkü industrial dünyada Sözə bağlı bir ömür yaşayan Məhərrəm Zamanın dilin yaddaşını oyandıran nəsri haqqında dilin, ədəbiyyatın millətin taleyində oynadığı rolun fonunda söz açmaq istədim...

*05.01.2013*

**P.S.**

*...Qəzetlərin birində dərc edilən bu məqaləni oxumaq təəssüf ki, qələm dostumuz Məhərrəm Zamana nəsib olmadı. 9 yanvar 2013 cü il–onun həyata vida günü oldu...*



## EŞQİN ŞƏHİDİ

*O zamandan ki qələm yazdı, dürr saçdı.*
*Bu dünyanın gözünü ilk dəfə sözlə açdı.*

***Nizami Gəncəvi***

"…öz- özümdən soruşdum:- Bunlar hara gedir?

Bir səs:-Kərbəla,- dedi.

Şövqlənib arxalarına düşmək istədim.

O səs dedi:-Yaxşı düşün, bu yol asan olmayacaq.

Qorxdum.

Həmin səs dedi:-Küfəlilər də qorxmuşdu.Unutma ! Qorxanlar dostlarını tərk edirlər.

Bu dəfə utandım. Fikrim qarışdı, ürəyim bulandı.

O səs dedi:-Nə utan, nə də qorx! Anlamağa çalış! Gedənlər qalib gəldi.

-Yezid…- demək istədim.- O necə? -Hüseynin və yoldaşlarının qanını töküb taxtına daha da inamla oturmadımı?

-Səhv bilirsən,-dedi. -Aç bir dəfə də oxu və düşün; qazanan Yezid idi, yoxsa İmam Hüseyn ?

Məni maraq bürüdü. Bu dəfə necə oxuyacaqdım ?

-Kərbəla müsibətini adi cinayət əhvalatı sanma!-dedi.-Orada ana südü qədər ağ və pak olan bir səhifə də var. Orada qəhrəmanlar gah Əli oğlu Hüseyn idi, gah da Fatimə qızı Zeynəb.

-Heyhat!- deyib tələsik əlavə etdim.-Bilirik ki, Kərbəla haqqı axtarmağın və azadlığın dastanıdır. Səbrin, təslimiyyətin və müqəddəs amal uğrunda fədakarlığın əzəmətidir...

Bu iqtibas türk yazıçısı,Türkiyənin məşhur “Kurtlar vadisi” teleserialının ssenaristlərindən biri olan Əhməd Turqutun (Ahmet Turgut) müəllifi olduğu “Eşqin Şəhidi” (“Aşkın Şehidi”) romanındandır.

**Əhməd Turqut** 1975-ci ildə Malatyada doğulub. İstanbul Tekniki Üniversitetini bitirib. İxtisasca inşaat mühəndisidir.

Kərbəla hadisənin bədii üslubda təsvir edildiyi “Eşqin Şəhidi” (2012) romanının mütərcimliyi “İqra” qrupuna məxsusdur. Tərcümə, “Şəhid olanadək şərəfsizlərin üzərinə gedəcəyəm” deyən Milli Qəhrəman Şəhid **Mübariz İbrahimovun** əziz ruhuna ithaf olunub.

Qeyd edim ki, bu romanla tanışlığıma körpü salan, tərcüməçilərdən biri-**Rəşad İmanlı** (Çingiz həkimin təşəbbüsü ilə) oldu.

Bəri başdan deyim ki, əsər uğurlu tərcümə baxımından da təqdirəlayiqdir.

Mən, romanın bədii məziyyətləri barədə fikir söyləmək deyil, təsvir olunan tarixi hadisənin-Kərbəla vaqiəsinin bir daha xatırlanması istəyindəyəm. “İqra” “Eşqin Şəhidi” ni təqdir edərək yazır ki, kitabda İmam Hüseyn (ə)in ömrünün son günləri nəzərdən keçirilir və hadisələrə iştirakçıların gözü ilə baxılmağa çalışılır. Yazıçı öz bacarığını obrazların daxili aləminin açılmasında və hadisələrin fərd səviyyəsinə endirilməsində göstərir. İmam Cəfər Sadiqin (ə) “Hər yer Kərbəla, hər gün Aşura” sözünü bədii çalarlarla izah etməyə çalışan kitab bizləri islam aləminin

ən yaralı səhifələrindən olan bu hadisəyə yeni pəncərədən baxmağa və hər birimizi özünə görə nəsiblənməyə dəvət edir. Kərbəlaya axıtdığımız göz yaşları torpağa düşüb oranı diriltmirsə, deməli, biz o hadisələri başa düşməmişik. Bizim bu məktəbdən götürəcəyimiz dərs, sadəcə, Yezid və qoşunlarına qarşı deyil, bütün bəşəriyyət boyunca "yezidlərə"qarşı durmaqdır...

Bu hadisə bizə bir yoldur, göstərişdir, məqsəddir, amaldır, örnəkdir.

Məlumdur ki, Kərbəla hadisəsi 10 oktyabr 680-cı ildə (hicri:məhərrəm 61) indiki İraq ərazisində yerləşən və Kərbəla adlanan məntəqədə baş verib.

İmam Hüseyn (ə) islamiyyətin mərkəzi olan Məkkə və Mədinə şəhərlərində yaranan fitnə-fəsadlara göz yuma bilməyib azsaylı tərəfdarları (72 nəfər) ilə birlikdə Yezidin pozğun həyat tərzinə qarşı çıxır. Məkkədə olduğu və Kufə camaatının dəvətini alaraq yol tədarükü gördüyü günlərdə yaxın adamları ona bu işdən əl çəkməyi tövsiyə edirlər. Hətta qardaşı Məhəmməd Hənəfiyyə belə onun yanına gələrək deyir: "İndi ki, gedirsən, heç olmasa, uşaqlar və qadınları özünlə aparma". İmam Hüseyn (ə) ona tarixi bəyanatını verir və bununla əvvəlcədən şəhid olacağı məlum olur. İmam Hüseyn (ə) buyurur: "Şəhidlərlə şahidlər bir arada olmalıdırlar!"

Həqiqətən də əgər faciənin canlı şahidləri İmam Səccad (ə) və Həzrəti Zeynəb (ə) Kərbəlada olmasaydılar, orada baş verənlər olduğu kimi bizə gəlib-çatmaz, çatsa belə, sair tarixi hadisələr kimi təhrifə məruz qalardı.

Tarixi mənbələrdə göstərilir ki, İmam Hüseyn tərəfdarlarından bir neçə nəfər, xilafət ordusunun əsgərləri ilə söhbət etməyə başladılar. Onlar əsgərlərə eyni dindən

olduqlarını və qardaş qanı tökülməsin deyə, döyüşməmələrini istədilər. İmam Hüseynin özü də əsgərlər qarşısında çıxış etdi.

Hüseynin çıxışının təsirindən xilafət ordusunun məşhur sərkərdəsi Hür, İmam Hüseynin tərəfdarlarına qoşulmuşdu. Ömər bin Səd Hürün İmam Hüseynin tərəfinə keçməsindən ehtiyatlandı. Danışıqların davam edəcəyi halda, xilafət ordusunun bir çox sərkərdələrini İmam Hüseynin tərəfinə keçəcəyi ehtimal olunurdu. Bu səbəbdən danışıqlar yarımçıq dayandırıldı və Ömər bin Səd ilk oxun atılması göstərişini verdi. Bununla da Kərbəla döyüşü başladı.

Beləcə, Məhərrəm ayının 10-cü günü İmam Hüseyn (ə) azsaylı silahdaşları ilə birlikdə faciəli şəkildə şəhid edilir. Şəhidlərin paltarları bədənlərindən çıxarılıb atların ayaqları altında dəlik-deşik edilir. Başları bədənlərindən ayrılaraq əzizlərinin gözləri önündə nizələrə keçirilir, şəhərbəşəhər dolandırılaraq Şam şəhərinə, Yezidin sarayına gətirilir. Peyğəmbər (s.ə.s) övladları ağlasığmaz faciə ilə qarşılaşırlar, amma bu onların əzmini əsla sındırmır. Düşmən qarşısında öz qürur və mətanətliyini qoruyub-saxlaya bilirlər. Həzrəti Zeynəbin (ə) və İmam Səccadın yol boyu, xüsusilə də İbn Ziyadın sarayında etdikləri alovlu çıxışlar bunun ən bariz nümunəsidir.

Bəs Kərbəla hadisəsindən əsrlər keçməsinə baxmayaraq insan qəlbində onun əbədi yaşamasının sirri nədir? Bu möcüzədir ki, hər il Məhərrəm ayı xüsusi ilə Tasua və Aşura günlərində İmam Hüseyn aşiqləri və Onun məhəbbətini ürəklərdə yaşadanlar dünyanın hər güşəsində Kərbəla vaqiəsini sanki bir daha canlandıraraq o tarixi yenidən təkrarlayırlar. Bəs nə üçün görən İmam Hüseynin

şəhadət xatirəsinin canlı tablosu tarixi və zamanın axarında heç zərrə qədər də unutqanlıq tozuna batmamasıdır? Bu hadisənin əbədi və unudulmaz olmasının sirri bir baxımdan İmam Hüseynin haqq olmasıdır. İmamın düşmənlərinin və qarşısındakı cinayətkarların amansızlığı, vəhşiliyi artıq o dərəcəyə çatmışdır ki, Onun körpə südəmər övladına belə rəhm etmədilər. Onlar körpə Əli Əsğərin susuzluqdan inləyərək ağlamasına zəhərli oxla cavab verərək, onun boğazını kəsdilər, xeymədəki susuz qadınlar və körpələrə Fəratdan su gətirərkən Həzrət Əbülfəzl Abbasın qollarını kəsərək qələm etdilər və bununla özlərinin son dərəcə vəhşiliyini və kin - küdurətlərini bir daha nümayiş etdirdilər. Düşmənlər məzlum İmamı vəhşicəsinə və qəddarlıqla şəhadətə yetirdikdən sonra da onların ürəkləri soyumadı. Onlar İmamın cəsədini atların dırnaqları altında tapdalayaraq tikə -tikə etdilər...

O zalımlər məsum İmamın Əhli–beytinin üzərindəki qiymətli əşyaları qarət edərək onların libaslarını cırıb təhqir edici şəkildə əsir alaraq Kufə və Şamın küçə-bazarlarında dolandırdılar. Şəhid İmamın bacısı Zeynəbi və onunla qalan digər Əhli –beyt üzvlərini guya “xarici”, “dindən çıxmışlar” kimi camaata qələmə verməyə çalışdılar və beləliklə, əllərindən gələn hər bir alçaqlıq və şərəfsizlik oyunu nümayiş etdirdilər. Məgər bundan da artıq dəhşətli müsibət və məzlumiyyətləri təsəvvür etmək mümkündürmü? Beləliklə, İmam Hüseynin və Onun Əhli –beytinin haqq -ədalət carçısı olmaqla yanaşı, həmçinin onların müsibəti, məzlumiyyəti və düşmənlərin son dərəcə vəhşi, amansız və qəddarlığı məhz bu qanlı Kərbəla faciəsinin yaşamasına səbəb oldu.

Ölüm qorxusu İmamın qəlbinə zərrə qədər yol tapa bilmədi. Düşmənin hədə - qorxuları Onun polad iradəsini qıra bilmədi. O müqəddəs din yolunda məslək, amal və hədəfi uğrunda, Allahın əmrini yerinə yetirərək şəhadətə çatdı və son nəticədə isə cəsədi düşmən atlarının dırnaqları altda tapdalandı, kəsilmiş mübarək başı işrət məclisində dolandırıldı. Təbiidir ki, hadisənin bu cür baş verməsi onun tarixdə əbədi yaşamasına səbəb oldu. Peyğəmbər zamanına yaxın olan bu vaxtda, necə oldu ki, Onun ehsan və yaxşılığı müqabilində bu zülm və sitəmə yol verdilər .

Onlar məgər bilmirdilər ki, Peyğəmbər buyurub: "Hüseyn Məndəndir Mən də Hüseyndən"? Bilmirdilərmi, Şuara surəsində Allahın iman gətirən və saleh əməl edən bəndələrinə verdiyi müjdə budur: "Ya Məhəmməd de: Bunun əvəzində sizdən mənim qohumlarıma məhəbbətdən başqa bir şey istəmirəm." Peyğəmbərin (s) risalətinin əvəzində Allah–təala bizdən nə istəmişdir? Quranda göstərildiyi kimi Peyğəmbər (s) bu əzəmətdə ilahi risaləti yerinə yetirməkdə, Allahın əmri ilə Onun Əhli –beytinə məhəbbətdən başqa heç bir şey istəməmişdir. Ancaq nə fayda...Peyğəmbər vəfat etdikdən sonra Əhli –beytə qarşı amansız düşmənçiliklərin əsası qoyuldu. Peyğəmbərin 23 il ərzində çəkdiyi əzab - əziyyətlərin haqqını Onun Əhli – beytinin qanına susamaqla verdilər. İnsanların xislətində olan məqampərəstlik, cəhalət, qəflət və nadanlıq kimi hisslər insanları ən aşağı dərəcələrə aparıb çıxartdı. Peyğəmbərin vəfatından sonra Əhli–beyt düşmənləri Müaviyəni və oğlu Yezidi Peyğəmbərin həqiqi canişini kimi tanıtdırdılar.

Əhli–beytə rəva görülən zülmü yazmaqla qurtarmaz. Çünki hər yerdə və hər zaman iman ilə nəfsin nümayəndələri mübarizədədirlər. Nə qədər ki nəfsin səltənətini iman fəth etməyib hər yer Kərbəla və hər gün Aşura olacaq. Bu gün də Aşura, bu gün də Kərbəladır. İndi də Kərbəlayilər və Yezidlər üz –üzədir.

Kərbəla hadisəsinin özəlliyi onun haqq davası olmasıdır .

İmam Hüseyn özü mübarizə başlayanda belə buyurur: - Allah bilir ki, mən fəsad törətmək üçün, qarışıqlıq salmaq üçün və yaxud da hansısa mövqə və məqama çatmaq üçün bu mübarizəni başlamıram. Mən cəddim peyğəmbırin ümmətini islah etmək üçün, xalqı doğru yola yönəltmək üçün bu müharibəni başlayıram. İmam bu müharibəyə başladı və böyük fədakarlıq nümunəsi göstərdi.

Kərbəla hadisəsi təkcə İslam ümməti üçün deyil, haqq və ədalət mübarizəsi aparan qeyri-müsəlman xalqlar üçün də örnək olub. Bu gün Aşura günü Hindistanda rəsmi tətildir. Bunun səbəbi Hindistanın milli azadlıq hərəkatının liderlərindən olan Mahatma Qandinin öz mübarizəsində İmam Hüseyn məktəbindən ilhamlanmasıdır.

Kərbəla hadisəsinin xatırlanması ilahi fitrəti korşa-lmamış hər bir insanın qəlbini riqqətə gətirir. Dürüst deyimdir ki, Eşq elə bir atəşdir ki, ürəyə düşən kimi sevdiyindən başqa hər şeyi yandırar…

*noyabr, 2012*

# TARİXİ HƏQİQƏTLƏRLƏ ÜZ-ÜZƏ

*Qələmin müqəddəs vəzifəsi- millətin*
*xoşbəxtliyi yolunda xidmət gösərməkdir.*

**Cəlil Məmmədquluzadə**

Qorusan Vətəndi, qorumasan kəfən... Neçə illər öncə - ötən əsrdə yazmışdım, Yeni əsrdə Azərbaycanın Böyük Fərəhini yaşamaq arzusu ilə... Təəssüf ki, Böyük Qələbənin sevincini yaşamadıq...

Müqəddəs dərdindən doğma torpağın,
İçimdə yandıqca tapındım sözə.
Öpüb Vətənimin qanlı bayrağın,
Tapdanan haqqımla durdum üz-üzə.

Döyüş meydanında qısa qılınclar,
İgidlər əlində uzun görünər.
Qeyrət polad kimi əyilməz, "sınar"...
Sərkərdə qüdrətin görəndə əsgər.

Titrətdi qəlbimi cəsur komandir:
- Yoxdursa əlimdə zəfər bayrağı,
Kəfəndir əynimə geydiyim mundir,
Tapdaq altındasa Vətən torpağı...

İşğal olunmuş torpaqlarımızın zəfər çağırışından, yanğısından süslənən bu şeirim məhrəm bir məsləkdə alim - pedaqoq, idmançı, yazıçı-publisist, qələm dostumuz Dilqəm Quliyevin «Qorusan vətəndi, qorumasan kəfən»

adlı məqaləsi ilə söz-sözə tapınır və ovunur. Bu şeir parçası ilə müvazi olaraq professorun məqaləsini yada salmağım heç də əbəs yerə deyil.

Səbəb-oxunduğum kontekstdə, Етибар Гулийев, Айтян Quliyeva və Дилгям Гулийевin müştərək müəllifliyi ilə tarixi həqiqətlərə işıq tutan “Азярбайъан вя Анадолу тцркляриня гаршы сойгырıм”(“Тякнур”, 2012.) kitabının gərəkliyini, aktuallığını şərtləndirən mahiyyətdir.

Danılmaz bir həqiqətdir ki, ermənilər tarix boyu Qarabağ xülyası ilə yaşamış və bir neçə dəfə soydaşlarımızı kütləvi şəkildə qətlə yetirmişlər. Amma çox təəssüf ki, həmin hadisələr ötən əsrin əvvəlində baş versə də bizlər bu hadisələri unudaraq heç nə olmamış kimi hər şeyi unutmuşduq və ya həmin hadisələr bizlərə unutdurulmuşdu. Hətta həmin illərdə şəhid olmuş həmvətənlərimizin dəfn olunduqları xiyabanı belə tamamilə məhv etmişdik.

Nəticə isə göz qabağındadır. Həmin hadisələr eyni ilə, bəlkə, ondan da faciəli şəkildə yenə də təkrarlandı...

Азярбайъан МЕА А.А.Бакыханов адына Тарих Институтунун “Азярбайъанлыларын депортасийасы вя сойгырымы тарихи” шюбяси (23 ийун 2008 - ъи ил, 5 сайлы протокол) вя Азярбайъан ДБТИА-нын елми шурасынın ( 25 декабр 2008-ъи ил, 2 сайлы протокол) ряйilə işıq üzü görən “Азярбайъан вя Анадолу тцркляриня гаршы сойгырıм” kitabının elmi redaktorluğu тарих елмляри üzrə fəlsəfə doktoru, профессор Ъяби Бящрамов, redaktorluğu isə Исфяндийар Ялийевə məxsusdur. Nəşrin гяйчиляри: тарих елмляри üzrə fəlsəfə doktoru Исрафил Мяммядов və тарих елм-

ляри üzrə fəlsəfə doktoru Елмар Мящяррямовdur.

Kitabda ермянилярин Азярбайъан халгына гаршы дяфялярля тюрядилмиш вя узун иллярдян бяри юз сийаси-щцгуги гиймятини алмамыш сойгырым, депортасийа сийасяти, çар Русийасынын Гафгаз сийасяти вя Шимали Азярбайъанын ишьалы, Тцркийя вя Гафгаз тцркляриня гаршы ясрляр бойу апарылмыш амансыз сойгырым факты, Азярбайъан Халг Ъцмщурийяти щюкумятинин 1918-ъи илин августунда йарадылмыш Фювгяладя Тядгигат Комиссийасынын тяртиб етдийи 36 ъилдлик материаллар, Ъянуби Азярбайъанда азярбайъанлыларын сойгырымы (1917-1920), Азярбайъан Ордусунун йаранма тарихи, Азярбайъанын дювлят мцстягиллийинин бярпасы вя башга тарихи щадисяляр юз яксини тапмышдыр.

Kitab yeddi fəsildən ibarətdir:

**Ы фясил:** Азярбайъан Республикасы (гыса тарихи очерк).

**ЫЫ. фясил:** Чар Русийасынын Гафгаз сийасяти вя Шимали Азярбайъанын ишьалы ;

Ы Пйотрун рус халгына "Вясиййятнамяси" вя онун ясас мащиййяти ;

Ы-ЫЫ Русийа-Иран мцбарибяляри (1804-1813, 1826-1828) ; Кцрякчай (1805), Эцлцстан (1813) вя Тцркмянчай (1828) мцгавилялярин имзаланмасы вя онларын нятиъяляри ;

ХЫХ-ХХ ясрин яввялиндя Шимали Азярбайъанда чаризмин азярбайъанлылара гаршы депортасийа вя етник тямизлямя сийасяти ;

**ЫЫЫ фясил:** Азярбайъан Халг

Ъцмщурийййятинин (АХЪ) йаранмасы вя азярбайъанлыларын сойгырымы мясяляляри дювлят сянядляриндя;

Азярбайъан Халг Ъцмщурийййяти (АХЪ) (1918-1920) ; 31 март1918-ил Шимали Азярбайъанда азярбайъанлыларын сойгырымы (1918-1920) ;

Ъяnуби Азярбайъанда азярбайъанлыларын сойгырымы (1917-1920) ;

Азярбайъан Халг Ъцмщурийййяти Ордусунун йаранмасы вя онун хиласкарлыг миссийасı.

**ЫВ фясил:** Совет Русийасынын щярби тяъавцзц нятиъясиндя Азярбайъан Халг Ъцмщурийййятинин сцгутундан сонра азярбайъанлыларын сойгырымынын давам етдирилмяси ;

1920-1953-ъц иллярдя Совет щакимийййятинин антиазярбайъан сийасяти вя онун аьыр нятиъяляри ;

1950-1990-ъы иллярдя Совет щакимийййятинин Азярбайъан етник сийасяти .

**В фясил:** Азярбайъанын дювлят мцстягиллийинин бярпасы вя азярбайъанлыларын сойгырымы мясяляляри Азярбайъан Республикасынын дювлят сянядляриндя;

Ермянистан-Азярбайъан, Даьлыг Гарабаь мцнагишясинин башланмасы вя азярбайъанлылара гаршы сойгырымы сийасяти. Ермянистанда гярби азярбайъанлылара гаршы депортасийа, етник тямизлямя вя сойгырымы сийасятi;

Азярбайъан Республикасынын Дювлят Мцстягиллийинин Бярпасы Щаггында Бяйаннамя ;

Хоъалы сойгырымы;

Шуша, Лачын, Кялбяъяр, Аьдам, Хоъавянд, Ъябра-

йыл, Фцзули, Губадлы вя Зянэилан районларынын ишьалы вя Ермянистан ордусунун динъ ящалийя гаршы тюрятдийи сойгырымы;

18 декабр 1997-ъи ил тарихли "1948-1953-ъц иллярдя азярбайъанлыларын Ермянистан ССР яразисиндяки тарихи-етник торпагларындан кцтляви сурятдя депортасийасы щаггында "Азярбайъан Республикасы Президентинин фярманы ;

Азярбайъан Республикасы Президентинин "Азяр-байъанлыларын сойгырымы щаггында" 26 март 1998-ъи ил фярманы;

Азярбайъан Республикасынын Президенти Илщам Ялийевин 31 Март Азярбайъанлыларын сойгырымы эцнц мцнасибятиля Азярбайъан халгына мцраъияти ;

Хоъалы сойгырымынын 15 иллийи иля ялагядар Азярбайъан Республикасы Милли Мяълисинин Бяйанаты;

Азярбайъан Республикасы Инсан Щцгуглары Цзря Мц-вяккилинин (Омбудсманын) 31 март азярбайъанлыларын сойгырымы эцнц мцнасибятиля Бяйанаты .

ВЫ фясил: ХЫХ ясрин сону вя ХХ ясрин яввялиндя Османлы Тцркийяси, бюйцк дювлятлярин хариъи сийасяти щаггында гондарма "ермяни"мясяляси ;

"Şeyx Əbubalının Osman bəyə (TürkSultanına) vəsiyyəti. (sənədlər);

Türkiyədə erməni üsyanları ;

XIXəsrinaxırı,XXəsrin əvvəllərindəOsmanlı Türkiyəsinə qarşıböyük dövlətlərin xarici siyasətində erməni məsələsi;

**ВЫЫ фясил:** ЫI Dünya müharbəsinin başlanması və Antanta dövlətlərinin Türkiyə siyasətində erməni

məsələsi;

Qafqazın işğalı ;

Mudros sülhü dövrü;

Türk istiqlal müharibəsində türk-erməni münasibətləri;

Sevr sülh müqaviləsi;

Lozanna sülh müqaviləsi ;

Ermənilərin türklərə qarşı etdikləri xəyanətlər və törətdikləri cinayətlər;

Müasir türk–erməni münasibətləri.

Kitabda erməni qəsbkarlığı tarixi faktlarla nəzərimizə çtdırılır:

**YADDA SAXLA !**

Qoy bütün dünya görsün, bütün bəşəriyyət şahid olsun erməni təcavüzünə, erməni qəsbkarlığına...

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş şəhər və rayonları:

**1918-ci ildə** Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9 min kv.km.

**1920-ci ildə** ADR-i işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göycə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən Borçalı (Gürcüstan Sovet Sosialist Respublikası) – birlikdə sahəsi təxm. 27.4 min kv.km.

**1920-1991-ci** illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – 86,6 min

kv.km.

Azərbaycanın **1988-1994-cü illərdə** işğal edilmiş ərazi-ləri (cəmi: 13,110 kv.km. keçmiş Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrud). İşğal tarixi – **1988-1994-cü illər**. 274 yaşayış məntəqəsi, sahəsi 4400 kv.km.

**Laçın** – (17 may 1992-ci il) – 1835 kv.km., 120 yaşayış məntəqəsi, əhalisi 30000 nəfər;

**Kəlbəcər** – (3-4 aprel 1993-cü il) – 1936 kv.km, 120 yaşayış məntəqəsi, əhalisi 50000 nəfər;

**Ağdam** – (23 iyul 1993-cü il) – 1094 kv.km. 83 yaşayış məntəqəsi, əhalisi 150000 nəfər;

**Cəbrayıl** – (18 avqust 1993-cü il) – 1050 kv.km., 76 yaşayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Füzuli** – (23 avqust 1993-cü il) – 1386 kv.km., 62 ya-şayış məntəqəsi, əhalisi 110000 nəfər;

**Qubadlı** – (31 avqust 1993-cü il) – 802 kv.km., 94 ya-şayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Zəngilan** – (29 oktyabr 1993-cü il) – 707 kv.km., 81 yaşayış məntəqəsi, əhalisi 60000 nəfər;

**Naxçıvan MR** – (1991-ci il) – 1 yaşayış məntəqəsi.

Ermənistanın Azərbaycana təcavüzü xalqımızı olduqca ağır itkilərə məruz qoymuşdur. 20 faizdən çox torpağımız işğal olunmuş, 900 mindən çox yaşayış məntəqəsi, 4366 sosial obyekt, 1145 məktəbəqədər müəssisə və uşaq bağ-çası, 1831 kino qurğusu, 982 kitabxana, 862 klub, 690 məktəb, 556 ambulatoriya və tibb məntəqəsi, 76 aptek, 10 doğum evi, 10 poliklinika, 13 muzey, 4 texnikum, 1 ali məktəb, 300-ə qədər idman qurğusu və s. yerlərя yeksan edilmişdir.

Maddi və mənəvi abidələrlə bərabər yeraltı və yerüstü

sərvətlərimiz də düşmən tərəfindən talan edilmişdir. İşğal olunmuş Azərbaycan ərazisində 44 məbəd (türbə, mədrəsə, sərdabə), 31 məscid, 2 mağara-ibadətgah, 13 qala-bürc, 22 kurqan-təpələr, mağara abidələri, 8 körpü, 9 saray, imarət, hamam və karvansara kompleksi, 2 bulaq-abidə, 4 qızıl mədəni, 3 civə mədəni, 2 qranit, 2 mərmər, 4 daş karxanası və 5 müxtəlif tikinti materialları yataqları, mineral su mənbələri – istisu və 2 dövlət qoruğu ermənilər tərəfindən dağıdılmışdır.

4852 soydaşımız əsir düşüb: onlardan 54-ü uşaq, 323-ü qadın, 410-u qocadır:

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 4852 Azərbaycan vətəndaşı müqayisə zonasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Məlumata görə, onlardan 54-ü uşaq, 323-ü qadın, 410-u qocadır. 1988-2005-ci illərdə 1368 Azərbaycan vətəndaşı erməni əsirliyindən azad edilib. Bunlardan 169 nəfəri uşaq, 338 nəfəri qadın, 286 nəfəri qocalardır.

Təkzibolunmaz faktlar göstərir ki, itkin düşmüş 4852 vətəndaşdan ən azı 783 nəfəri ermənilər tərəfindən əsir, yaxud girov götürülmüş, lakin bu faktlar beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilib. Onlardan 18 nəfəri uşaq, 46 nəfəri qadın, 69 nəfəri qocadır. Həmin şəxslərin siyahısı erməni əsirliyindən qayıtmış vətəndaşlarımızın və digər mənbələrin şahid ifadələri əsasında tərtib edilib.

Azərbaycanın Böyük Qələbəsi inamı ilə ...

*02.02.2013*

## DİDƏRGİN PİRANİ

*Hər sözümüz od və suyun möhürüdür .*
***Saib Təbrizi***

Ömrünün piranəlik çağında qismətinə didərginlik düşən Vəli kişi geniş dünyanın "daraldığını" görəndə, ruhu dara çəkilib və ovunmaq, təsəlli aramaq üçün təşnə halətlə üz tutub ulu sözə.Yaşantılarını, duyğularını misralara köçürür. Tişə diliylə dinirir çay daşlarını, incəldir sərt qəmbəri. Axı sözlə, tişə ilə gör neçə vaxtdır ki, ülfət bağlayıb. İlham pərisi gənclik illərindən həmdəmi, sirdaşı olub. Gözünə-könlünə köçən gözəlliklərdən vəcdə gələndə heyətini nizamlı sözlə-şeirlə ifadə edib. Əsrlərin o üzündən üzü bəri gələn söz sərraflarının, tarix yazan müdrik tarixi şəxsiyyətlərimizin səsinə dinşək kəsilib və onların işıqlı simalarnı sevə-sevə həkk edib daşların üzərinə. Beləcə, söz-söz, misra-misra kövrələn bir insan sərt daşları da kövrəldib.

Bu həssas, duyğulu insan haqqında eşidib-biləndə onunla ünsiyyətdə olmaq, yaradıcılığı ilə tanış olmaq sevdasına düşdüm. Bu arzumun gerçəkləşməsinə körpü salan isə dostluq münasibətimiz olan **Hafiz Məhəmmədəli oğlu Tahirov** oldu. Onu da qeyd edim ki, əmək fəaliyyəti

təhsil sahəsi ilə bağlı olan Hafiz müəllim ədəbiyyatımızın, mədəniyyətimizin təəssübkeşi olan ziyalılarmızdandır.

Söz dünyası əbədiyaşar şairimiz Səməd Vurğunun belə bir bəndi var:

Kim bilir neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır?
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən - nəslə bir yadigardır.

Unudulmaz şairin bu qanadlı misralarının ehtiva etdiyi tendensiyanın, fikrin işığında Vəli kişi və onun mənəvi dünyası ilə Sizləri də tanış etməyi özümə mənəvi bir borc saydım.

**Zülfüqarov Vəli Xanlar oğlu** 1928- ci ildə Füzuli şəhərində dünyaya göz açıb. II Dünya müharibəsinin ağrı-acıları ilə müşayiət olunan uşaqlıq illəri nə qədər qayğılı, böz illəri olsa da böyüyüb boya -başa çatdığı Füzulinin hər qarış torpağı və orada keçirdiyi günlər, aylar, illər onun üçün müqəddəs və əzizdir.

On iki yaşından zəhmətə qatlaşıb. Çətinliklərdən bezib -usamayıb, həyatın sərt sınaqları qarşısında əyilməyib, sınmayıb. Rayon təsərrüfatıında hesabdar işləyib. Uzun müddət sürücülüklə məşğul olub. Qızbəs Hüseynova ilə ailə həyatı quraraq ev-eşik, oğul- uşaq sahibi olub. İxtisasca pedaqoq olan Qızbəs xanım ən çətin vaxtlarında ona ürək-dirək verib. Əl işlərinə, söz sənətinə ehtiramla yanaşır.

1994-cü ildən İmişli rayonu Bəhramtəpə Fin qəsəbəsində məskunlaşıb.Vəli kişi doğma Füzulidən ayrılığı dərdlərinin dərdi sayır və bu nisgilə son qoyacaq günü – qayıdışı ümidlə gözləyir...

Vəli kişi ilk baxışda xaraktercə sərt və qaraqabaq görünür. (Bəlkə də, belə deil. Hər halda, məndə belə təəssürat yarandı). Bu fikir onunla kəlmə kəsənəcən, həmsöhbət olana qədər qüvvədədir. Sonradan, Vəli kişini dinlədikə bu "sərtlik", "qaraqabaqlıq" onun çöhrəsində əriyib gedir. Onun batindən boy verən ədəb nuru simasında, sözündə özünü büruzə verir, həlim təbiət ilkin zahiri görüntünü büsbütün dəyişir. Axı söz əhli, sənət adamı başqa cür ola da bilməz...Belə insanlar incə ruhlu olduğu kimi dünyanı, həyatı da gözəl görmək istəyindədirlər. Təəssüflər ki, çox vaxt istəklə taleyin oyunları, həyatın təzadlı gerçəklikləri üst-üstə düşmür. Elə Vəli kişiyə də təzadlı görüntü gətirən, için-için göynədən bir üzü tunc, bir üzü ipək dünyanın təbəddülatlarıdır.

Sözdə təsəlli arayan Vəli kişinin dünyanın peykər və idbarı arasında poetik vurnuxmaları belə bir ovqatda yazdığım şeiri yada saldı:

Dünyanın gözünə dikdim gözümü,
Diksindim, tanıdım özüm-özümü.
Düyanın izünə qatdım izimi,
Min illərn səsi dedi sözümü...

...Vəli Zülfüqarov öz şeirlərindən söyləyə-söləyə "əl işlərini" qarşımızda sərgilədikcə ötən günləri xatırlayır. O günlər ki, Füzuli şəhəri ilə, doğma ocaqla bağlıdır.

Söhbət etdikcə xəyalən o xoşbət çağlara qayıdır. Bu ovqatı onun gözlərindən sezmək o qədər də müşkül deyil.

...Birdən məhzun gözlərini məchul bir nöqtəyə dikib sözünü yarımçıq qoyur. Bu vaxt ömür-gün yoldaşı Qızbəs xanım sanki onun fikirlərini oxuyurmuş kimi söhbəti davam etdirir. Daş lövhəciklər üzərində oyma üsulla

işlənmiş portretlərin məziyyələrindən danışır...Bu məqamda " şehli sətirlər" yaddaşımda yarpaqlanır:

Daşda göyərib -bitən,
Heç də deyil daşla tən .
Zərif- sərtlik əridən,
Sözə döndü heyrərətim .

Deyirlər ki, dərd gələndə batmanl gəlir. Heyrətini söz çələnginə çevirən Vəli Zülfüqarovun torpaq itkisi ilə yanıb-yaxıldığı ona bəs deyilmiş kimi, övlad itkisi də ata ürəyini dağladı. Atasının adını daşıyan öğlu Xanlar cavan ikən dünyasını dəyişdi. Qızı Aybəniz və tibb universitetinin tələbəsi olan nəvəsi Nərgiz faciəli surətdə həlak oldular. Didərgin atanın ovlad itkisi... İlhi, ata ney kimi inləməsin, neyləsin?.. Bu ağrı-acılardan göyüm-göyüm göynəyən sinəsi dağlı ata yenə üzünü sözə tutdu, ağı demək üçün. Sızlaya- sızlaya oğlu Xanlara layla çaldı:

Oğul cənazəsi, atanın çiyni...
Ürəkdə bu dağın çiskini, çəni.
Dilim də söz tutmur "dindirim" səni,
Dilimin söhbəti Xanlarım, lay-lay...

Təpədən- dırnağa qəmə böyandım,
Dərdimin odunda alışıb yandım.
Mən sənsiz özümü kimsəsiz sandım,
Qolumun qüvvəti Xanlarım, lay-lay...

Bağrıma basmışam indi əksini,
Qoxumaq istərəm gül nəfəsini .
Eşitmək istərəm, oğul, səsini...
Evimin şöhrəti Xanlarım, lay-lay...

Vəli Zülfüqarovun əlyazmaları arasında diqqət çəkən, bədii cəhətdən dolğun, aşıq poeziyasının ruhu duyulan çoxlu qoşma, gəraylı, təcnisləri vardır. Müxtəlif illərdə yazılmış bu şeirləri yazılma ovqatına görə iki yerə bölmək olar. Füzulili–doğma ocağında, Füzulisiz-didərginlik dövründə yazdığı şeirlər. Şeirlərin dili rəvan və səlisdir. Fikir canlı danışıq dilində ifadə olunduğundan təbiilik və səmimilik bu şeirləri əvvəldən axıradək müşayiət edir və oxunaqlı, bədii təsir gücünə malikdir.

Gənclik illərində yazdığı "Deməmiş olum " gəraylısını oxuyarkən sanki söhbətləşirsən...

V.Zülfüqarov "Olmaz" şeirində insan adının ülviliyini önə çəkir, xeyirlə şərin mübarizəsinin əbədi olduğunu söyləyir və belə qənaətə gəlir: "Düzün əyri ilə söhbəti olmaz".

Müəllif insanları insan adına yaraşmayan naqis sifətlərdən uzaq olmağa çağırır. Ulularımızdan bizə mənəvi nemət kimi qalan mənəvi dəyərləri uca tutmağa səsləyir. Nəsihət dolu bu şeirdə xalq yaradıcılığının, xüsusən dastanlarımızda söylənilən ustadnamə müdrikliyinin ehtiva etdiyi təlqinlərin ruhu duyulur.

Demə qüvvətliyəm, zorum var, qağa,
Ehtiyacım yoxdur arxa-dayağa.
Qocalıb düşərsən bir gün ayağa,
Gözünün, dizinin taqəti olmaz.

Baharın yol eylər payıza, qışa,
Gün gələr ömrünü vurarsan başa.
Adını yazarlar mərmərə -daşa,
Düşün ki, adının hörməti olmaz.

Vətən həsrətiylə alışıb-yanan, “Didərgin olmaqdan nə var ki, betər?” -deyən V.Zülfüqarov “Vətən oğulları, qalxın ayağa “ şeirində hər birimizi Vətənin əsgəri olaraq yağı tapdağında olan əsir torpalarımızı erməni işğalçılarından azad etməyə, zəfər yürüşünə səslıəyir:

Qarabağ yaralı, qan verir yara,
Dağları, düzləri geyinib qara.
İtirə-itirə gedirik hara ?..
Vətən oğulları, qalxın ayağa!

İgid oğulların qoy nərəsindən,
Ərən qüdrəttindən, zəfər səsindən
Düşsün vahiməyə, titrəsin düşmən.
Vətən oğulları, qalxın ayağa.

Vəli kişinin şeirləri diqqət çəkdiyi kimi, xatirələri də maraqlıdır.

Onun “Xatirə dəftəri”ni vərəqləyirəm. Ömrünün bəyaz və boz illəri sanki dil açır. Bir-birini əvəz edən acılı-şirinli sevinclii-kədərli, qayğılı- qayğısız günlərin ovqatı hopub bu xatirələrin sətirlərinə. “Göyçə səfərim” başlıqlı xatirə-yazı daha çox çəkir məni.

Qədim Oğuz torpağı olan, yurddaşları yurd yerlərindən mənfur ermənilər tərəfindən zaman-zaman (1918-1920, 19-48-1952, 1988-1989-cu illərdə) sıxışdırılaraq çıxarılmış, deportasiyaya məruz qalmış, qovulmuş Qərbi Azərbaycan adlandırdığımız məmləkətin bir mahalı olan Göyçə...

...Qarşımdakı çay daşlarına baxıram. Adi çay daşı-qəmbər; amma nə vaxtsa adi çy daşları olubdu bunlar. Çayın axarında əsrlərlə yuyulub cilalanmış bu çay daşlarına Vəli kişinin ürəyinin hərarəti, əllərinin sığalı,

zehninin qüdrəti köçəndən isə “ilkinlikdən” çıxaraq sənət əsərinə çevrilibdir. Təsviri sənətin portret janrı, tişə ilə işlənmiş sənət əsəri. Sayı qirxdan artıqdır. Əksəriyyəti də klassiklərimizin, ədəbi simalarımızın portretləridir.

Maraqlıdır ki. Vəli kişi bu sənət nümunələrini heç bir xüsusi hazırlıq, təlim keçmədən özünün fəhmiylə hazırlayıb. Bu qəmbər-portretlərdə əsasən qrafik cizgilərin, ümumi formaların, plastikliyin vəhdəti obrazın açılmasında başlıca amildir. Məlumdur ki, sənətin əsas xüsusiyyəti, onu başqa məfkurələrdən ayıran əsas cəhəti obrazlılıqdır. Bu baxımdan sənət əsərində varlıq və hadisələrin sadəcə olaraq passiv fotosu çəkilmir. Burada hadisədə sənətkarın münasibəti də ifadə olunur. Yaradıcının daxili aləmi, hissi və fikirləri yartdığı sənət əsərində hardasa öz əksini tapır. Görünür, bu cəhətdəndir ki, söz əhli olan V.Zülfüqarov mövzu olaraq daha çox ədiblərimizin portretinə üstünlk vermişdir.

Onu da deym ki, bu daş portretləri almaq üçün əcnəbi ölkələrdən olan müştərilər dət apılmışdır.Bir neçə dəfə onun yaşdığı ünvanda olmuşlar. Amma Vəli kişi özünün əl işlərini, bu mənəvi sərvəti maddi təminatdan üstün tutaraq onları məyus etmişdir. Zənnimcə, bu sənət əsərləri–portretlər mədəniyyətimizn təsviri-sənəti olaraq mütəxəssislər tərəfindən araşdırılmalı, aidiyyatı qurumların təşəbbüs və dəstəyi ilə sərgilərə çıxarılmalıdır.

Axı bu da bizim sabahkı tarximizdir. Mədəniyyətə, tarixə biganə qalmaq isə ən azı gələcək nəsilləri mənəvi bir sərvətdən məhrum etmək deməkdir.

Mənim məqsədim isə bu yazıda V. Zülfüqarovun şeirlərini təhlil etmək, təsviri sənət sahəsindəki əl işləri haqqında rəy söyləmək yox, onun poetik dünyası, sənət aləmini nişan verməkdir.

*15.09.2006*

# “MƏNİM SAZLI-SÖZLÜ DÜNYAM”LA TANIŞLIQ

*Söz vardır kəsdirir başı,*
*Söz vardır kəsər savaşı.*
***Şah İsmayıl Xətai***

Saz və söz! Hər biri heyrət məqamıdır. Hər biri ruhumuzun aynası, duyğularımızın tərcümanı, aqillərin “ dili”dir. Bu iki məqam ayrı-ayrılıqda və vəhdətdə gözəlliyin dərkidir.O gözəllik ki, orada Böyük Yaradanın dərki var.

Əzəli tək niyyətdir,
“Ol” günündən heyrətdir,
Yaradana beyətdir,
Misralanan ulu söz.

O söz ki, poetik qüdrətindən, çeşidli məna qatlarının hikmətindən mənəvi dünyamızda üzümüzə-gözümüzə nur, özümüzə -sözümüzə hürr gətirib.

Səcdə etdiyimiz Mütləq Yaradan,
Söz ilə dünyanı var etdi yoxdan.
Sözün cazibəsi ayrılmır ruhdan,
Əzəldə xəlq olan ilk mələklərdir.

Əkilən torpaq tək söz də göyərər,
Toxunma sözə ki, Tanrı diksinər,
İlahi sevgiylə söz əzizlənər,
Sevgilər beşiyi saf ürəklərdir.

Ruhumdan pərvəriş tapan bu əsintilərin xəfifliyində Dədə Qorqud mirası sazla bağlı bir şeirim yaddaşımda yarpaqlanır:

Ana laylası tək saz zümzüməsi,
Şah pərdə üstündə kövrəkdən kövrək.
Sehrkar, ovsunlu bu məhrəm səsi,
Dinlədim qəlbimin əks-sədasıtək.

Sazın sinəsinə dolanan tellər
Dinəndə eylədi sinəmi tel-tel.
Aşıqlar sazıyla göstərib hünər,
Sazı sinəsində gəzdikcə el-el.

Hər dəfə çıxanda qara köynəkdən
Uzaq əsrlərin yaddaşı dinir.
Qurbani, Ələsgər çalır ürəkdən,
Qorqud qopuzundan gəldikcə hənir...

Dədə Qorqud qopuzunun, "hənirində", işartısında "Misri" üstə köklənib ovqatım. Əsrləri, qərinələri adlayıb gələn Dədə Qorqud qopuzunun. Dədə Ələsgər sazının sehrli səsinə dinşək kəsilmişəm sanki. Təzadlı bir aurada dünyanın gözlənilməz təbəddülatları ilə üz-üzə göz-gözəyəm.

Aşıq Hacı Göyçəlinin "Mənim sazlı-sözlü dünyam" kitabını vərəqlədikcə bir daha onunla ilk görüşümüzü–tanışlığımızı göz önünə gətirirəm. Şair dostum Firudin Qəmbəin qardaşı Saleh müəllimin yas məclisi ilə əlaqədar olaraq Şəmkir rayonunun Çənlibel kəndinə getmişdim; məclisdə Daşkənd kəndindən olan Aşıq Hacı ilə tanış olduq.

Qeyd edim ki, Qərbi Azərbaycandan pələsəng edilmiş soydaşlarımızın bir qismi Çənlibel kəndində məskunlaşıb-dır.

...Başsağlığı verib məclisdən çıxandn sonra , Aşıq Hacı iə xeyli söhbətləşdik; qocaman aşıq "Mənim sazlı-sözlü dünyam" kitabını mənə hədiyyə etdi. Kitabın araya-ərsəyə gəlməsində rolu olan həmyerlisi Lətif Əsədov haqqında ürək dolusu danışdı. Onun insanpərvər, elinin –obasının xeyir- şərinə yarıyan bir ziyalı, xeyirxah bir insan olduğunu bildirən aşıq, Bakıya qayıdandan sonra onula görüşməyimi tovsiyə etdi...

Düşünürəm ki, Aşıq Hacı və onun müəllifi olduğu "Mənim sazlı-sözlü dünyam" kitabı Lətif müəllimlə tanışlığımıza bir körpü oldu.

Kitabda Göyçə aşıq məktəbinin layiqli davamçısı, on beşdən artıq dastan bilicisi Aşıq Hacı Göyçəlinin şeirləri, bayatıları, lətifələri və dastanları toplanmışdır. Eləcə də Aşıq Hacı sənətinə həsr olunmuş tanınmış söz adamlarının

şeirləri öz əksini tapmışdır.Kitaba şair dostumuz Alqayıtın "Xoş təsadüf " və "Sənətkar ömrü " yazıları bələdçilik edir. Alqayıtın "Mənim sazlı-sözlü dünyam"la bağlı bələdçi -düşüncələrini ədəbi zövqümə məhrəm olaraq, bir daha yazı yaşantısını məqbul hesab edərək yazıma əlavə edirəm. Fikrimcə, "Mənim sazlı-sözlü dünya"a bu ən yaxşı bələdçidir.

"Sənətkar ömrü"ndə Aşıq Hacı Göyçəlinin yaradıcılığı, sənəti Aşıq Ələsgər deyiminə üz tutmaqla səciyyələnir:

Aşıq olub tərki vətən olanın,
Əzəl başdan pür kamalı gərəkdi.

Şifahi xalq ədəbiyyatı adından məlum olduğu kimi bir xalqın keçmişini, adət-ənənələrini, məhəbbət, qəhrəmanlıq dastanlarını gələcək nəsillərə çatdıran zəngin bir xəzinədir. Bu xəzinəyə soykənmədən özünüdərk mümkün deyil. "Kitabi -DədəQorqud" boyları min illərin ağız ədəbiyatına çevrilmiş, bayatıların, qoşmaların, gəraylıların, təcnis və divanilərin yaranmasına səbəb olmuşdur. Dədə Qorqud ozan idi O, xalqı deymləri ilə birliyə, dostluğa, torpağa bağlılığa,Vətən keşiyində mətin dayanmağa səsləyirdi. Əvvəli üçtelli qopuzumuz doqquz telli sazla əvəz olundu. Ozan sözü aşıq sözü ilə əvəz olundu. Aşıqlar da iki yerə bölündü:ifaçı aşıqlar, yaradıcı aşıqlar.

Göyçə aşıq məktəbi Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin şəxsində inkişaf yoluna qədəm qoydu.

-Göyçəni Azərbaycanın hər yerində tanıyırlar desəm, səhv etmərəm. Sovet İttifaqı dağılana qədər yaz-yay aylarında Azərbaycanın 15-20 rayonunun mal- qoyun sürürləri, elatın özü bizim yaşadığımız yaylaqlara,"İstisu"ya, "Dəlidağ"a, "Sarı yer"ə, "Ala

göllər"ə köçüb gələrdilər. Yaylağa dincəlməyə gələn camaat, ferma işçiləri toylarını, nişanlarını burada keçirər, Göyçə mahalından, Kəlbəcərdən adlı-sanlı aşıqlar, çalğıçılar dəvət olunardı.

Çal-çağırlı günlər üç ay davam edərdi .Aşıq Hacı həmin toyların əksəriyyətində də iştirak edər, gündən -günə ad -san qazanardı. O, həm ifaçı, həm də yaradıcı aşıqdır. Təmiz səsə, rəvan nitqə, dərin folklor biliyinə malik olan bu sənətkar Bakıya, Şəkiyə, Qarabağ toylarına, Borçalı ellərinə dəvət olunardı.

Göyçə mahalının Qanlı kəndində yaşayan ustad Aşıq Mehdidən, Bala Məzrəli gözəl ifaçı Aşıq Hüseyndən sənət dərsi alan Aşıq Hacı tez bir zamanda tanınmağa başladı.

İndi ömrünün yetmiş yeddinci baharını yaşayan Aşıq Hacı-Aşıq İslam ,Aşıq Nuriddin Qaraqoyunlu, Aşıq Səlim kimi şagirdlərə ustadlıq etdi.

Onların hər üçü hal- hazırda məclislərə dəvət olunur. Ustadına şöhrət qazandırırlar.

...Sənət məbədi dağıdıldı, tarixi abidələrimiz yerlə-yeksan oldu, amma zaman telli sazı əlimizdən ala bilmədi.

Aşıq Hacı Şəmkirə -Çənlibelə pənah gətirdi. Vətən itirmək ağır dərddir. Qaçqınlığın, köçkünlüyün qurbanı olan, həsrətə dözməyib neçə kövrək şeirləri özü ilə aparan İsmixan Didərgin yazırdı:

Cənnət olsa qürbət oba, yad diyar,
Könlümə öz eli –obası xoşdur.

...Hərəmiz bir yerə səpələnmişik. Elə bil Aşıq Hacının sazındakı tellər, pərdələr dolaşıq düşüb, boğazındakı şaqraq zəngulə kövrəkləşib, həzinləşib...

Beləcə, Aşıq Hacı Göyçəlinin "Mənim sazlı-sözlü dünyam"la baş-başa qalmaqla, onun sazlı-sözlü

dünyasının yazı şəklinin görüntüsündə sazla sözün heyrət sığalında duyğulana-duyğulana duyğusal bir ovqata qatılrsan...

*18.09.2008*

# BU SƏS MƏNƏ TANIŞ GƏLİR

*...mövcud xalq havalarının hamısı bilistisna dəstgahların pərdələrindən götürülmüşdür; deməli, dəstgah pərdələri xaricində bir dənə də olsa mahnı tapmaq olmaz...*

***Üzeyir Hacıbəyov***

Poetik fikir kəhkəşanında bərq vuran sözə -bayatıya üz tutulub səs işığında. Nüvəsinə nisğil hopmuş bayatı sədalanır şikəstə üstə:

... Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Kədər notları üstündə köklənən, ağrı-acılardan "qabarlanan" misraları ovxarlayır yanğılı səsiylə Zahid müəllim. Səs çəkir "Qarabağ şikəstəsi" ilə...

Xanəndənin improvizator ifası sanki harmonik olaraq bizi "özünün" ovqatına kökləyir. Cövhərində xalq ruhu olan "Qarabağ şikəstəsi" tək.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan şifahi ənənəli professional musiqisində vokal-instrumental janr sayılan zərbi muğamların nümunələri olan "Heyratı", "Mənsuriyyə", "Səmayi-Şəms", "Maani", "Ovşarı", "Arazbarı", "Heydəri", "Şirvan şikəstəsi", "Kəsmə şikəstə" və "Qarabağ şikəstəsi" muğam ifaçılığı təcrübəsində geniş yayılmışdır.

Musiqisində həzinlik hakim kəsilmiş, mətnini baytılar təşkil edən ”Qarabağ şikəstəsi” məlumdur ki, XIX əsrdə zərbi muğam kimi geniş təşəkkül tapmışdır.

Bu sətirləri yazmağa məni sövq edən tarzən-xanəndə Zahid Ağayevin “Qarabağ” adlı kompakt-diskiylə (Bakı, STS MMC, 2011) bağlı təəssüratımdır.

Qarabağsız “Qarabağ şikəstəsi” məhz belə assosiasiylar axını doğurmalıdır. İllah da oxuyan özü Qarabağlı ola.

14 mart 1951-ci ildə Füzuli rayonunun Şıxlı kəndində dünyaya göz açmış **Zahid Novruz oğlu Ağayev** ailənin ilk övladıdır. Tanınmış, sevilən müğənni Manaf Ağayev isə sonbeşikdir. Dayısı Əliqarabalanın ürəyəyatımlı səsi və oxumağa böyük həvəsi olub . Bəlkə də, o səs işartısının genetik ahənrüba cazibəsiidi ki, Zahid müəllimBakı 1saylı Tibb Texnikumunu bitirsə də, onun ömür yolunu məzunu olduğu Incəsənət İnstitutu (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) müəyyənləşdirdi.

30 ildən artıqdır ki, Seyid Şuşinski adına Füzuli Musiqi Məktəbində pedaqoji fəaliyyətlə məşğul olan Z.Ağayev tanınmış xanəndələrdən İslam Rzayev, Süleyman Abdullayev, Sabir Mirzəyev və digərlərini tarzən qismində müşayiət edib.

Kompakt-diskə daxil edilmiş “Naçar gedər” (sözləri Nəbi Xəzri, musiqisi Bəhram Nəsibov), “Baxdın maral kimi” (sözləri Tofiq Mütəllibov, musiqisi Əlibaba Məmmədov), “Qarabağ şikəstəsi”, “Ay sevgilim” (sözləri və musiqisi Razim Paşayev), ”Segah təsnifi”, “Meyvələrdən üç meyvə var” (xalq mahnısı); sözləri və musiqisi Bəhram Nəsibova məxsus olan “Qarabağ ” və “Gözlərin”adlı ifaçılıq örnəkləri Zahid Ağayevin müsiqi

sevərlərə, muğampərəstlərə nəğmə çələngi, musiqi töhfəsidir.

Diskdə, uzun illər mahnıları xalq mahnısı və müxtəlif təsnif adı altında təqdim edilmiş şair, bəstəkar Bəhram Nəsibova məxsus bəstələr üstünlük təşkil edir.

Təbii ki, bu da səbəbsiz deyil. Görünür, bu rəğbət Vətən müqəddəsliyinin dünyaya göz açdığın yurddan, eldən, obadan başlanması məsləkindən qaynaqlanır.

Bəhram Nəsibov Füzuli rayonunun Aşağı Rəfədinli kəndində dünyaya (1942) göz açıb. O, 1993-cü ildə Füzuli rayonunun işğalından bir necə gün sonra beyninə qan sızaraq 5 il xəstə yatmış və Füzuli nisgili ilə bu dünyadan köç etmişdir (1998). Şeirləri, bəstələri isə ürəkləri fəth etməkdə, ruhumuzu oxşamaqdadır. Bu həqiqətlə bir daha Zahid müəllimin büllur səsinin cilvəsi, duyğusu fonunda baş- başayıq. Xalqın mənəvi dəyəri tək.

Zahid müəllim tarzən olaraq tarı ehtizaza gətirən sarı simi necə dindirirsə, xanəndə olaraq da səsinin məlahətiylə, zəngulə və özünəməxsus səs gəzişmələriylə dinləyicini duyğuları ülviləşdirən heyranlıqla üz-üzə qoyur. Başqa sözlə Zahid müəllimin xanəndəni müşayiət etmə texnikasının tələblərinə cavab verən tarzən olması xanəndəliyi ilə müvazidir.

Zahid Ağayevi dinlədikcə mənəvi cəhətdən dincəlir və sanki yeddi əsas lad-səs şəlaləsinin ahəngində duyğulana-duyğulana durulursan.

Bu səsdə eli birliyə çağırmaqvar.

Zahid müəllimin ifasının aurasında mənə elə gəldi ki, bu məlahətli səs “Segah”a köklənmişdir. Çünki onun yapışıqlı səs tembri (hiss-həyacanın əzəmət, vüqar, kədər, yanğı, hüzn, nisğil, sevgi...ifadəsi) dinləyicidə bədii-ruhi

təsir cəhətdən məhəbbət hissi oyadır. Bu cəhət onun mənəvi dünyasının, yanğılı ürəyinin səsinə sirayəti və muğamları xüsusi bir şövq və məhəbbətlə oxumasından qaynaqlanır. Yəni o, nə oxuyursa, məhəbbətlə oxuyur. Elə "Segah"da da məhəbbət hissi daha çılğın, qəlbləri riqqətə gətirəndir. Əbəs yerə deyildir ki, ustad xanəndə, Süleyman Abdullayev onu "bala Süleyman" adlandırır. (Onların səs bənzərliyi heyrətamizdir.)

Xatırladaq ki, dörd şöbədən: "Mayeyi-Segah", "Şikəsteyi-fars", "Mübərriqə", "Əraq" -ibarət olan "Segah" bir-neçə variantdadır: "Zabul-Segah", "Mirzə Hüseyn segahı", "Orta Segah" və " Xaric Segah". Onu da qeyd edək ki, Azərbaycanın musiqi tarixində "Segah" muğamının təkrarsızifaçısı, xalq tərəfindən "Segah İslam"adlandırılmış ustad-xanəndə İslam Abdullayevdir (1876-1964) .

Uzaq keçmişdən süzülüb gələn bu sehrli səslər: "Rast", "Şur", "Segah", "Şüştər", "Çahargah", "Bayatı- Şiraz" və "Hümayun" (yeddi əsas muğam) Azərbaycan musiqisinin əsasını, özəyini təşkil edir ki, milli mənlik şüuru dərinləşdirə bilmək qüdrətinə malik olmaqla misilsiz mənəvi nemətdir. Əbəs yerə deyilmir ki, muğamlar ömrümüzün əbədiyyət nəğməsidir. O nəğmə ki, dinlədikcə düşünürsən: bu səs mənə tanış gəlir. İlahi nidası, həqiqətin sədası tək ruhumuza hopduqca..."Bu səs mənə tanış gəlir" adlı şeirimdə yazdığım kimi:

Səs ilahi nidasıdır,
Həqiqətin sədasıdır,
Ruhumuzun qidasıdır…
Bu səs mənə tanış gəlir.

Qavalın qurd dərisimi?
Alım səndən qoy dərsimi,
Qaytar mənə öz səsimi...
Bu səs mənə tanış gəlir.

“Çahargah”da həyacanım,
Damarımda coşur qanım.
Göz önündə dağ-aranım...
Bu səs mənə tanış gəlir.

“Bayatı-Şiraz”–qəm səsim,
İtirib kimi kimsəsin.
Dağlı sinələr dinləsin…
Bu səs mənə tanış gəlir.

“Şüştər”imdə dərin kədər,
Oxu, boğur məni qəhər.
Çəkilən ah getməz hədər…
Bu səs mənə tanış gəlir.

"Humayun"da kədər gəzir,
Dərdlə ürək oldu canbir.
Ay oxuyan, nədir bu sirr?
Bu səs mənə tanış gəlir.

"Segah"ımda məhəbbət var,
Duyğularım sığallanar.
Qənşərimdə mələk durar,
Bu səs mənə tanış gəlir.

"Rast"da mərdlik əhvalı var,
Dilləndikcə simlərdə tar.
Zirvələnib səs ucalar,
Bu səs mənə tanış gəlir.

"Şur" şən ovqat sədasıdır,
Ürəklərin sevdasıdır.
Ruhum səslə doyasıdır…
Bu səs mənə tanış gəlir.

Səs selində yüngülləşdim,
Artdı qəlbdə Tanrı eşqim.
Bəlkə, səslə izə düşdüm…
Bu səs mənə tanış gəlir.

*noyabr, 2011*

## TAPDIQ ƏLİBƏYLİNİN HƏQİQƏT NAĞILI

*Şeirin xüsusi dəyəri və imtiyazı var: baxın, bəşərin taqədimdən mədəni anlayışı şeirdir... Hünərin başqa formalarında bunu az görürük. Şeirin dili, ifasıçox qədim və tarixidir. Bu göstərir ki, bəşərin lap əvvəldən şeirə ehtiyacı olub .*

***Seyid Əli Xamenei***

Çağdaş ədəbiyyatımızın poeziya rəngarəngliyində öz poetik çaları, oriyinal deyim tərzi, fəlsəfi fikir zənginliyi olan şair-publisist, məslək və qələm dostum Tapdıq Əlibəylinin həyat yolunun 50 illik zaman məsafəsində, yubilyar haqqında düşünçələrimi özünün qələminindən hasil olan şeiriyyətlə bağlı bir qənaətlə başlamaq istəyirəm:

“Əsrlərin o üzündən üzü bəri əsrarəngiz nizamlı söz – şeir duyğularımıza ayna tutub, ruhumuzun təsəllisinə, iç dünyamızın həmdəminə dönüb.Poetik ovqata qatılanlar mənən saflaşıb, misraların axarında durula-durula bir üzü tunc, bir üzü ipək dünyamızın gerçəkliklərini poetik süzgəcdən keçirərək, “məndə mənini” arayıb. Mənəviyyat dünyamızın tükənməz enerji mənbəyi olan sözün işiğında yol gəliblər və yol gedirik sözün heyrətinə bələnə-bələnə.”

Ağarır dan yeri, sevinir aləm,
Sübhün işığında dupduru şəbnəm,
Əyildim toxunam, şehə bürünəm,
Ayna tək əks etdi əksimi damla.

Tapdıq Əlibəyli sözü əzəldə xəlq olan ilk mələk məqamında görür.O məqam ki, teoloji baxışlara görə, Yaranış Yaradanın "Ol" sözündən var olub. Beləcə, şair yazır:

Səcdə etdiyimiz Mütləq Yaradan,
Söz ilə dünyanı var etdi yoxdan.
Sözün cazibəsi ayrılmır ruhdan,
Əzəldə xəlq olan ilk mələklərdir.

Əkilən torpaq tək söz də göyərər,
Toxunma sözə ki,Tanrı diksinər,
İlahi sevgiylə söz əzizlənər,
Sevgilər beşiyi saf ürəklərdir.

Əkilən torpaq tək sözü göyərən şair sözün cazibəsiylə yazır: "Mənəvi dünyamızın aynası, ruhumuzun tərcümanı sayılan poetik sözün sehri haqqında klassik və çağdaş söz sənətkarları tərəfindən dəyərli fikirlər söylənib. Şübhəsiz ki, gələcəkdə də mahiyyəti ehtiva edən müxtəlif çalarda fikirlər olacaqdır. Çünki söz dünyasının işığına üz tutan söz pərvanəsinin özü də işığa dönür. İşıq isə hamıya bəlli olan həyat ünsürlərindən biridir. Bu əzəli-əbədi həqiqəti dərk edən, sözə könül verən söz ziyarətçisi kimi sözə üz tutmağın ilkinliyi haradan və necə başlayır? Şeirin əzəli təcəllisi hansı qaynaqdan intişar edir?-suallarına özüm-özümlə söhbətdə cavab aramağa çalışmışam...Bir bənddə dediyim kimi:

Şeir heyrət məqamı,
Azad ruhun bir kamı.
Dadanda ki bu tamı,
Sözə döndü heyrətim.

Gözəlliyin önündə
Dil susub, qəlb dinəndə,
Qələmimin dilində
Sözə döndü heyrətim.

Heyrəti "sözə dönə" Tapdıq Əlibəylinin söz dünyasına bələd olduqca, onun heyrət məqamında azad ruhun kam aldığı, poezya havasını udduqca şeiriyyət tamını daddığını duydum .

Tapdıq Əlibəyli, publisistik örnəkləririndən olan **"Həqiqət nağılım"**da yazır: "Böyüklərin zaman-zaman araya -ərsəyə gətirdikləri nağıllar sirli-sehrli qüvvəsi ilə daha çox uşaqları özünə ahənrüba kimi çəkib, ağuşuna alıb, maraqlandırıb və inandırıb. Təhkiyəni keçmiş zamanda ona görə qururam ki, bəlkə də, indiki uşaqlar " nağıl dünyasından" uzaq düşüb. Amma hanısı dövr, zaman olmasından asılı olmayaraq, hər bir insanın uşaqlıq və nağıl dünyası şəksizdir. Maraqlıdır ki, böyüklərin uşaqlar üçün uydurduqları nağıllarda yaranışın ilkinliyinin işartıları sezilir. Bəlkə, bu bir etirafdır.

Uşaqlıq dünyasında bir saflıq, bakirəlik yaşanır. Bəlkə, bu məqamda Tanrının bir ilkinlik işarəsi kodlaşıb. Qəbul etsək ki, Yaradan dünyanı yoxdan var edəndə ilkinlikdə bir saflıq var idi, onda belə nəticə çıxarmaq olar: öz dünyası olan uşaqların hisli-paslı düşüncə -fkirlərdən uzaq və məsumluğu da yaranışın ilkinliyinin saflığına işarədir.

İşıqlı dünyaya göz açdığım, (01 iyul 1961-ci il,F.Q.) nəfəs dərdiyim, torpağına qədəm qoyduğum ucqar dağ kəndlərindən biri olan Bürzünbül kəndindən uşaqlıq dünyam başlanır. Nağılları dinləyə-dinləyə, kitablardan oxuya-oxuya, hər nağılın ovqatına qatıla- qatıla. Amma dünyanı dərk etdikcə bu nağıllarda rəmzlər aramağa başladım.

"Tapdığın nağılı"nda olduğu kimi.

"Tapdığın nağılı"ndakı bu epizodu uzun illərdən sonra xatırlayanda uşaqlıq illəriimin sentimentallığına dönürəm: "Tapdıq az getdi, düz getdi, dərə, təpə, düz getdi, gedib bir qalaya çıxdı.Qalanı çox gəzdi,dolandı,bir quş da belə tapa bilmədi. Bir barıya rast gəldi. Tapdıq kəmənd atıb barının başına bənd elədi, üstünə çıxıb gördü ki, dünyada ...Barıdan düşmək istəyəndə hər tərəfdən çığırtılar qopdu:

-Ey Tapdıq, səni biz çoxdan gözləyirdik, yaxşı ki, gəlmisən..."

Dünyayla üz-üzə, göz-gözə qalan şair yazır:

Dünyanın gözünə dikdim gözümü,
Diksindim, tanıdım özüm-özümü.
Düyanın üzünə qoydum üzümü,
Gördükcə əyrilık, aradım düzlük.

Dünyanın səsidir haqq da, yalan da,
Haqqa tapınan da, haqqı danan da.
Vicdanın gözüylə fərqə varanda,
Gördükcə əyrilik, aradım düzlük.

Tapdıq Əlibəylinin ədəbi düşüncə məhsulu şərti olaraq dörd başlıca tendensiyanı özündə cəmləyir: ilahi dəyərlər,

irfani baxışlar və elmi biliklərin vəhdətiylə dünyanın dərki; təbiət və cəmiyyət müstəvisində sözün geniş mənasında gözəlliyin Tanrı zərrəsi olaraq tərənnümü və təqdiri, eləcə də bu fəzilliyə xələl gətirən hallara qarşı çağırış; bəşər övladının sosial və ictimai varlıq olaraq cəmiyyətdəki rolu və missiyası; bəşəri dəyərlər fonunda tarixi köklərə bələd olmaqla milli ozünüdərk və vətən sevgisi.

Sadaladığım bu cəhətlər bir müstəvidə-insanlıq adında küll halına gəlir ki, bu da insanlığın bədii portretinin ayrı – ayrı cizgiləri kimi səciyyələnir. Başqa sözlə Tapdıq Əlibəylinin yaradıcılığı bütövlükdə kamil insan obrazı, insanlığın poetik rəsmidir.

Yer üzü ilkindən uzaq,
Can evi bağlayıb sazaq.
İblsə qəlbdə gor qazaq,
Adəmin dönək ilkinə.

Vaxtilə V.Belinski yazırdı: "Şairin əsərlərini dərindən hiss edib yaşamaq -onların məzmununun bütün dərinliyini və zənginliyini ürəkdən duymaq, onların xəstəliyilə xəstələnmək, əzablarına qatlaşmaq, sevinci, təntənəsi və ümidlərilə sevinmək deməkdir. Müəyyən bir müddət icərisində şairin təsirinə qapılmayan, onu sevmədən, onun gözlərilə baxmadan, qulaqları ilə eşitmədən və dililə danışmadan şairi anlamaq mümkün deyildir. Ürəkdə bir qədər bayronist olmadan Bayonu, höteçi olmadan Höteni şillerçi olmadan Şilleri və s. öyrənmək olmaz.Əlbəttə, könüllü olaraq başqasının təsirinə bu cür qapılmaq -şairi sakitliklə, ciddi və tam mənası ilə anlamaq deyil, şairə son dərəcə heyran olaraq uymaq deməkdir; tam mənası ilə

anlamaq üçün bu heyranlıqdan soyuqqanlıcasına sakit seyrçiliyə keçmək lazımdır.”

Qəriblik çəkəcək ruhumuz hələ,
Dönük çıxırıqsa biz bilə-bilə.
Arı tək qonsaq da tər güldən-gülə,
Balın əvəzinə zəhər yığırıq.

Giley və təəssüfünü büruzə verən şair maraqlı bir bədii təsvirlə işıqla qaranlığı obraz qismində canlandırır.Təbii ki, qaranlığı işığa aparmaq mümkün olmadığı halda, əksinə- işıq qaranlığı aydınladır.

Gözlərini gözlərdən gizlətməyə görəmi,
özlərini özgələrdən gizlətməyə görəmi
geyilir gözlərə qara gözlü gün eynəyi?..
Bəlkə, elə beləsi qaranlığa öyrəşdikcə,
Aydınlıqda sinə verilən yerdə
önə verir kürəyi.
Onsuz da yaranişdan qaranlıqdadır ürək,
Bəsirətdən işıq alsın,
aydınlığa çıxsın gərək...
Günəş ziyasından nəyə gərək gizlənmək?
İşə bax ha, kölgəsindən ürkən -qara ürək,
İşıqdan qorunmaq üçün - qara eynək...

Qeyd edim ki, özündə T.Əlibəylinin yaradıcılıq dəyərini ehtiva edən, onun ədəbiyyatımızdakı yerini müəyyənləşdirməkdə bələdçi olacaq ayrı-ayrı fikirləri şairin söz boxçasının örnəklərilə müvazi olaraq yenidən “görüntüləmək” istəyirəm. Ədəbi, elmi, pedoqoji mühitdə yetərincə tanınan, ziyalı mövqeyi ilə seçilən qələm sahiblərimizdən iqtibas etməkdə məqsədim subyektiv fikir məhdudluğunu aşaraq istinad etdiyim fikirlərlə obyektivliyi təmin etməkdir.

Unudulmaz Xalq şairi **Məmməd Araz** T. Əlibəylinin şeiriyyətindən məmnunluğunu belə ifadə edir: " Tapdıq Əlibəylinin ehtizazlı şeir ifasından əməlli-başlı təsirləndim. Mənə xitabən yazdığı bu şeirdə sozümü sözündə necə məharətlə işlətməsindən məmnunluq duydum:

O- "iti bazarında atından baha" dünya,
"...taleyin oyununda" neçə kərə kəm oldu.
Arazın axarını kəsdi "xırsız əjdaha",
Ürəklər qübarlandı, gözün payı nəm oldu...

Cağdaş poeziyamızın ağsaqqal təmsilcilərindən olan Prezident təqaüdçüsü **Ilyas Tapdıq** yubilyar haqqında yazır**:** " Tapdıq Əlibəyli həyatda olduğu kimi, şeirlərində də səmimidir.Görünür, dünyaya göz açdığı dağların saflığı onun xislətinə, varlığına hopduğu kimi, söz dünyasına da sirayət etmişdir.

Qələm dostumuz dünyadakı, ictimai həyatımızdakı təbəddülatlar fonunda ədəbiyyatımızın "ədəb normalarına" həssaslıqla yanaşan və əməl edən söz adamıdır."

Ehmalca əyildim Çanaq bulağa,
Toxundu dodağım soyuq yanağa,
Öpüşə qərq olub dodaq-dodağa,
Oxşadı könlümü bulaq busəsi-

deyən şair təbiətdən uzaq, kövrək bir ovqatda isə sözə sığınaraq yazır:

Söküldükcə ilmə-ilmə,
Sığınmışam söz, qələmə,
Köz olanda söz dilimə,
Qalanmışam kəlmə-kəlmə.

Dilə bələdlilik və dilin imkanlarından məharətlə istifadə Tapdıq Əlibəylinin yaradıcılığında yüksək bədii

təfəkkürün təzahürünə zəmin yaradır. Bu cəhət demək olar ki, onun yaradıcılığını ilkin mərhələdən bu günədək izləyir. Əbəs yerə deyil ki, bədii sözün qüdrətinə tapınan **Musa Yaqub** onun poetik zövqünü yüksək qiymətləndirir:

“Qələm dostumuz Tapdıq Əlibəyliyə Buynuzda qonağım olarkən “Nanə yarpağı”mı hədiyyə etdim, o isə mənə yenicə işıq üzü görən müəllifi olduğu “Torpağin səsi” kitabını...Səmimi desəm, Tapdığın poetik zovqü marağıma səbəb oldu və gənc şairin kovrək duyğuları, soz çələngi fikrimdə boyük ümidlər nuruna boyandı.”

Ümid alovunda yanır kədərim,
Qızınır odunda düşüncələrim.
Tanrım, sabahıma Sən özün kərim!
Sönməsin atəşim vaxtsız-vədəsiz.

Düşüncələri ümid alovunda qızınan Tapdıq Əlibəyli cəmiyyətə, həyata, ictimai –siyasi hadisələrə münasibətdə sənətkar stixiyası ilə hərəkət edir.Onun qələm sahibi olaraqvətəndaş mövqeyi, ziyalı məsləki Xalq şairi, millət vəkili **Sabir Rüstəmxanlı** tərəfindən belə dəyərləndirilir: “Tapdıq Əlibəyli bu gün hər bir azərbaycanlını narahat edən dərdli, ağrılı problemləri içində yaşadan, vətəndaş məsuliyyyətini aydın dərk edən, ilhamını bu ağrılara kökləyən şairdir; müharibə içində, düşmənlə üz-üzə olan millətin yükünü daşıyan, öz sözü ilə elə ümid, təsəlli verən, sözünü silaha çevirən qələm sahiblərindəndir.

Oxuduğum, dinlədiyim şeirləri, bir fərd kimi sahib olduğu şəxsi keyfiyyətləri, vətəndaşlıq yanğısı və bu yanğını uğurlu poetik sözə çevirə bilmək qabilliyyəti onu çağdaş ədəbi nəslin seçilən nümayəndələrindən biri kimi səciyyələndirməyə imkanverir”.

Xətai babamın şah qüdrətiylə,
Qazi Bürhanəddin şeiriyyətiylə,
Qorunan dilimin əzəmətiylə,
Oğuz yadigarı odum-ocağım

Sevimli şairimiz, alim-pedaqoq **Oqtay Rza** yazır: "...O şeir ki, Tapdıq Əlibəyli onu "sovqat" kimi arzulayır:

Könül verdin saza-sözə;
Günəş doğdu sanki üzə,
Söz sovqatı göndər bizə,
Şeir- sözün ən göyçəyi."

T.Əlibəyli şeirlərinin başlıca məziyyətləri haqqında danışarkən**,** onun müəllimi olmuş yazıçı- publisist, tənqidçi **Səyadulla Kərimlinin** bir fikrini xatırlatmaq yerinə düşər: "Çağdaş Azərbaycan ədəbiyyatında öz dəst-xətti, orijinal yazı manerası ilə seçilən yazarlar sırasında Tapdıq Əlibəylinin xüsusi yeri və çəkisi vardır.

T.Əlibəyli şeirlərinin başlıca məziyyətləri hansılardır?

Dilimizin poetik imkanlarından səmərəli istifadə, poetik detalların yerli-yerində işlənməsi və ən başlıcası isə bunarın hamısının bütövlükdə xalqımızın etnoqrafiyası ilə vəhdətdə təsviri...

Müasir həyatımızdakı hər hansı bir adiliyin böyük poetik vüsətlə tərənnümü, ilk baxışda insanlara adi görünə bilən hadisə və faktların ictimai fonda verilməsi, ona milli münasibət Tapdığın şeiriyyət çələnginə xas olan cəhətlərdəndir."

Nifrətim qılıncla,sevgim qopuzla,
Boylanır tarixin neçə qatından.
Ulusum qovuşur Xaqan Oğuzla,
Qanım rəng alıbdı Qorqud zatından.

Nifrəti qılıncla, sevgisi qopuzla tarixin neçə qatından boy göstərən Tapdıq Əlibəylinin poetik baxış müstəvisində gözəllik maraqlı "görüntülərlə" müşayiət olunur. Elə pedoqoji elmlər doktoru, professor **Ağahüseyn Həsənovun** da bu yöndə fikri maraq doğurur: " Sən istedadlı şairsən, sözün "çəkisini" bilir və duyğularını duyğulandıra biləcək çalarlara bürüb-bükə bilirsən. Poetik dünyan zəngin, rəgarəngdir.Öz deyim tərzin, səsin vardır. Sənin duyumunda gözəlliyin öz gözəlliyi var. Necə ki, deyisən:

Gözümə,könlümə köçən gözəllik,-
Tanrıdan boy alan bir əzəlilik.
Gəlimdən gedimə yol-əbədilik,
Baharla payızın gözəlliyi tək.

Hər şairin şeiri yadda qalmır. Mübarək günlərdə, toy -düyündə söylədiyim sənin bu söz çələngininin yaddaşa hopması isə təbiidir:

Bahar çiçəyini payız bar edir.
Gül-çiçək şirəsin arı bal edir.
Məhəbbət yadları doğma, yar edir.
Mübarək günümüz mübarək olsun."

T.Əlibəylinin mübarək günlərinin birində jurnalist, yazıçı-publisist **Əliağa Yasinzadə** ona xoş sozlər ünvanlayır: "Əzizim Tapdıq, özümə borc bilirəm yadına salım–mən "Savalan" ("Azərbaycan pioneri") qəzeti redaksiyasında işləyərkən yanıma gəlmişdin.Burası yadımda deyil ki, söhbətimiz necə keçib?..

"Haqqa dayaq doğulmuşuq" qaranquş kitabını dostlarımdan birinin masası üstündə görəndə, çox maraqlandım. Şəklini görən kimi hər şeydən əvvəl ağıllı gözlərin yadıma düşdü, bildim ki, çoxdan tanışıq.

Kitabını bir nəfəsə vərəqlədim, şeirlərini oxudum, açıq ürəklə yazıram ki, əksəriyyəti xoşuma gəldi. Səni ürəkdən təbrik edir, bağrıma basıb öpürəm.

Səməd Vurğun demişkən, biz gəldi-gedərik... Nə yazmışıqsa, nə yazırıqsa, bu fani dünyada bizdən sonra onlar qalacaq. Bu mənada arzum odur ki, bundan sonra da yeni-yeni ktabların cıxsın! Hər kitab bir hünər, bir qəhrəmanlıqdır. İnan ki, səmim -qəlbdən sənə yeni uğurlar arzulayıram!

Qoy misralarından həmişə Günəş nuru ələnsin! "

Ovqatımın aynası-
Təzadların boyası.
İşıq tutur aynaya
Söz yükümün mayası.

Tarixçi-alim, yazıçı–publisist **Nizami Kazımoğlu Turantürk** "Bəzəksiz söhbət: tarixləşən və çağdaş məqamlar" başlıqlı müsahibəsində ("Konstitusiya" qəzeti, 15 .09. 2006) Tapdıq Əlibəyliyə deyir:-Əlbəyli, söhbət ki, şeiriyyətdən düşdü, onda bir məqamı da yada salım. O məqam ki, elə sənin özünlə bağlıdır. Neçə illər əvvəl sənin şeirlərinin bir qismini birnəfəsə oxuyandan sonra demişdim ki, Tapdıq Əlibəyli oz məqamı olan şairdir. Dilinin "açarı" ilə könlümə yol tapan və məni düşündürən şairdir Tapdıq Əibəyli !

Bu fikri bilirsənmi niyə xatırlatdım? Ona görə ki, indi "şeir" yazan çoxdur, amma sözün bədii qüdrətiylə məqam qazanmaq tamam başqa bir nəsnədir. Axı yaxşı şeir ruha qidadır."

Mavi sözün sehrindəyəm,
Pıçıltılar nəhrindəyəm.

Gözəlləşən yerəm, göyəm,
Nur selində üzür ruhum.

Sözün sehriylə ruhu nur selində üzən şairin səsi filologiya elmləri doktoru, şair **Dəmir Gədəbəyliyə** də yaxşı tanışdır: "Tapdıq Əlibəyli şair ömrü yaşayan söz adamıdır. Onun şeirlərində bir məhrəmlik duydum. Oxuduqca hər misranın poeziya mehi duyğularıma sığal çəkdi. Öz-özlüyümdə pıçıldadım: şair, "bu səs mənə tanış gəlir".

Səs lahi nidasıdır,
Ruhum səslə doyasıdır.
Bu ki, dərviş sədasıdır,-
Bu səs mənə tanış gəlir.

Qavalın qurd dərisimi?
Alım səndən öz dərsimi.
Qaytar mənə öz səsmi,
Bu səs mənə tanış gəlir."

Haqq səsinin eşidilməsini istəyən, ruhu səslə (Azərbaycanın haqq səsi) doyacaq sevdalı şair bütöv Azərbaycan məsləkində inamlıdır.

Düşdüm babaların gedən izinə,
Qeyrət addımladı hər addımbaşı.
Bütöv Azərbaycan –sonsuz xəzinə,
Əvəzsiz yadigar –torpağı, daşı.

Bu qətiyyətə bələd olan yazıçı, filoloq -alim **Səfər Kəlbixanlının** fikrincə: "Tapdıq Əlibəyli Vətən təşnəsiylə nəfəs alıb, nəfəs verən şairdir. O, oxucu ilə görüşə təkcə lirik duyğular, həzin və kovrək hisslərlə yox, həm də özünün fəlsəfi baxışlarıyla gəlib. Bu da maraqlıdır ki,

Tapdığın fəlsəfi baxışları türkçülüklə, milli soykökümüzlə sıx surətdə bağlıdır. Başqa sözlə Tapdıq fəlsəfəsi islam dininə söykənir, türk psixologiyasına dayaqlanır və bu iki amilin qovuşuğundan onun oz fikirləri formalaşır. Yuxarıda dediyimiz anlamların sübutu kimi səslənən:

İkicə kəlmədir ömrün qazancı,
Birisi "rəhmət"dir, birisi "lənət".
Biri şirindirsə, birisi acı,
Hər kəsin əməli özünə qismət.-

sətirləri bir tərəfdən müəllifin öz tariximizi (istər din, istərsə də dil !) kifayət qədər bilməsini göstərirsə, digər tərəfdən onun mənəvi təmizliyindən və daxili potensialından xəbər verir."

Səhrada qum təşnə suya,
Yer üzünün dəryası bol;
Çəmən sudan doya-doya,
Tapa bilmir səhaya yol.

Suya təşnə səhraya çəmənlik arzulayan Tapdıq Əlibəyli "Həqiqət nağılım"ını maraqlıbir ümumiləşdirməvə ritorik sual dolu ovqatda bitirir: "...nağıl rəmzlərini yaddan çıxarmayaq. Bu dünyada nələr olmur? Dünən nağıl -bugün gerçək, bu gün gerçək olan -sabah nağıl ola bilər. Elə mənim həqiqət nağılım kimi.

Bu nağılda göydən üç alma düşməsini gözləmədim. Gözlədiyim üç həqiqətdir: işğal olunmuş torpaqlarımızın azadlığı, müstəqil dövlət olaraq xalqın rifah səviyyəsi yüksək olan inkişaf etmiş bir məmləkət və mütləq mənada etiraf. Bu üçlük isə göydən düşən deyil, hələ ki, nağıl görüntüsü olsa da... Hərgah əllərimizi uca göylərə tutub duaçı olduğumuz Ulu Tanrı bizə yar olmaqla özümüzdə

təpər tapıb bu missiyanın öhdəsindən gəlməliyik. Beləcə, mənim həqiqət nağılım bitdi, yoxsa başlayır?.. “

Ömrün şəfəqidir şirin arzular,
Alıb ağuşuna yolar aparar.
Mənzilə yetişib tutanda qərar,
Tanrı işığıdır xoşbəxtlik anı.

Tanrı işığında (sözə könül verdiyi gündən sözə sədaqətlə) 50 illik yol qət edən Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, “Heyrət” Ədəbi Birliyinin qurucusu və rəhbəri, “Konstitusiya” qəzetinin, “Heyrət” dərgisinin təsisçisi və baş redaktoru,“Qızıl qələm” mükafatı laureatı, yüzdən çox kitabın redaktoru, xeyli sayda ön söz, məqalə, publisistik yazıların müəllifi olan Tapdıq Abış oğlu Əlibəylinin “Haqqa dayaq doğulmuşuq “, “Torpağın səsi”, “Ovqatımın aynası”, “Yol gedənindir”, “İman qaynağı”, “Fəzilət yolu”, “Söz dərgahına merac”, “Nisgil odu”, “General ucalığı”, “Zirvə işığında, dağlar qoynunda”, “Soyqırım Nahaq qan yerdə qalmaz”, “Zaman kecər, söz qalar”, “Zirvələr səhər nurunda”, “Könül ziyarəti”, “Ziyalı nuru” şeir və publisistik kitabları nəşr olunmuş və dövlət müstəqilliyimizin bərpa edilməsinin iyirmi illiyinə ithaf olunmuş “Azərbaycan” adlı diski (şeirləri səsləndirib:müəllif) kütləvi tirajla işıq üzü görmüşdür.

Bir çox ədəbi mükafatlara layiq görülmüş T.Əlibəyli jurnalist fəaliyyəti və ədəbi yaradıcılığındakı vətənpərvərlik motivlərinə görə Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti Respublika Şurasının “Yubiley “medalı ilə təltif edilmişdir.

Bütün bunlar Tapdıq Əlibəylinin nağıl həqiqəti yox, sadəcə olaraq həqiqət "nağılı"dır.

Qoy bu "həqiqət nağılı" Ulu Yaradanın mərhəmət iradəsi ilə daha da rövnəqlənsin.

" Mübarək günümüz mübarək olsun."

**Firudin Qəmbər Saleh,**
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
"Qızıl qələm" mükafatı laureatı

*01.07.2011*



Vətənə sədaqət müqəddəsdir.
**Azərbaycan Respublikasının Konstitusiyası**

## TAPDIQ ƏLİBƏYLİNİN "AZƏRBAYCA" SƏSİ
(son söz yerinə)

Şərəf tariximizi-özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmiş Azərbaycan Respublikasının dövlət müstəqilliynin 20 illiyini qeyd etdiyimiz bir ərəfədə Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm " mükafatı laureatı şair-publisist Tapdıq Əlibəylinin dövlət müstəqilliyimizin bərpa edilməsinin iyirmi illiyinə ithaf olunmuş **"Azərbaycan"** adlı diski (Bakı, "Nurlu sabah" MMC, 2011) işıq üzü görmüşdür.

Diskdə yer alan "Əzəldən", "Haqqı tapdananıq, haqqa tapınaq", "Qanına qəltan Xocalı" (poema), "Döyüşçü yarası çətin sağalar", "Mübariz", "Vətənin nicatı əsgərindədir", "Kini, ədavəti düşmən seçibdir", "Kəfəndir əynimə geydiyim mundir", "Şəhid məzarı", "Qisasa səsləyir torpağın ahı ", "Ağlama, ay ana!", "Qoyma gözü yaşlı el ismətini", "Sinəsi dağlı dağlar", "Nəsillər soraqlar igidoğlunu","Sənin","Görsün qarı düşmən türk qüdrətimi" və "Azərbaycanım" adlı şeirlər milli ruhun bədii inikasıdır desək, yanılmarıq.

Qeyd edim ki, bu yazıda məqsədim Tapdıq Əlibəylinin diskdə yer alan poetik örnəkləri haqqında təqdimat xarektrli fikir bölüşməkdir.

Müəllif, şeirləri təsiredici, çalarlı musiqi sədalarının müşayiətilə səsləndirib. Səslənməyə kompozisiya boyu könülləri riqqətə gətirən bir diksiya hakimdir. Şeirlərə həyacansız qulaq asmaq, demək olar ki, qeyri-mümkündür. Bu da sözlə səsin, mətnlə musiqinin, məzmunla formanın bir-birini tamamlaması və bədii qiraətin fonunda zillə bəmin, kövrəkliklə sərtliyin harmonik aura yaratması ilə izah oluna bilər.

Şeirləri dinlədikcə, hiss edirsən ki, şair hər misraya ürəyinin odunu yükləyib.

Tanrılaşan xilqətimdir bu torpaq,
Miras qalan qüdrətimdir bu torpaq,
Əbədi bir həqiqətim- bu torpaq,
Ürəyimə yolları var əzəldən-

deyən şairin şeirlərindən boy göstərən milli varlıq ləyaqəti, Azərbaycançılıq qayəsi qürur doğurur:

Vətən torpağına türk əkilmişəm,
Oğuzun qatında bitibdir rişəm,
Atilla ruhundan mən göyərmişəm,
Günəşim, suyumsan, Azərbaycanım!

Bədirli ayımsan, Azərbaycanım!
İkili sayımsan, Azərbaycanım!
Qorqudum, boyumsan, Azərbaycanım!
Adımsan, soyumsan, Azərbaycanım!

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul edildi. Yaddaşlardan silinməyən həmin gün tarixdə dövlət müstəqilliyimizin bərpası günü oldu. Dövlət müstəqilliyimizin yolu isə şəhidlikdən, neçə -neçə yurd yerlərimizin yağı düşmən tərəfindən yağmalanmasından keçir.

Ocaq söndürülüb,yurd talanıbsa,
Ağır ellərimiz viran olubsa,
Hələ ki arzusu gözdə qalıbsa,
Döyüşçü yarası çətin sağalar.

Elə dünənkisə açılan səhər,
Bu yara qaysaq da bağlamaz, əsgər!
Düşməndən intiqam almasaq əgər,
Döyüşçü yarası çətin sağalar.

Yaralı döyüşçü gör nə söyləyir:
-Veteran deməyin, məni göynədir.
Zəfər döyüşümüz hələ öndədir...
Döyüşçü yarası çətin sağalar.
Döyüşsüz yaramız çətin sağalar.

T.Əlibəylinin işğal olunmuş torpaqlarımızın azadlığına çağırış olan bu qənaəti mənə bir döyüşçü olaraq məhrəmdir. Bəli, müstəqil Azərbaycanımızın zəfər döyüşü hələ öndədir!

Dünyada 3 mindən artıq xalq, 245 ölkə və Birləşmiş Millətlər Təşkilatının üzvü olan 192 dövlət vardır. Ümumilikdə isə dövlətlərin sayı 200- dən artıqdır.

Heç də yer kürəsində olan xalqların hamısının müstəqilliyi və dövləti yoxdur.

Hər bir xalqın müstəqilliyi onun ən böyük sərvətidir. Bu sərvəti isə Vətən köynəyindən keçən oğullar qoruyur.

Torpaq Vətənləşər şəhid qanıyla,
Vətən bütövləşər şəhid qanıyla,
Topağın bətnində adı -sanıyla
Vəhdət məqbərəsi -şəhid məzarı.

Qanla suvarıldı Vətən torpağı,
Qanlı köynək oldu Vətən bayrağı,
Torpağın, Vətənin rəmzi dayağı,
Hürriyyət kəlməsi -şəhid məzarı.

T.Əlibəyli "Mübariz" şeirində qələbə əzmli səslə deyir: - Düşmənlə döyüşdə qəhrəmancasına həlak olmuş şəhid gizirimiz, Azərbaycanın Milli Qəhrəmanı Mübariz Ağakərim oğlu İbrahimovun doğulub boya-başa çatdığı Əliabad kəndinində oldum və valideyinlərini ziyarət etdim. Şəhid atası, əli dəstəmazlı, ağzı dualı, qəlbi imanlı Ağakərim kişi ilə sohbətimizdə oğlunun şəhid olduğu gündən sübh namazını birgə qıldıqlarını söylədi...Bu həqiqətin işiğında deyirəm: Allah ibadətinizi qəbul eləsin. Məqamın mübarək, Mübariz!

"Yolum şəhidlikdir"- eylədi bəyan,
Təki qazi olsun qoy Azərbaycan.
Üç rəngli bayrağa fəda etdi can,
Qəhrəman adını aldı Mübariz.

Vətən köynəyindən keçdi Mübariz,
Andını Vətənə içdi Mübariz,

Öz zəfər yolunu seçdi Mübariz,
Əsir topaqlara yoldu Mübariz.
Düşməni sarsıdan qoldu Mübariz.

Mübariz ruhlu bu misralar düşmənə nifrət, doğma Vətənə məhəbbət hissləri təlqin edir və əsir torpaqlara yolun Mübariz məsləkindən keçdiyini bəyan edir.

Axı bu torpağın, bu millətin Xocalı fəryadı, Xocalı səsi qanına qəltan edilmiş yurd yerlərimizin asimanında hələ də sərgərdan dolaşan ruhlarımızladır.

Ən rəzil, ən mənfur bir yol gedildi,
Xocalı qanına qəltan edildi.
Dünya nə dinlədi, nə də dilləndi...
Əsrin faciəsi –Xocalı səsi.

Ölümlə "ovutdu" ana körpəsin,
Boğdu, eşitməsin düşmənlər səsin.
Yadından çıxarmı görən bir kəsin?..
Əsrin müsibəti-Xocalı səsi.

Qucaqda körpəsi süd verən ana,
Düşmən gülləsiylə boyandı qana.
Körpə qanı əmdi süd sana-sana...
Əsrin faciəsi –Xocalı səsi.

Körpəyə qan dadızdıran amansız düşmən necə ola bilər ki, cəzasız qalsın?..Yox, nə qədər humanist, nə qədər insanlığa sevgimiz olsa belə...

Sevgidən güc alıb qələmim, Allah,
Kini ,ədavəti düçmən seçibdi.
Qanım qisas deyir, məndə yox günah,
Ölüm libasını özü biçibdi...

Əcdadımızın mədfəni, özümüzün, övladımızın məskəni olan Vətən torpağının poetik səciyyəsidir bu misralar:

Əvvəlin sonudur, sonun əvvəli,
Min illər sorağım –torpağın səsi .
Yaranmış içində torpaq qüvvəli,
Dönəcək törpağa Tanrı bəndəsi.

Cəmiyyətdə təbəddülatların tüğyan etdiyi bir zamanda, dünyanın “zor dilində” “danışması” “torpağın səsi” ni boğmağa yönələndə şair dünyanın ikili standartlarına qarşı öz etiraz səsini ucaldır:

Dünya zor dilində danışır yenə,
Min il də, yüz il də əvvəl beləymiş.
Həqiqət gör necə düşüb düyünə,
Ədalət libasın şər geyinərmiş.

Azərbaycanın işğal altındakı torpaqlarında təbiət qanunları belə pozulub ...

Gülüstan libasın dağlar soyunub.
Gül-çiçiyin ətri barıt qoxuyur.
Qartallar zirvədən dərəyə qonub,
Bülbülün yerində bayquş oxuyur.

Bürünüb həsrətə dərdli yamaclar,
Lalələr dəyişib öz al rəngini .
Güllələr saçını yolan ağaclar
Unudub quşların xoş ahəngini.

Səngərdən o üzdə tapdaq torpağım,-
Ayırır əsgəri göz məsafəsi.
Burda qəribsəyir üçrəng bayrağım...
Çəkəcək özünə Vətən sevgisi.

Vətən sevgisinə bələnən ədibin cəngavərlik ruhunu özündə ehtiva edən "Görsün qarı düşmən türkqüdrətimi" şeirində şanlı keçmişimiz fəxarətlə anılır və o özüllərə dayaqlanan əzəmətlə müstəqil Azərbaycanın ərazi bütövlüyünün gerçəkləşməsi inamla vurğulanır...

Tarix səhnəsində igid ərənlər
Yazıb salnaməsin ox- nizəsiylə.
Bu torpaq yetirən gör neçə öndər
Adın təsdiqləyib türk imzasıyla.

Doğma ata yurdum, Azərbaycanım,
Bu gün qoxumalı səngər "ətrini".
Eşit, zərrə qədər yox həyacanım,
Yağılar görməli Türk qüdrətimi.

Müstəqil Azərbaycanımızın bütövlüyü uğrunda, onun ucalığı, müqəddəsliyi keşiyində qələmiylə müsəlləh əsgər olan şairimizin "Azərbaycan" səsinə səs veririk .

***Əşrəf Fərzəli,***
*" Heyrət" Ədəbi Birliyinin üzvü,*
*"Məslək" mükafatı laureatı*

*18 .10.2011*

# Mündəricat

Tapdıq Əlibəylinin irfan poetikası ............................ 3
Söz kəhkəşanında poeziya bürcü.............................. 21
Duyğuların şəfəqləndiyi poeziya................................ 29
Sözün işığında bir ömür yaşanır................................. 38
Alim də şair də ziya yiyəsi ......................................... 43
Tükənməz poetik işıq ................................................. 49
“Şair ilhamında söz təzələnir”.................................... 55
Haqqa çağırış.............................................................. 60
“Allah Allah... deyir ürək” .......................................... 64
Sən ki bələd bu dünyaya............................................. 71
“Üzümü söykəyib göyün üzünə...”............................. 84
Şair ömrü-bayatı sədası .............................................. 88
Bütöv Azərbaycan olmalıyam mən ............................ 94
Ürək ritmi .................................................................... 99
Dilin yaddaşını oyandıran nəsr................................... 104
Eşqin şəhidi ................................................................ 111
Tarixi həqiqətlərlə üz-üzə........................................... 118
Didərgin pirani .......................................................... 126

“Mənim sazlı-sözlü dünyam”la tanışlıq ..................... 133
Bu səs mənə tanış gəlir ............................................. 138
Tapdıq  Əlibəylinin həqiqət nağılı ............................ 144
Tapdıq Əlibəylinin “Azərbaycan” səsi ....................... 159



**«Елм вя Тящсил» няшриййатынын директору:**
**профессор Надир МЯММЯДЛИ**

**Дизайнер: Zahid Məmmədov**
**Техники редактор: Yadigar Bağırova**
**Korrektor: Xəyal Əlibəyli**

Йыьылмаьа верилмиш **12.02.2013.**
Чапа имзаланмыш **10.03.2013.**
Шярти чап вяряги **10,5.** Сифариш **№ 15.**
Каьыз форматы **84x108 1/32.** Тираж **500.**

Китаб **«Елм вя Тящсил»** няшриййат-полиграфийа
мцяссисясиндя сящифяляниб чап олунмушдур.
**E-mail: elm_ve_tehsil@box.az**
Тел: 497-16-32; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.